**Abstract**

Education is developing rapidly in the Republic of Azerbaijan. The main reasons for the development of our education are its integration into education in developed countries and the creative use of new innovations. A synergistic approach to education also has a special role in its development. Such education contributes to the comprehensive and harmonious development of students and their formation in a competitive manner.

The article touches on the essence of synergetics in education, its connection with methodology and philosiphical, the role of all three in achieving goals.

***Keywords:*** *synergetics, methodology, creativity, philosiphical, cognition, pedagogu*

## Giriş

Cəmiyyət inkişaf etdikcə onun tərəqqi etməsində əsas amillərdən biri olan təhsil də inkişaf edir. Təhsilimiz həm inkişaf etmiş ölkələr tərəfindən qəbul edilən metodologiyalara, həm də dövrün tələbinə uyğun dövlət tərəfindən qəbul edilən qanun, tələb və sərəncamlara uyğun formalaşır.

Təhsilin əsasını təşkil edən təlim metodları da metodologiyaya uyğun inkişaf edir və yeni təlim sistemləri-taksonomiyalar, metodlar yaranır.

Geniş elmi dünyagörüşünə malik olmaq, ahəngdar inkişaf etmək üçün məqsədəuyğun fəaliyyət göstərmək, fəaliyyət sahəsinə uyğun elmlərin əsaslarını və metodologiyasını bilmək lazımdır.

Dahi rus fiziki, Nobel mükafatı laureatı P.L.Kapitsa yazırdı: “Həddindən çox işləyib az düşünən adam yaxşı işçi deyil” (Dahilərin ömür yolu, 2010: 88).

Fəaliyyət göstərdiyi sahədə müvəffəqiyyət qazanmaq üçün düşünmək, həm də məqsədə uyğun nə isə əldə etməkdə müxtəlif elmlərdən əldə etdiyi bilikləri sistemləşdirmək, onlara sinergetik yanaşmaq lazımdır.

"Sinergetika" yunan sözü olub "Sinergos" sözündən götürülüb "birlikdə təsir" deməkdir. Adətən fiziologiyada işlədilən termindir (Azərbaycan Sovet Ensiklopediyası, 1984: 44).

Sinergetik düşünmək yaradıcılıqla sıx bağlıdır desək, səhv etmərik. Yaradıcılıq o vaxt yüksək ampulada təzahür edə bilər ki, heç olmasa, yaxın və qohum elmlərdən bu sahədə çalışanın geniş məlumatı olsun. Pedaqoji kadr hazırlığında pedaqogikanı, onun sahələri ilə əlaqədar və ya bağlı olan elmləri bilmək, pedaqoji fəaliyyətdə onları nəzərə almaq səriştəli, səviyyəli, rəqabətəqabil şəxsiyyət formalaşdırmaq deməkdir (Azərbaycan Respublikasında Ümumtəhsilin Konsepsiyası, 2006).

Sinergetika idrakın formalaşmasında mühüm rol oynayır. Elmi idrak fəaliyyətin prinsiplərinin, formalarının, vasitələrinin, metodologiyanın əsasını təşkil edir (Əhmədov, Rzayev, 1983: 88).

Bəzi ədəbiyyatlarda pedaqoji təlim prosesinin metodologiyası dedikdə "Fəlsəfə" elmi nəzərdə tutulur. Rus pedaqoqu A.S.Makarenko deyirdi ki, pedaqogika ən dinamik, inkişafda olan elm olmaqla yanaşı, onda fəlsəfənin bütün qanunları cərəyan edir.

Metodologiya dedikdə elm və əməli fəaliyyət metodları və üsullarının yaranması, inkişafı, bir-birini əvəz etməsi qanunauyğunluqları haqqında elm kimi başa düşülür (Paşayev, Rüstəmov, 2007: 29).

Heygel fəlsəfəsinə görə metodologiya məzmunun hərəkətidir, buna görə də məzmunla əlaqə də nəzərdən keçirilməlidir (yenə orada).

Digər ədəbiyyatlarda metodologiyanın məzmununa fərqli yanaşmalar vardır:

- Metodologiya maddi aləmin dərk olunması prosesində tədqiqatçının əldə rəhbər tutduğu fəlsəfi təlimdir (Əhmədov, Rzayev, 1983: 21).
- Metodologiya nəzəri və praktik fəaliyyətin təşkili prinsipləri və vasitələri sistemidir (İsmayılov, 1999: 365).
- Metodologiya elmi idrakı fəaliyyətin prinsipləri, formaları, vasitələri haqqında təlimdir (Həsənov, Ağayev, 2007: 38). Metodologiyanın ən yüksək səviyyəsini fəlsəfə təşkil edir. Bu səviyyə idrakın ümumi prinsiplərini, bütövlükdə elmin kateqoriyaları sistemini əks etdirir. Bütün fəlsəfi biliklər metodoloji vəzifələri yerinə yetirir.

Metodologiyaya elmi idrak fəaliyyətinin prinsip, forma, metodları haqqında təlim kimi yanaşmalarda vardır.

Metodologiyanın mahiyyətinə verilən yanaşmaları ümumiləşdirsək deyə bilərik:

Metodologiya elmi idrak fəaliyyətinin (eləcə də pedaqoji) istiqaməti, strukturu, prinsipləri, forma və vasitələri haqqında təlimdir.

Hər hansı sahədə, o cümlədən pedaqoji sahədə tədqiqatlar aparmaq, təlim prosesini müvəffəqiyyətlə həyata keçirmək üçün metodoloji biliklərə yiyələnmək lazımdır. Metodoloji biliklərə yiyələnmək müəllimlər üçün daha çox lazımdır. Ona görə ki, pedaqoji prosesdə müəllim həm öyrənib-öyrədən, həm də tədqiqatçı və yaradıcı şəxsdir.

Pedaqogikada metodologiyaya pedaqoji gerçəkliyin, yəni pedaqoji fakt, hadisə, proseslərin dərk edilməsi və dəyişdirilməsi haqqında nəzəri müddəaların məcmusu kimi baxılır. Metodologiya tənzimləyici və normativ funksiyanı yerinə yetirir.

Müasir təlim texnologiyaları didaktikanın inkişaf qanunlarına uyğun formalaşır. Təsadüfi deyildir ki, vaxtilə rus pedaqoqu A.S.Makarenko göstərirdi ki, pedaqogika daim inkişafda olan elmdir.

İdrakın ən ümumi prinsipi olan hərəkət, dəyişmə, inkişaf pedaqogikanın metodologiyasında və praktiki olaraq istifadə edilən metodlarında da təzahür edir.

Sosial cəmiyyət, həyat bütün istiqamətlərdə, özü də sürətlə inkişf edir. Sosial həyatın bir ünsürü olan pedaqogika elmi də sürətlə inkişaf edir. Dialektik inkişaf konsepsiyasına görə artıq faydasını başa vurmuş kəmiyyətlərin (vasitələrin) aradan çıxması, daha əhəmiyyətliləri ilə əvəz olunması deməkdir. Bu isə kəmiyyət dəyişməsinin keyfiyyətə keçməsi kimi səciyyə daşıyan fəlsəfənin birinci qanununa uyğundur (Marksizm Leninizm fəlsəfəsinin əsasları, 1980: 95). Pedaqogikanın inkişafında da dialektikanın bu xüsusiyyəti nəzərə alınır: pedaqogikada elə metodlar vardır ki, tələbə və şagirdlərin marağını, tələbatını, istəyini təmin edə bilmir. Belə metodları inkar

etmək daha səmərəli və arzu edilən metodları pedaqogikaya gətirmək zəruri edilir. Bu ifadə inkarı qanununa uyğun olmaqla inkişafın istiaqmətini, köhnə ilə yeninin əlaqəsini aşkara çıxarır (Hacıyev, 2001: 196). Bu qanun tələb edir ki, köhnəni inkar edərkən onda olan müsbət xüsusiyyətləri saxlamaq lazımdır. Pedaqogikada elə metodlar vardır ki, onları saxlamaq, yeri gəldikcə onlardan istifadə etmək lazımdır. Məsələni illüstrasiya və demonstrasiya metodlarını inkar etmək olmaz.

Pedaqogikada əksiliklər çox vaxt eyni ampulada çıxış edir. Əksiliklərin vəhdəti və mübarizəsi qanunu inkişaf prosesinin daxili mənbəyini və hərəkətverici qüvvəsini aşkara çıxartdığı üçün dialektikada böyük rol oynayır (Hacıyev, 2001: 193). Bu qanun mahiyyətini ona aid olan “eyniyyət”, “fərq”, “əksilik”, “ziddiyyət” kimi anlayışlarla açmaq olar. Eyniyyət predmetin müəyyən zaman ərzində öz-özünə bərabər olmasını ehtiva edir, bu hal müvəqqətidir. Müəyyən vaxtdan sonra predmet fasiləsiz olaraq dəyişikliyə uğrayır, özündən fərqlənir. Burada fərq dedikdə hər hansı obyekti digərindən fərqləndirən cəhətlər, əlamətlər, bəlkədə xarakterik xüsusiyyətlər nəzərdə tutulur. Bəzi predmetlər, hadisələr (məsələn gecə və gündüz) bir-birinə əks də ola bilər. Bir-birinə əks istiqamətli tərəflər əksilik kimi xarakterizə olunur. Müəyyən edilmişdir ki, əks tərəflər bir-birini tamamlayır, bəzən müvazinətdə olur, sonra qarşılıqlı surətdə bir-birinə keçir, onların müvəqqəti birləşməsinə şərait yaradır, cisim və hadisələrdə daxili-dialektik inkişafı təmin edir (Hacıyev, 2001: 193).

Fəlsəfənin əsas qanunu olan əksiliklərin vəhdəti və mübarizəsi” qanunu pedaqoji prosesdə tətbiq edilən metodlara təsir etməklə onların dövrün, zamanın tələbinə uyğun dəyişdirilməsinə təkan verir. Belə ki, uzun müddət bilikləri şagird və tələbələrə çatdırmağa xidmət edən şifahi şərh metodlarından istifadə edilmişdir. Belə təlimə hafizəyə əsaslanan təlim demişik. Pedaqogikanın inkişafı prosesdə hafizəyə əsaslanan bilikdən təfəkkürə əsaslanan biliklərə keçid başlanmışdır. Belə biliklər şagird və tələbələrdə motivasiya yaratmaqla, təcrübələr aparmqla, onları tədqiqatlara cəlb etməklə yaradıla bilər. Onlar sanki olmuş bilikləri özləri “kəşf” etməklə əldə edirlər. Eyni ampulada olan pedaqoji problemə fərqli yanaşmalar meydana çıxdı. Buna səbəb öyrətmədə meydana çıxan ziddiyyətlərdir.

Pedaqogika elmi, eləcə də pedaqoji proseslər həm fəlsəfənin, həm də təhsillə bağlı dövlətin qərar, göstəriş, təlimat və qanunlarına uyğun dəyişir, formalaşır. Ona görə də təhsillə bağlı metodologiyanı iki yerə ayırmaq olar:

- Təhsillə bağlı fəlsəfi metodologiyaya;
- Təhsillə bağlı dövlətin normativ-hüquqi sənədlərinə.

Biz bu tədqiqat işində təhsillə bağlı fəlsəfi metodologiyaya yer vermişik.

İnnovativ metodlarla (yeni təlim texnologiyaları) fəlsəfi qanunlar arasında dinamik əlaqə olduğuna diqqət yetirək.

XXI əsrin əvvəlindən inkişaf etmiş ölkələrdə şagirdlərin fərdi formada təlim prosesinə cəlb edilməsindən və qiymətləndirilməsindən – yaddaşa əsaslanan təlimdən təfəkkürə əsaslanan təlimə keçid başladı. Belə təlim əməkdaşlıq prinsipinə əsaslanaraq həyata keçirilməyə başladı. Əməkdaşlıq əsasında təşkil edilən təlim şagirdləri hafizəyə əsaslanan biliklərdən yaradıcılığa istiqamətləndirməklə yanaşı onları fəallaşdırdı, sosial vətəndaş kimi formalaşmalarına səbəb oldu. Bütün bunlar fəlsəfədə mövcud olan “kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi” qanununa uyğun baş verdiyinə dəlalət edir. Orta əsrlərdən başlayaraq şagirdlərin öyrədilməsi prosesində müxtəlif üsul və ya metodlardan istifadə edilməyə başlanılmışdır. XX əsrdə metodların təsnifatı aparılmış, bu problemə müxtəlif yanaşmalar olmuşdur. XXI əsrin əvvəllərində ənənəvi təlim metodlarının bəzi çatışmayan cəhətləri (məsələn, fəal və yaradıcı şagird formalaşdırmaq imkansızlığı) meydana çıxdı, bunları aradan qaldırmağa imkan verən interaktiv metodlar irəli sürüldü. Bu da fəlsəfədə mövcud olan “inkarı, inkar qanununa” uyğun baş verdiyini təsdiqləyir.

Fəlsəfədə bir çox cərəyanlar vardır ki, pedaqogikanın onlara uyğun inkişaf etdiyini təsdiqləməmək mümkün deyildir.

İndiki zamanda təlim-tərbiyənin metodoloji əsaslarından birini təşkil edən fəlsəfi cərəyanlar Sovet təlim sistemində inkar edilmişdir. Aşağıda göstərəcəyimiz cərəyanlar yeni təlim

texnologiyalarının metodoloji əsaslarını təşkil etməklə fəal və yaradıcı şəxsiyyət formalaşdırmaqda mühüm vasitəyə çevrilmişdir.

**Praqmatizm** - Yunan sözü olub "təcrübə" deməkdir. Bu cərəyan idrakın yeganə meyarı kimi təcrübəni götürür. İnsana fayda verən hər şeyi həqiqət hesab edir. Praqmatizm fəlsəfi cərəyanı əsasında pedaqoji ideyaları XIX əsrin sonu, XX əsrin əvvəllərində Amerikalı alim Con Dyui irəli sürmüşdür. C.Dyuiyə görə anlayışlar, ideyalar, nəzəriyyələr gündəlik fəaliyyət üçün yarandıqda faydalı hesab edilə bilər. Ona görə şagirdlərə elə bilik, bacarıq verilməlidir ki, onlardan praktikada istifadə etmək mümkün olsun.

Praqmatizm fəlsəfi cərəyanından irəli gələn pedosentrizm prinsipinə görə şagird təlim prosesinin subyektinə çevrilməlidir. Təlim-tərbiyə prosesi elə təşkil edilməlidir ki, şagirdlərin marağı, meyli, tələbatları təmin edilmiş olsun. Təlim zamanı şagirdlər üçün elə bir şərait yaradılmalıdır ki, şagird arzuladıqlarını orada tapa bilsin (Bədiyev, 2014: 7).

Qeyd etmək lazımdır ki, yeni təlim texnologiyalarına əsaslanan dərslər məhz bu prinsipə istinadən təşkil edilir. Deməli, yeni təlim texnologiyalarının metodoloji əsaslarından biri praqmatizmdir.

**Neopozitivizm** - XX əsrin əvvəllərində əmələ gəlmişdir. Elmi biliklərə əsaslanan (riyazi məntiq) fəlsəfi cərəyandır.

Neopozitivizm cərəyanı şagirdlərə sistematik biliklər verməyin əleyhinə çıxaraq onları "tədqiqatçı kimi yetişdirməyi, yaradıcı şəkildə formalaşdırmağı" təbliğ edir. Bildiyimiz kimi interaktiv təlim metodlarının əsas məqsədlərindən biri şagirdlərin yaradıcılıq qabiliyyətini inkişaf etdirməkdir (Veysova, 2004: 14).

**Ekzistensializm** - (latın sözü olub "mövcud olmaq" mənasını verir). XX əsrin əvvəllərindən meydana gəlmişdir. Bu cərəyana görə mövcudluq mahiyyətdən qabaq gəlir, fərdiyyətçiliyi qabarıq şəkildə əks etdirən fəlsəfi cərəyandır, kollektiv vasitəsilə şəxsin tərbiyəsini qəbul etmir. Eksiztensializm fəlsəfi cərəyanına görə şagird və ya uşağın tərbiyəsi üçün heç bir proqram lazım deyildir. Bu cərəyana görə emosional və hissi tərbiyəyə, azad və sərbəst tərbiyəyə üstünlük verilməlidir (Bədiyev, 2017: 55).

Qeyd edilən cərəyana görə humanist və demokratik prinsiplərə cavab verən mühit vasitəsilə şagird və ya uşağın öz "mən"ini tapmasına imkan verilməlidir. Mühit şagirdi tərbiyə edir, onda olan mənfi xüsusiyyətləri aradan qaldırmağa şərait yaradır.

**Tomizm** - XIII əsrdə meydana gələn dini fəlsəfi cərəyandır. Tomizm və orta əsrlərdə meydana gələn neotomizm cəmiyyətdə baş verən ziddiyyətli halların aradan qaldırılmasında dünyagörüşü kimi formalaşmağa başladı (Marksizim Leninizm fəlsəfəsinin əsasları, 1980: 447).

**Neotomizm** - fəlsəfi cərəyanının ideyalarından tərbiyə prosesində istifadə edərək bəzi sosial problemləri: bədbinliyə qapılma, özünəqəsd, cinayətkarlıq, narkomaniya və s. müəyyən dərəcədə həll etmək olar. Müasir zamanda belə hallar gənclər, bəzi hallarda məktəblilər arasında çoxalmaqdadır. Neotomizm cərəyanının tərəfdarları bunun səbəbini dinin təsirinin azlığında, Allaha inamın yoxluğunda görürlər. Onlar qeyd edirlər ki, cinayətə yol verən şəxslərin qəlbində Allah xofu olmur. Belə halların qarşısını almaq üçün tədris müəssisələrində ilahiyyat dərsləri tədris edilməli, İslam dinindən irəli gələn tərbiyə və davranış normalarına ciddi fikir verilməlidir (Həsənov, Ağayev, 2007: 65).

**Bixeviorizm** - İngilis sözü olub "davranış" deməkdir. XX əsrin əvvəllərində Amerikada meydana gəlmişdir. Müəlliflərdən biri olan E.Torndayka görə psixologiya şüuru deyil, davranışı özü üçün tədqiqat obyekti seçməlidir. E.Torndayka görə həm heyvanlarda, həm də insanlarda psixi proseslər assimilyasıyanın qanunları zəmnində baş verir. Hər iki halda xarici proseslər situasiya və cavab reaksiyası ilə bağlı olaraq təzahür edir (Hacıyev, 2001: 36).

E.Torndaykın ideyaları pedaqoji proseslərə tətbiq edildikdə stimul-reaksiya nəzəriyyəsi irəli sürülür. Bu nəzəriyyəyə görə müəllim təlim prosesində elə situasiya yaratmalıdır ki, şagird məqsədə uyğun şəkildə cavab reaksiyaları ilə çıxış edə bilsin. Yeni təlim texnologiyaları ilə keçirilən dərslərdə motiv məhz buna xidmət edir. Motiv şagirdi cavab reaksiyası üçün hazırlaşdırır, onu problem ətrafında fikirləşməyə, tədqiqat aparmağa sövq edir.

**Konstruktivizm** - XX əsrin əvvəllərində Amerika təhsilində tətbiq edilməyə başlanılmışdır. Konsrtuktivizm yığmaq, quraşdırmaq mənasını verir.

Konstruktivizm yeni əldə ediləcək bilikləri, ideyaları əvvəllər əldə edilmiş biliklərlə sintez etmək yolu ilə öyrənilməsi haqqında nəzəriyyədir. Konstruktivizmi öyrənən şəxsin yeni bilikləri "quraraq", "yaradaraq" əldə etməsi kimi də başa düşmək olar (Bədiyev, 2017: 2).

Konstruktivizm haqqında ideya hələ XVII əsrdə meydana gəlsə də göstərilən fəlsəfi cərəyanın başlanğıcının İsveç bioloqu Jan Piajenin fransız psixoloqu Alfred Binetlə birlikdə idraki qabiliyyətlərin müəyyənləşdirilməsinə və yoxlanılmasına həsr edilmiş əsərləri ilə əlaqələndirirlər. J.Piajenin əsərləri və nəzəriyyəsi konstruktivizmin əsasını təşkil etdi. O qeyd etdi ki, "Öyrənmə" uyğunlaşma (akomodasiya) və nizamlamadan (ekvilibrasiya):

- Biliyin əlavə edilməsi və mənimsənilməsindən, keçmiş biliklərin dərk edilməsindən;
- Yeni və faydalı bilikləri uyğunlaşdırmaqla öz fərdi biliklər sisteminin dəyişdirilməsindən;
- Biliyin müxtəlifliyindən əmələ gələn gərginliyin nizamlanmasından, mövzu və ya təcrübə ilə bağlı yeni və faydalı anlaşmanın əmələ gəlməsindən ibarətdir" (Müəllim hazırlığının və orta təhsilin perspektivləri, 2005: 70-71)

Amerikalı psixoloq Cerom Bruner J.Piajenin nəzəriyyəsinə fərqli olaraq, "Müəllimin rəhbərliyi altında şagirdlərin özlərinə yeni ideyaları aşkar etməyə imkan verən yanaşmaları müdafiə etmişdir.

Beləliklə "kəşf etməklə öyrənmə" ilk dəfə Ceron Brunerin əsərlərində irəli sürülmüş və hər tərəfli əsaslandırılmışdır.

Piajenin inkişaf mərhələləri və Brunerin "kəşf etməklə öyrənmə" ideyalarındakı ümumilik aşağıdakı məsələlərin dərk edilməsi ilə nəticələnmişdir.

- Uşaqlar fəal şagirdlərdir;
- Uşaqlar dünya haqqında olan bilik və təcrübələrinə əsasən yeni bilkləri kəşf edirlər;
- Uşaqlar əvvəlki bilkləri, yeni keçmiş təcrübələrindən öyrəndikləri biliklər, onların yeni konsepsiyaları inteqrasiya etmələrində, şəxsi təcrübələrini daha yüksək əsaslarda başa düşmələri prosesində həlledici əhəmiyyət kəsb edir (Varella, 2004: 7).

Öyrənmə yalnız şagirdlərin müstəqil şəkildə bilik kəşf etməsi və məna çıxarma prosesi kimi qəbul edilə bilməz. Məlumdur ki, biliklərin kəşf prosesi kimi qəbul edilə bilməz. Məlumdur ki, biliklərin kəşf edilməsi sosial və mədəni boşluqda baş verən idraki hadisə deyildir. Rus pedaqoq və psixoloqu Lev Viqotski ilk dəfə olaraq sübut etmişdir ki, sosial kontekst bütün yaş dövrlərində müəyyən mühitdə ünsiyyətdə olan uşaqlara çox güclü təsir göstərir.

Sonrakı tədqiqatlar konstraktivizm nəzəriyyəsini iki qütbə ayırdı: radikal konstruktivizm - müəlliflər J.Riajc və C.Bruner, sosial konstruktivizm müəllifi L.Viqotski.

Konstruktivzm şagirdləri üç istiqamətdə – fəal, sosial və yaradıcı (Azərbaycan Respublikasında Ümumtəhsilin Konsepsiyası, 2006) formalaşdıran fəlsəfi təlim, metodologiya kimi qəbul edilmişdir.

## Nəticə

Tədqiqat işinin nəticəsi kimi qeyd etmək olar ki, fəlsəfi qanun və fəlsəfədə mövcud olan cərəyanlar təlimin müasir metodlarının mahiyyətini açmaqla, şagirdləri təlim prosesinin subyektinə çevirməkdə, totalitar təlimi aradan qaldırmaqda, demokratik təlim-tərbiyə sisteminə keçməkdə istiqamət verən ideyalardır. Tədqiqat işində Sovet təhsil sistemində mövcud olan avtoritar idarəetmə və təlimdən demokratik üsul və idarəetməyə keçməyin əhəmiyyəti vurğulanır.

## Ədəbiyyat

1. Dahilərin ömür yolu. (2010). Elmi redaktor Ədalət Tahirzadə. Bakı: "Elm və təhsil" nəşriyyatı, 415 s.
2. Azərbaycan Sovet Ensiklopediyası. (1984). VIII cild. Elmi redaksiya şurası. Bakı: Elm nəşriyyatı, 608 s.
3. Azərbaycan Respublikasında Ümumtəhsilin Konsepsiyası. (2006). "Azərbaycan müəllimi" qəzeti, 01 dekabr.

4. Əhmədov, B.A., Rzayev, A.Q. (1983). Pedaqogikadan mühazirə konspektləri. Bakı: "Maarif" nəşriyyatı, 383 s.
5. Paşayev, Ə.X., Rüstəmov, F.A. (2007). Pedaqogika. Bakı: "Nurlan" nəşriyyatı, 462 s.
6. İsmayılov, F.Q. (1999). XX əsr qərb fəlsəfə tarixi. Bakı: "Təhsil" nəşriyyatı, 415 s.
7. Həsənov, A., Ağayev, Ə. (2007). Pedaqogika. Bakı: "Nasir" nəşriyyatı, 493 s.
8. Marksizm Leninizm fəlsəfəsinin əsasları. (1980). Rəhbər akademik F.V.Konstantinov. Bakı: "Maarif" nəşriyyatı, 477 s.
9. Hacıyev, Z.A. (2001). Fəlsəfə. Bakı: "Adiloğlu" nəşriyyatı, 639 s.
10. Bədiyev, S.R. (2014). Yeni təlim texnologiyalarından mühazirə konspektləri. Bakı: "Mütərcim" nəşriyyatı, 127 s.
11. Veysova, Z. (2004). Fəal təlim metodlarına giriş kursu. Bakı: "İnkişaf" elm mərkəzi, 131 s.
12. Bədiyev, S.R. (2017). "Öyrənək, öyrədək". ADPU-nun nəşriyyatı. Bakı, 108 s.
13. Müəllim hazırlığının və orta təhsilin perspektivləri. (2005). Qərb təhsil sisteminin təcrübəsi əsasında. Bakı: "Adiloğlu" nəşriyyatı, 479 s.
14. Varella, F.D.Rİ. (2004). İnteraktiv tədris üçün təlim nəzəriyyələri. Beynəlxalq konfransın materialları. Bakı, fevral.

Göndərilib: 09.04.2023 Qəbul edilib: 01.06.2023

DOI: https://doi.org/10.36719/2663-4619/91/22-27

**Sevda Novruzəliyeva**
Azərbaycan Tibb Universiteti
filologiya üzrə fəlsəfə doktoru
sevda.novruzaliyeva@mail.ru
**Nüşabə Əliyeva**
Azərbaycan Tibb Universiteti
nushabe.aliyeva@bk.ru

# KOMMUNİKATİV PROSESDƏ UĞURSUZ OLMANIN SƏBƏBLƏRİ

**Xülasə**

Bu məqalənin giriş, yeddi başlıq və ədəbiyyat siyahısı var. "Giriş" bölümündə insanı uğursuz edən neqativ faktorlar sadalanır. "Şikayət qınanan davranış olaraq" başlığında 5 sitatın işığında şikayətin mənfi rolundan bəhs açılır. "Dedi-qodu bəyənilməz davranış olaraq" başlığında 5 sitatın işığında dedi-qodunun mənfi izlərindən danışılır. "Yalan bəyənilməz davranış olaraq" başlığında 2 sitatın işığında yalanın bədbəxtliyə aparan yollardan biri olması açıqlanır. "Qəzəb qınanan davranış olaraq" başlığında 3 sitatın işığında qəzəbin dağıdıcı təsirindən söz gedir. "Kin neqativ davranış olaraq" başlığında 3 sitatın işığında kin saxlamanın öldürücü effektlərindən söhbət gedir. "Həsəd qınanan davranış olaraq" başlığında 3 sitatın işığında həsədin ziyanlı müdaxiləsinə nəzər salınır. "Artıq var-dövlət bəyənilməz anlayış olaraq" başlığında 4 sitatın işığında artıq varın (normanı aşan sərvətin) acı nəticələrindən söhbət açılır.

***Açar sözlər:*** *kommunikasiya, uğursuz yaşam, şikayət, dedi-qodu, yalan, qəzəb, kin, həsəd, artıq var-dövlət*

**Sevda Novruzaliyeva**
Azerbaijan Medical University
Ph.D. in Philology
sevda.novruzaliyeva@mail.ru
**Nushaba Aliyeva**
Azerbaijan Medical University
nushabe.aliyeva@bk.ru

# Reasons for being unsuccessed in the communicative process

**Abstract**

This article has an introduction, seven titles, and a list of literature. The "Introduction" section lists negative factors that make a person unhappy. The title "complaint as reprehensible behavior" reveals a mention of the negative role of the complaint in the light of 5 quotes. The title "gossip as disapproving behavior" speaks of negative traces of gossip in the light of 5 quotes. In the light of 2 quotes in the title "lying as disapproving behavior", it is revealed that lying is one of the paths to unhappiness. In the light of 3 quotes in the title "anger as reprehensible behavior" there is a mention of the destructive effect of anger. In the light of 3 quotes in the title "grudge as negative behavior" there is talk of the murderous effects of grudge holding. In the title "envy as reprehensible behavior" 3 quotes look at the harmful interference of envy in the light.

In the light of 4 quotes in the heading "excess wealth as an unpopular concept" there is a conversation about the bitter consequences of excess wealth (wealth exceeding the norm).

***Keywords:*** *communication, unsuccessed life, complaint, gossip, lies, anger, malice, envy, excess wealth*

## Giriş

İnsanın üzləşdiyi hər bir proses ikili xarakter daşıyır. Gözəl var – eybəcər də var, doğru var – yanlış da var, çalışqan var − ərinən də var, comərd var – simic də var, bilikli var – biliksiz də var, əzən var − əzilən də var, əsirgəyən var − əsirgəməyən də var, bağışlayan var – bağışlamayan da var, xoşbəxt var – uğursuz da var. İnsanı xoşbəxt edən faktorlar olduğu kimi, onu uğursuz edən faktorlar da var. Səbir, şükür, comərdlik, sevgi, sağlamlıq, qane olma, qənaət, yardımsevərlik, dinsevərlik, qayğısevərlik kimi ülvi duyğular insanı xoşbəxtliyə qovuşdurursa, bunlara qarşı olan səbirsizlik, şükürsüzlük, simiclik, sevgisizlik, xəstəlik, qane olmamazlıq, qənaətsizlik, yardımsevərsizlik, dinsevərsizlik, qayğısevərsizlik kimi qınanan özəlliklər insanı uğursuzluğa sürükləyir. Bu məqalədə barəsində söz açılan "şikayət, dedi-qodu, yalan, qəzəb, kin, həsəd, artıq var-dövlət" uğursuz bir yaşama aparan yolun ən aparıcı ünsürləridir.

**Dedi-qodu bəyənilməz davranış olaraq.**

Dedi-qoduçu insan neqativ söz aparıb gətirəndir. Belə arzu olunmaz fərdin aurası, baxışı, düşüncəsi, verdiyi öyüd, etdiyi iş ayrılıq salan, incik verən, qıcıq yaradan, dava salan, ümidsizlik yayan notlardan ayrısı deyil. Bu cür insan uğursuzdur, üstəlik, bir başqalarını da uğursuz günə qoyur. Deməк, dedi-qoduçu ikiqat uğursuzdur. Eramızdan öncə 6-cı əsrdə Çin filosofu Konfutsi dedi-qoduçu, eqoist, ağıllı olmaqla üç insanı yan-yana qoyaraq bu qənaətə gəlir ki, "Dedi-qoduçu bir insan həmişə başqalarından, eqoist bir insan həmişə özündən, ağıllı bir insan isə cəmiyyəti maraqlandıran şeylərdən bəhs edər" (Kozhevnikov, 2006: 219).

Dedi-qodunun sərt qınandığı Qurani-Kərimdə inanclı insanlara tapşırılır ki, bir-birinin qüsurunu araşdırmasınlar, bir-birinin qeybətini etməsinlər. Bu işin cəmiyyətdə oynadığı mənfi rolunun böyüklüyünü qabartmaq üçün bu səma kitabında dedi-qodu birinin öz ölmüş qardaşının ətini yeməsinə bənzədilir. Antik dönəmlərdən günümüzədək elə bir yazılı fakt yoxdur ki, bir kəsin öz ölmüş qardaşının ətini yeməsini təsdiqləsin. Görün dedi-qodu nə qədər düşük, nə qədər ikrah doğuran bir işdir ki, o, insani olmayan murdar bir işlə tutuşdurulur. Qurana diqqət yetirək, "Bir-birinizin qüsurunu araşdırmayın, bir-birinizin qeybətini etməyin. Sizdən biriniz ölmüş qardaşının ətini yeməkdən xoşlanarmı? Bax bundan diksindiniz. Allahdan qorxun" (Quran, 2017: 516). Bu sitatda "Allahdan qorxun" ifadəsindən bu anlaşılır ki, hər kim qeybət edərsə, Allah ona müvafiq cəza verəcək. Dedi-qodu suça yol açan elə bir qınanan prosesdir ki, yer var dedi-qodu olur, yer var iftira olur, yer var hər ikisi olur. Dedi-qoduçu insanı yaxın buraxmaq olmaz. Ailələri dağıtmaq, dostluq tellərini qırmaq, inkişafa əngəl olmaq, gözəl planları saxlamaq, faydasız işləri tezlətmək, dava salmaq, yaxınları üz-üzə qoymaq onların işidir. Bütün dünya dinlərində olduğu kimi, islamda da dedi-qodu sərt qınanır. Məhəmməd Peyğəmbər dedi-qoduya dini tərif verərək, onun iç üzünü açaraq insanları xəbərdar edərək vurğulayır ki, "Dedi-qodu – xoşlanmadığı bir şeylə din qardaşını anmağındır. Əgər o söylədiyin şey qardaşında varsa – qeybət etmiş olursan, yoxsa – ona iftira etmiş olursan" (Fəzilətli əməllər, 2021: 477).

Dedi-qodu edən birisi mütləq anlamda qorxağın birisidir. Onun cürəti çatsaydı, mərd insan olsaydı, söylədiyini haqqında söyləyənin yanında deyərdi, onun arxasında deməzdi. Demək, dedi-qodu başqalarının uğurlarını gözü götürməyən alçaq fərdlərin işidir. Gündəlik yaşamda apardığımız müşahidələrdən aydın olur ki, heç kəs dedi-qoduçunun sonda xoşbəxt olduğunu görməyib, əksinə, problemlər içində üzüldüyünü, canyaxan xəstəliklərlə əlbəyaxa qaldığını, ocaqlar söndürdüyü üçün ocağının söndüyünü, ailə yuvaları dağıtdığı üçün ailə yuvasının dağıldığını görmüşük. Əgər birinin qeybətini edirlərsə, demək, o, irəlidə gedir, arxasında uğurları var, qarşısında qurucu planları var, bacarıqlı olub iş aşırandır, bir başqasına yardım edən ürəyi var, el ona sayğı bəsləyir. Dünyaca tanınan rus yazarı Anton Çexov (1860-1904) doğru yazır ki, "Biri arxandan danışırsa, demək, ondan öndəsən" (Kozhevnikov, 2005: 343).

Qeybətin girdiyi yerdən insanlığı yaşadan, ona arxa olan, ona ümid verən, onu motivasiya edib sağlam yöndə istiqamətləndirən insani özəlliklər çıxıb gedir. Dedi-qodunun girdiyi yerdən qardaşlıq, qarşılıqlı anlaşma, yardımlaşma, şəfqət, mərhəmət, sağlam niyyət, hüzur (qəlb rahatlığı), sevinc, sevgi olmaqla xoşbəxt duyğular aradan gedir, yerinə xainlik, xəbislik, paxıllıq, pis niyyət olmaqla neqativ notlar gəlir. Fəridəddin Əttar adlı 12-ci əsr sufi şairi yuxarıda söylənənləri bir

cümlə ilə belə ifadə edir, "Dedi-qodunun girdiyi yerdən qardaşlıq çıxıb gedir (Kozhevnikov, 2006: 246).

Uca Yaradan insana qoşa göz verib, sanki birinin gördüyünü o birisi təsdiq etsin deyə. Ruhun pəncərəsi olan göz ilə insan Tanrının gözəlliklər sərgisi olan təbiətin ürək oxşayan, ruhu təzələyən səhnələrini görərək şeir yazır, mahnı bəstələyir, tablo çəkir, hünər göstərir. Təbiətin bunca gözəllikləri olmasaydı, yaradıcı və qurucu insanların ruhuna, beyninə dahiyanə fikirlər gələ bilməzdi. Yaradanın görünməz əlinin təbiət üzərində çəkdiyi sirr dolu sənətini görən insan gözləri başqasının eyib və nöqsanlarını görüb onları yaymağı da bacarır. Gözlər gözəllik görmək üçündür, nöqsanları görüb, yaymaq üçün deyil. Gözlər gözəlliyi görəndə ilahi nemət olub dəyər tapır, amma eybəcərlikləri, əgər -əskikləri görüb yayanda o gözlər ilahi nemət yox, Tanrı və insan qarğışına tuş gələn bir orqan olurlar. Sədi Şirazi 13-cü əsrdə "Tanrı-təbiət-insan gözü" üçlüyünü yanaşı qoyaraq, gözlərin insana verilməsinin niyəsini açıqlayaraq, dedi-qodu etməkdən uzaq durmağı tövsiyə edərək yazır ki, "Göz uca Tanrının qüdrət və sənətini görmək üçündür, onun-bunun eyib və əgər-əskiyini görmək üçün deyildir" (Shirazi, 2018: 104).

**Şikayət qınanan davranış olaraq.**

İnsan maddi ya mənəvi ya da cismani durumundan bir başqalarına şikayət edirsə, hər şeydən öncə özünü onların gözündən salır. Yaxınları və tanışları onu bacarıqsız, gərəksiz sayaraq get-gedə ondan uzaq durur, onunla kontakt qurmaqdan yayınırlar. Sonda o, maddi, mənəvi, cismani durumunu yaxşılatmaq yerinə yaxınlarının və tanışlarının güvənini itirir. İnsan maddi-mənəvi-cismani durumu pis olduğuna görə yox, bu durumu açıqladığına görə və təmasda olduğu insanların güvənini əldən verdiyi üçün uğursuz bir duruma düşür. Göründüyü kimi, ona üç yöndən ara vermədən zərbə dəyir – maddi, mənəvi, güvənsizlik. O, şikayət etdikcə, bu neqativ buxov onun boynundan açılmaz. İslam alimi, aparıcı sufi olan Əbdülqadir Gilani (1075-1166) doğru olaraq buyurur ki, "Durumunuzdan başqasına şikayət etməyin. Belə etsəniz, bəla və müsubətləriniz daha da artacaq" (6).

Elə bir insan yoxdur ki, ömrünün hansısa çağında onun başına hansısa bir iş gəlməsin, bəlaya düşməsin, müsibətə tuş gəlməsin. Bu işdən kimsə amanda qala bilmir, çünki həyatın diktələri sərt, amansız və gözlənilməz olur. Belə olan halda insan başına gələni soyuqqanlı olaraq, sanki gülərüzlə qarşılamalı, dirəniş (müqavimət) göstərməməlidir. Dirəniş göstərsə (halından şikayət etsə), baş verən işi düzənə sala bilməz, tam əksinə, onu daha da korlayacaq, yalnış axara salacaq. Həyatın üz tutduğu yön yanlış axara düşdümü, onu bura salanın üzünə həyatın uğursuz qapıları biri digərinin ardınca açılar. Qədim yunan filosofu, riyaziyyatçısı Pifaqor (eramızdan öncə 6-cı əsrdə) insanları duyuq salaraq yazırdı ki, "Ey insan, bədbəxtlik qapını çalanda onu gülərüzlə qarşıla, ikinci dəfə çalmasını gözləmə. Dirəniş bədbəxtliyi daha da artırar, itaət isə zəiflədər" (Annayeva, 2011: 98).

Böyük filosof dirəniş və itaət olaraq iki zidd anlayışı işə salır. Sitatda "şikayət" anlamına gələn dirəniş bəlanı artırmağa, sitatda "şikayət etməmək" mənasını verən itaət isə bəlanı azaltmağa qulluq edirlər. Həyat yoldaşı, övlad, gerçək anlamda dost istisna olmaqla, insanlara dərd açmaq dərd açanı abırdan salacaq, onun bu problemi ağızlara düşəcək, ona lağ edənlər, başına ağıl qoyanlar tapılar. Dərd açmaq imtahan üçün dərd göndərən Yaradanın şəstinə toxunan bir əməldir. Demək, şikayət etmək dərd göndərəndən şikayət etməkdir, onu saymamaqdır, baş verən hər nəyin arxasında onun dayanmadığını etiraf etməkdir. İnsandan başqa hansı canlı varlığa şikayət edilsə, o varlıq danışa bilmədiyindən, nə baş verdiyinin fərqinə vara bilmədiyindən ona söylənən sözləri kimsəyə ötürə bilməz. Başqa sözlə, dərdin varsa – dənizə anlat, buludlara anlat, çiçəklərə anlat. İnsanlara heç dərd anladılarmı. İnsanlara şikayət etmənin heç bir faydası yoxdur. Problem gərək Tanrıya söylənə, həm də gizli olaraq, kimsə onu eşitmədən. Yaradana söylənən dərd ürəkdə acı hislər doğurmur, ürəyi sıxmır, əksinə, ürəyə iç rahatlığı gətirir, onu ümidlə doldurur, nəticədə, dərdli insan mənən rahatlaşır, çünki onun dərdindən varlıq aləmini Yaradanın − bu dərdi kimsə ilə paylaşmayan Yaradanın xəbəri var. Bu yanaşmağımıza Ömər Xəyyam (1048-1122) dəstək verərək yazır ki, "Kimsəyə demə ki, problemin var, probleminə dönüb de ki, mənim Tanrım var" (Khayyam, Robais, 2009: 24).

Bir xəstəliyə tutulanın birisi onu kimsəyə açmasın, müvafiq həkim istisna olmaqla. Öz xəstəliyindən başqalarına gileylənsə, kainatı bürüyən karmanın diktəsi ilə o xəstəlik azalıb yox olmaz, əksinə, xroniki hal alıb artacaq. Odur ki, sağlam yaşama, ruha, ürəyə sağlam notlar çiləyən insanlara, xoşbəxtlik gətirən anlara, qısası, sağlamlıq gətirən hər nəyə notlanmalıyıq ki, sağlam yaşam, sağlam notlar, sağlam insanlar – bir sözlə, xoşbəxtlik qarşımıza çıxsın. Dünya tibb elminin bünövrəsini qoyan dahi yunan alimi Hippokrat eramızdan beş əsr öncə yazırdı ki, "Öz xəstəliyindən kimsəyə danışma, danışsan – onu artan görəcəksən. Sağlamlıqdan danış ki, sağlamlığı özünə çəkəsən" (Borokhov, 2003: 501).

**Qəzəb qınanan davranış olaraq.**

Qəzəb insanı cismən və mənən məhvə aparan bir yoldur. İnsan qəzəbə varınca bədəninin ən önəmli orqanları sıradan çıxmağa başlayır, düzgün qərara gəlmək bacarığı azalır, yaddaşı korlanır, iş yerində və evində olan insanları stresə salır, onların xoş aurasını davamlı olaraq pozur. Bütün dinlər, dahi filosoflar, dahi yazarlar, böyük psixoloqlar qəzəbi pisləyir, ondan uzaq durmağı dönə-dönə tövsiyə edirlər. Həzrət Əli deyir ki, "Qəzəb pis bir yoldaşdır, qüsur və çirkinlikləri açığa çıxarır, pisliyə yaxınlaşdırır, yaxşılıqdan uzaqlaşdırır" (Kozhevnikov, 2006: 29).

Qəzəb anında insan özünü iki şeydən gözləməlidir – edəcəyi hərəkətdən, deyəcəyi sözdən. Bunların ikisi dava-dalaşa, qanıqaralığa, bir sözlə, ziyana yol açır. Pifaqor tam yerində buyurur ki, "Qəzəb anında hərəkət və danışmaqdan yayınmalıyıq" (Annayeva, 2011: 68).

Qəzəb nəfsdən gələn bir çağırışdır. İnsanı qəzəbə salan, göründüyü kimi, onun nəfsidir, daha doğrusu, kontrol altında olmayan nəfsidir. Düzünə qalsa, nəfs olmasa, insan yaşaya bilməz, çünki insanın yeyə bilməsi, içə bilməsi, günlük keçimini qazanması, nəsil törətməsi nəfsə bağlıdır. Nəfs normanı aşanda, kontrol etmə cilovu sahibinin ixtiyarında olmayanda – məhz belə anda uğursuzluğa aparan hallar, o sıradan qəzəb baş qaldırır. İslam peyğəmbəri doğru buyurub ki, "Gerçək igid güləşdə rəqibini yenən deyil, qəzəbləndiyi zaman nəfsinə hakim olan kimsədir" (Khadisi, 2014: 38).

**"Artıq var-dövlət" bəyənilməz anlayış olaraq.**

Həyat insana gənclik, güc, gözəllik, şans, var-dövlət verir. Zaman keçdikcə, verdiklərini bir-bir geriyə alır. Demək, həyat onları borca verir, həmişəlik vermir. Düz yolla qazanılan pul, var-dövlət düz yollara sərf olunur, əyri yollarla əldə edilən var isə əyri yollara xərc olunur. Biz "artıq var-dövlət" dedikdə, əyri yollarla qazanılan varı nəzərdə tuturuq. Bu var öz sahibini heç zaman xoşbəxt etməyib, onu bədbəxtliyə sürükləyib.

İnsan yaşaya bilmək üçün işləməlidir. Lakin elə olmamalıdır ki, həyatının anlamı ancaq işləmək olsun. Həyatının anlamı ancaq pul qazanmaq olan bir kimsə bədbəxt insandır. Çünki evi var – yenə ev tikir, maşını var – yenə maşın alır, geyimi var – reklam modalarına uyaraq yeni-yeni geyimlər alır. Aşırı var-dövləti qınayan Əbdülqadir Gilani vurğulayır ki, "Dünyanı aramağı burax, dünya səni doyurmaz. Bir alırsan, beş daha istəyirsən. Haqla ol, Onun nuru səni doyurar" (6). Burada "dünyanı aramağı burax" ifadəsi "dünya istəklərinin əsiri olub aşırı var toplama" deməkdir, "Haqla ol" ifadəsi isə "Tanrının buyurduqlarını et" anlamına gəlir. Bəs Tanrı nuru düz yolda olan insanı necə doyurur? İnsan düz yolda olsa, o, həyat keçimini saxlamaq üçün hər nəyə qənaət edər, onda qənaət Tanrı nuru olub, onu çox sıxıntılardan, çeşid-çeşid acılardan, ayrı-ayrı problemlərdən qoruyar.

İnsanın varı çoxaldıqca, onun könlü daralır, könlü daraldıqca, insani dəyərləri – mərhəməti, şəfqəti, vicdanı, ədaləti, şükrü və bir çox başqa pozitiv özəllikləri azalır və bunlar azaldıqca insan uğursuz yaşamın dərin burulğanına düşür, yer üzü ona cəhənnəm olur, bir yerdə qərar tuta bilmir, hər an varını düşünür, varının başına nəsə gəlməsindən qorxur. Bilirik ki, qorxu keçirən qəlbə hüzur qonaq gəlmir, sıxıntı və acılar qonaq gəlir. Dahi ingilis fiziki İsaak Nyuton (1643-1727) varın çoxluğuna qarşı çıxaraq, varın azlığını öyərək deyir ki, "İnsanın pulu nə qədər az olursa, qəlbi o qədər böyük olur" (Kozhevnikov, 2005: 103).

Aşırı bir var-dövlət tox bir həyata yol açır. Tox həyat (hər gün yüksək kaloriyalı yeməklər yemək, modalı paltarlar geyinmək, brend markalı maşınlar sürmək, əyləncələrə qatılmaq) insanın gücünü, düşüncəsini (pis ilə yaxşını ayırmaq bacarığını) azaldır, mənəviyyatını didir, başqalarına yazığı gəlmək və yardım etmək duyğularını öldürür. Tox həyat üzündən düşüncəsi aşağı olan, pozitiv insani özəllikləri itirən bir insan bədbəxt olub, normanı aşan pulu və heyvani bir hiss olan

şəhvətin qulağı sırğalı bir quluna dönur. Nə yaxşı ki, ulu Yaradan insanın qarşısına çətinliklər çıxarır. Hər bir sıxıntı düz yol seçməyən insanı düz yola çağırır. Sıxıntılar zəhər deyil – baldır, öldürmür – dirildir, ümidi kəsən deyil – ümid verəndir. Amerikalı aktyor, rejissor, mətn yazarı Alfredo Paçino (1940) vurğulayır ki, "Tox bir həyat səndə düşünən bir insanı öldürür, sən tədricən pul və şəhvətin iradəsiz quluna çevrilirsən. Nə yaxşı Yaradan həyat yolumuza bunca çətinliklər çıxarır" (Proroka, 2014: 320).

Dünya malına çox dəyər verən bir kəs özündən və ailəsindən ayrısını düşünməz. Beləsi bir başqasına üzdə uğur, həyatının çiçəklənməsini arzu edər, amma ürəkdə bunların o kəsdə olmasını istəməz. Dünya malına dəyər vermək yaxşıdır, amma çox dəyər vermək yaxşı deyil, neqativ bir davranışdır. Özünə və ailəsinə uğur istəmək normal, motivasiyaedici bir işdir, amma bunu başqasından əsirgəmək qınanan, bəyənilməz bir işdir. Dünya malını çox sevən insanlar güvənilən, sevilən insanlar olmur. Onlarla dostluq edən onlardan fayda görməz, aşağılayıcı bir yanaşma və paxıllıq görərlər. Həzrət Əlinin 7-ci əsrdə dediyi bu kəlam indinin özündə də aktualdır ki, "Dünya malına çox dəyər verən kəslərlə dostluq etmə. Yoxsul olsan – xor baxarlar, zəngin olsan – qısqanarlar (Kozhevnikov, 2006: 67).

**Yalan bəyənilməz davranış olaraq.**

Yalan insana yaraşmayan bir davranış forması olub, yalan söyləyəni insanların gözündən salır, onu güvənsiz bir fərdə döndərir, yalan hara ayaq açır, ora arzuolunmaz məkana çevrilir, ordan ruzi-bərəkət götürülür, böyük-kiçiklik yoxa çəkilir. Yalan (olmayan bir işi olan bir iş kimi anlatmaq) faydaya yox – ziyana , sayğıya yox – sayğısızlığa, düzlüyə yox − yanlışlığa, sağlam davranışa yox – uğursuz davranışa, güvənə yox – güvənsizliyə, düşüncə rahatlığına yox – düşüncə rahatsızlığına, iç rahatlığına yox − qorxuya, artıma yox − əskikliyə, ümidli bir gələcəyə yox – ümidsiz gələcəyə yol açır. Əbdülqadir Gilani doğru buyurur ki, "Yalan söyləmək sənə yaraşmaz. Bilərək və ya bilməyərək söylənən bircə yalan bir çox ziyanlara yol açır. Yalan söyləməməyə alışanın könlü nurla dolur" (6).

Nur bir Tanrı işığı olub, yalanı doğrudan, düzü əyridən, gerçək olanı gerçək olmayandan, yaxşını pisdən ayırmağa insana yardımçı olur. Deməк, nur o zaman könülə (qəlbə) yol tapır ki, insan yalan düşünməyə, yalan danışmaya, yalan davranmaya və bu ülvi yaşamı alışqanlıq duruma gətirə. İslam dinində yalan danışanın namaz qılması, oruc tutması, zəkat verməsi (yoxsullara yardım etməsi) Allah qatında keçərli işlər deyil. Bütün dinlər kimi, islam da yalanın barışmaz düşmənidir. İslam Peyğəmbəri pis iş olan yalanı yaxşı iş olan oruca qarşı qoyaraq, "yeməyi, içməyi buraxmaq" ilə oruca işarə edərək, yalanı sərt qınayaraq buyurur ki, "Kim yalan danışmağı və yalan-palan iş görməyi tərk etməzsə, Allah o kimsənin yeməyini, içməyini buraxmasına qiymət verməz" (Fəzilətli əməllər, 2021: 91).

**Həsəd qınanan davranış olaraq.**

Paxıllıq, gözü götürməmək anlamında həsəd neqativ bir hal olub, başqalarının əlində olanlarına (varına, elminə, sosial mövqeyinə, vəzifəsinə, bacarığına, soy-kökünə ...) göz dikməkdir. Ona-buna həsəd aparanlar neqativ insanlardır, auralarında olan mənfi notlar onların fiziki gücünü, biliyini, könül genişliyini get-gedə tükədir. Alim-ensiklopedist Əbureyhan Biruni 11-ci əsrdə yazırdı ki, "Həsəd apararaq başqalarının əlində olanına göz dikmək insanı bədbəxt edir" (Kozhevnikov, 2006: 59).

Həsəd pis bir hiss olub, insanı içindən yeyir, ürəyinə yuva salaraq oradan sevgini, sayğını qovur. Sevgisi, sayğısı olmayan könül kinin, həsədin ovu olur. Qəzəb, kin, həsəd sevgini tükədən anlayışlardır, sevgi olmadıqda dünya maraqlarına aşırı bağlılıqdan qəzəb yaranır, qəzəbə dirəniş olmadıqda kin yaranır, kin aradan görütülmədikdə həsədə yol açır. Demək, "qəzəb-kin-həsəd" dağıdıcı auranı, "sevgi-səbr-şükür" isə qurucu auranı insanın qarşısına ərməğan olaraq gətirir. Ən mötəbər islam alimlərindən biri olan Əbuhəmid Qəzali (1058-1141) qəzəb və kini bir araya gətirərək, bu ikisindən törənən həsədi sərt qınayaraq vurğulayır ki, "Sən bil ki, qəzəb kinə yol açır, kin də həsədi doğurur. Həsəd insanı öldürücü, həlak edicidir" (Borokhov, 2003: 77).

İslam Peyğəmbəri öz çıxışlarında kini, həsədi çox pisləyir. "Allahın qulları" adı ilə insanlara üz tutan Peyğəmbər ünsiyyət əsnasında kin və həsədin ziyanlara yol açdığını, qardaş olmanın (mehriban, yardımsevər olmanın) pozitiv önəm daşıdığını qabardaraq deyir ki, "Bir-birinizə kin

bəsləməyin, bir-birinizə həsəd aparmayın. Allahın qulları, qardaş olun" (Fəzilətli əməlləri, 2021: 107).

**Kin neqativ davranış olaraq.**

Kin daşımaq orqanizmin iç orqanlarını, özəlliklə beyni, ürəyi, qan-damar sistemini normal axardan çıxarıb məhvə doğru aparmaqdır. Kinli birisi neqativ bir fərd olub, bir başqasının ona etdiyi pisliyi unutmur, vaxtaşırı onu yadına salır. Bununla da neqativ emosiyalar onun düşüncəsini basqı altında saxlayırlar. Təbiətlə insan arasında baş verən minlərlə proses vardır ki, kin daşımağın ziyanını onlara bənzətmək olar. Buddizmin banisi Budda eramızdan yeddi əsr öncə kin daşımanı yanan bir kömür parçasına (yanarkən sönməsi gec çəkən bir kömür parçasına) bənzədərək deyirdi ki, "Kin daşımaq yanan bir kömür parçasını başqasına atmaq üçün ələ almaq kimidir. Onu daşıyan ancaq özünü yandırar" (Buddha, 2016: 144). Başqasına atılan yanan kömür parçası ona dəyməyə bilər, amma onu atanın əlini mütləq yandıracaq.

Qanı qan ilə yumaq, çirki çirk ilə təmizləmək, qaranlığı qaranlıq ilə görmək mümkün olmadığı kimi, kini kin ilə söndürmək olmaz. Kin alovlandımı − sönən deyil, şöləlnəndir, yepyeni fəsadlara (xəstəliklərə, umu-küsülərə, incimələrə, gileylərə, pisliklərə) yol açandır. Təbiətdə hər nəyi bir başqası yox edə bilər – bu, təbiətin dəyişməz qanunudur. Kini də yox edən var, o da xoş niyyət adlı bir anlayışdır. Xoş niyyət ürəkdən kini silərək yerinə sayğını, sevgini gətirir, sökülən bir dan bir gecənin varlığına son qoyduğu kimi. Dhammapada adlı qədim hind fəlsəfi qaynağının dediyi kimi, "Kin heç bir zaman kinlə söndürülməmişdir. Təkcə xoş niyyət kini yox edər. Bu, dəyişməz bir qanundur" (Easwaran, 2016: 113).

İnsanın qəlbində yuva quran kin onun maddi gözünü yox, könül gözünü kor edir. Könül gözü kor olan öz suçunu görməz – başqalarının suçunu arayar, kin bəsləməni dayandırmaz – qisas almağı düşünər. Beləliklə, pozitiv duyğuların olmalı olduğu könül neqativ duyğularla dolduğundan insan uğursuz duruma duşur. Dahi rus yazarı Lev Tolstoy (1828-1910) haqlı olaraq hesab edir ki, "Gördüyün bir şey yoxdur, kin sənin gözlərini kor edib. Başqasının suçunu görürsən, özününkünü qulaq ardına vurursan" (Kozhevnikov, 2005: 161).

## Nəticə

Çağdaş dünyada insanı bədbəxt edən, uğursuz duruma gətirən səbəblər çoxdur. Qloballaşmaya üz qoyan dünyada onların sayı azalmır, əksinə, artmaq üzrədir. Bir elmi məqalə yox, hətta onlarla dissertasiya işi kommunikativ prosesdə insanı uğursuz edən səbəblərin hamısını tam açıqlaya bilməz.

Bu məqalə dedi-qodu, şikayət, qəzəb, artıq var-dövlət, yalan, həsəd, kin adlı neqativ davranışlar prizmasından, habelə dini-didaktiv müstəvidən qarşıya qoyulan məsələni müzakirəyə çıxarır. Ümid olunur ki, məqalə oxucularda pozitiv hisslər doğuracaq.

## Ədəbiyyat

1. Kozhevnikov, A. (2006). Mudrost Vostoka. S.Peterburg: Neva, 544 s.
2. Quran. Azərbaycan dilində. (2017). Bakı: "Nurlar", 604 s.
3. Fəzilətli əməllər. IV nəşr. (2021). Bakı: "Elm və təhsil", 477 s.
4. Kozhevnikov, A. (2005). Mudrost Zapada. S.Peterburg: «Neva», 443 s.
5. Shirazi, S. (2018). Wise Sayings. Tehran: "Amir", 243 p.
6. https://www.pinterest.com/Cool words/Geylanid
7. Annayeva, L. (2011). Zolotyye zakony Pifagora. Moskva: «Amrita», 1153 s.
8. Khayyam, O., Robais. (2009). Tehran: "Arayesh", 142 p.
9. Borokhov, E. (2003). Entsiklopediya aforizmov. Moskva: «AST», 686 s.
10. Proroka, Kh. (2014). Moskva: «Dilya», 320 s. shttps://www.brainyquote.com/Quotes/Al Pacino
11. Buddha: Wise: Aphorisms. (2016). Istanbul: "Philosophy", 248 p.
12. Easwaran, E. (2016). The Dhanmmapada, Shamhala. Newedition, 178 p.

Göndərildi: 29.03.2023 Qəbul edildi: 26.05.2023

DOI: https://doi.org/10.36719/2663-4619/91/28-35

**Zeynəb Rüstəmova**
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
zemarustamova@rambler.ru

# HEYDƏR ƏLİYEV VƏ MULTİKULTURALİZM SİYASƏTİ


## Xülasə

Məqalədə multikulturalizm nədir, multikulturalizm anlayışına dair məlumatlar verilir. Bildiyimizə görə, dünyanın əksər ölkələri bir neçə milli, etnik və dini mədəniyyəti özündə ehtiva edən mədəni sistemlərin qaynayıb qarışması zəminində formalaşmışlar. Azərbaycan bu ölkələdən biridir. Ümumiyyətlə multikulturalizm siyasəti nədir? Multikulturalizm siyasəti əslində dünya dövlətlərində cəmiyyətdə olan polikulturallıq "məsələsinin" optimal həll edilməsinə yönələn bir siyasətdir. Vurğulamaq lazımdı ki, milli, etnik və dini kimliklərin müxtəlifliyinə münasibətdə yürüdülən müasir siyasi istiqamətlərdən biri, bəlkə də dövrümüzdə ən yayılmış və populyar olanı "multikulturalizm" siyasətidir. Həmçinin məqalədə multikulturalizmin ana prinsipləri müəyyənləşdirilir. Demək olar Azərbaycan multikulturalizmin inkişafinda nümunəvi yer tutur. Məlumdur ki, Azərbaycanda çox sayda azsaylı xalqlar yaşayır və onların özünəməxsus dili və dini etiqadı var.

Bundan başqa Azərbaycanda müxtəlif submədəniyyətlərin nümayəndələri də yaşayırlar. Submədəniyyət – ölkə ərazisində formalaşan vahid mədəni məkanın daxilində müəyyən daxili siyasi, mədəni, mental, sosial dəyərlərin ətrafında formalaşan birliklərin ümumi adıdır. Həmçinin məqalədə, Nəzəri olaraq siyasi ədəbiyyatlarda multikulturalizmin hansı formalarda təzahür etdiyi göstərilir.


***Açar sözlər:*** *Heydər Əliyev, multikulturalizm, tolerantlıq, konstitusiya, etnos, etnik, müxtəliflik.*

**Zeynab Rustamova**
Azerbaijan State Physical Culture and Sports Academy
zemarustamova@rambler.ru

## Heydar Aliyev and multiculturalism policy


## Abstract

The article provides information on multiculturalism, delivers the concept of multiculturalism. We know that most countries in the world were formed on the basis of blending cultural systems that included several national, ethnic and religious cultures. Azerbaijan is one of those countries. What is the politics of multiculturalism in general? The policy of multiculturalism is actually a policy aimed at optimally addressing the issue of "polyculturalism" in the world's states and society. It should be emphasized that one of the modern political directions in respect of diversity of national, ethnic and religious identities, perhaps the most common and popular in our time, is the policy of "multiculturalism". Also, the article defines the main principles of multiculturalism. Azerbaijan is an exemplary place in the development of multiculturalism. It is known that there are few people living in Azerbaijan and they have a unique language and religious belief.

In addition, representatives of different subcultures live in Azerbaijan. Subculture is the common name for associations formed around nuanced internal political, cultural, mental and social values within a single cultural space that is formed in the territory of the subculture. Also, the article theoretically shows what formats multiculturalism renders in political literature.


***Keywords:*** *Heydar Aliyev, multiculturalism, tolerance, constitution, ethnos, ethnic diversity*

## Giriş

Multikulturalizm anlayışı ümumilikdə dünya siyasi tarix düşüncəsinə sonradan gəlmiş bir anlayışdır. Məlumdur ki, dünyanın əksər ölkələri bir neçə milli, etnik və dini mədəniyyəti özündə ehtiva edən mədəni sistemlərin qaynayıb qarışması zəminində formalaşmışlar. Belə ölkələrdən biri

də Azərbaycan Respublikasıdır. Ümumilikdə Azərbaycan ərazisində 70-dən çox etnos yaşayır, bunlardan sayca ən çox olanları aşağıdakı kimi qruplaşdırılır:

1. Şimali Qafqaz dilləri – bu dil qrupu Azərbaycanda ləzgi, avar, saxur, udi, xınalıq, buduq və qrız dillərini özündə cəmləşdirir. Xınalıq, qrız və buduqlar isə Şimali Qafqaz dillərinin Şahdağ yarımqrupuna aiddirlər (1).
2. Ruslar
3. Ermənilər
4. Yəhudilər – bunlar əsasən etnik yəhudilərdən, musəviliyi qəbul etmiş irandilli xalqlardan, eyni zamanda bir zamanlar musəviliyi qəbul edərək Azərbaycana köçüb, sonradan yəhudilər içərisində assimilyasiyaya uğramış xəzər türklərindən ibarətdirlər.
5. Hind Avropa yaxud İran dil qrupuna daxil olan etnoslar – bunlara kürdlər, talışlar və tatlar daxildirlər. Bunlardan talışlar daha çox Azərbaycanın cənub-şərq zonalarında – Lənkəran, Lerik, Masallı, Astara zonalarında, tatlar isə Xızı, Siyəzən, Dəvəçi və Quba ərazilərində yaşayırlar. Tatlar da öz növbəsində öz dini etiqadlarına görə xristian, musəvi, müsəlman tatlara, dağ yəhudilərinə bölünürlər. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ruslar və ermənilər də Azərbaycanda Hind - Avropa dil ailəsini təmsil edirlər. Bunlardan ermənilər bu ailədə ayrıca qrup təşkil edirlər. Bundan başqa ölkəmizdə az sayda ukraynalılar da yaşayırlar.
6. Kartvel dil ailəsi – bunlara Azərbaycanda az sayda yaşayan gürcülər və Zaqatala, Balakən və Qax zonalarına yayılan müsəlman və xristian ingiloylar aiddirlər (2).
7. Azərbaycanda türk xalqlarının da nümayəndələri yaşayır ki, bunlara Axısqa türkləri və tatarlar da aiddirlər.

Bundan başqa Azərbaycanda müxtəlif submədəniyyətlərin nümayəndələri də yaşayırlar. Submədəniyyət – ölkə ərazisində formalaşan vahid mədəni məkanın daxilində müəyyən daxili siyasi, mədəni, mental, sosial dəyərlərin ətrafında formalaşan birliklərin ümumi adıdır. Submədəniyətlər ya qeyri formal təşkilatlar, ya da ki, müəyyən davranış qaydaları ətrafında formalaşa bilirlər. Adətən bu submədəniyyətlər hakim mental dəyərlərə etiraz olaraq yaxud müəyyən insanlara, ideyaların fanatlığı əsasında (fendom) meydana gəlirlər (Mosiyenko, 2010: 125).

Azərbaycanda da müxtəlif submədəniyyətlərin nümayəndələrinə rast gəlmək mümkündür. Bunlardan biri də rep sənətinin Azərbaycanda kütləviləşməsində xüsusi rol oynayan “HOST” qrupudur. Onu da qeyd etmək yerinə düşərdi ki, Azərbaycanda ilk submədəniyyət əsasında formalaşmış qeyri formal gənclər təşkilatı – XX əsrin 80-ci illərinin II yarısında qeydiyyatdan keçmiş “Cəng” təşkilatıdır.

**Multikulturalizm anlayışı.**

Multikulturalizm termini ilk dəfə İsveçrədə 1957-ci ildə istifadə edilmişdir (Babiç, Rodionova, 49). Bunun da səbəbi İsveçrənin rəsmi səviyyədə dörd dildə danışması, eyni zamanda bu ölkədə aktiv şəkildə fəaliyyət göstərən aktiv milli, dini və sosial yönlü fəal icmaların olması idi. Göstərilən amillər İsveçrə hakim dairələrini dövlətin daxili siyasətini məhz həmin icmaların fəallaşdırılması, onların öz maraqlarını dövlət qarşısında təmsil etməsi üçün şərait yaradılması istiqamətində işlər görməyə sövq etmişdi. İsveçrədə yönəldilən bu cür daxili siyasət forması isə “multikulturalizm” adlandırılmışdır. Lakin ilk vaxtlar bu istilah adətən dövlətdə olan çoxmillətlilik, çox mədəniyyətlilik hadisəsinin sadə ifadəsi kimi istifadə edilmişdir. Lakin 1971-ci ildən sonra “multikulturalizm” bəsit formada çoxlu xalqların və mədəniyyətlərin sadə mövcudiyyətini ifadə etməkdən daha çox, həmin mədəniyyətlərin cəmiyyətin üzvi hissəsi olduğunu təsdiq etmək, onları cəmiyyətin sosial, iqtisadi və mədəni həyatına aktiv şəkildə cəlb edilməsi siyasətini nəzərdə tutmuşdur (Babiç, Rodionova, 49).

İlk olaraq “multikulturalizm” Kanadanın siyasi meyarları içərisində rəsmi şəkildə yer almış, daha sonra isə Avstraliya, İngiltərə və Niderland tərəfindən dövlət siyasətinin tərkib hissəsi kimi hesab edilməyə başlanmışdır. Multikulturalizm siyasəti XX əsrin 80-ci illərində Fransanın da daxili siyasətində xüsusi yer tutmağa başlamışdır. Fransada multikulturalizm siyasətinə keçilməsi əslində bu ölkənin milli siyasətinin meyarları üçün inqilabi bir dəyişiklik idi. Belə ki, bu zamana qədər Fransada milli, etnik, dini konfessiyaların və submədəniyyətlərin olması görməzdən gəlinir, hətta

dövlət siyahıya almalarında belə onların milli, dini mənsubiyyəti qeydə alınmırdı. Fransada multikulturalizmə keçidin əsas səbəblərindən biri keçmiş Fransa müstəmləkələrindən Fransaya külli miqdarda mühacir axını, ikincisi isə Fransanın bəzi ərazilərində Bretan, Korsika və s. milli separatizm qalıqlarının qalmasıdır (Veretevskaya, 2018: 136). Düzdür zaman-zaman Fransa mühacirlərin Fransaya gəlişini məhdudlaşdıran, bəzən də bir sıra ölkələrdən olan mühacirlərin Fransadan çıxarılması üçün qanunlar verir, yaxud ölkədə kütləvi mühacir axını millətçi-şovinist qrupların fəallaşmasına səbəb olur. Amma ümumilikdə multikulturalizm Fransanın daxili siyasətinə getdikcə daha çox nüfuz etməyə başlayır.

Multikulturalizm siyasəti əslində dünya dövlətlərində cəmiyyətdə olan polikulturallıq "məsələsinin" optimal həll edilməsinə yönələn bir siyasət idi. Dövlətlərdə cəmiyyətdə olan polikulturallıq probleminin həlli üçün əsas olar üç istiqamət formalaşmışdı. Bunlardan birincisi assimilyasiya siyasətidir. Assimilyasiya siyasəti cəmiyyətdə olan mədəni, etnik və davranış fərqlərinin dəf edilməsini, həmin fərqlərin cəmiyyətin və dövlətin üstün tutduğu meyar istiqamətlərinə uyğunlaşdırılmasını nəzərdə tutur. Misal olaraq XX əsrin 70-ci illərinə qədər dünyada ən çox mühacir qəbul edən ölkələr – Avstraliya, Kanada və ABŞ da mühacirlərə münasibətdə, "ingilis dəyərlərinə" uyğunlaşdırılma siyasəti aparılırdı, hesab edilirdi ki, zaman keçdikcə mühacirlər yerli dəyərləri və meyarları mənimsəyərək, onlara uyğunlaşacaq, cəmiyyətin üzvi bir hissəsinə çevriləcəklər.

Lakin XX əsrin 70-ci illərindən başlayaraq mühacirlərin təzyiqi altında həmin ölkələrdə "ingilis meyarlarına" uyğunlaşmaq modelindən "multikulturallıq" modelinə keçid edildi ki, bu da etnik, dini konfessiyaların milli və dini kimliyinə hörmət üzərində qurulan siyasətə deyilirdi (Babiç, Rodionova, 49). Bütün bunlara baxmayaraq milli, etnik və dini azlıqlara qarşı assimilyasiya etmək yönlü siyasət müasir dövrdə dövlətlərin əksəriyyətində bu və ya digər formada həyata keçirilməkdədir ki, buna ilk olaraq Rusiyanı misal göstərmək olar.

Milli və dini kimlik müxtəlifliyinə ikinci yanaşma tərzinə seqreqativ yanaşma deyilir. Seqreqasiya sözü tərcümədə "ayırmaq" yaxud "fərqləndirmək" deməkdir. Vaxtilə bu siyasət Kanada, ABŞ, Avstraliya dövlətləri üçün xarakterik olan daxili siyasətin ayrılmaz hissəsi idi. Avropa ölkələrindən belə siyasətin klassik nümunəsi Almaniya idi. Afrikada isə CAR klassik seqreqasiya ölkəsi hesab edilirdi. Seqreqativ yanaşma düşüncəsi öz başlanğıcını etnomədəni fərqlərin dəyişməzliyi, ona görə də xalqların qaynayıb, qarışma proseslərinin qarşısının alınmasının qanuniliyi fikrindən götürmüşdür. Asiyada bu düşüncənin klassik ölkələri vaxtilə Yaponiya olmuşdur. Bütün XIX əsr boyu və XX əsrin I yarısına qədər Kanada, ABŞ və Avstraliyada yerli əhaliyə qarşı seqreqasiya (təcrid etmə) tədbirləri, Cənubi Afrika Respublikasında (CAR-da) zəncilərin ağdərililərdən təcrid edilmə siyasəti göstərilən yanaşma tərzinin əyani nümunəsidir (Veretevskaya, 2018:24). Almaniyada isə II Dünya müharibəsinin sonuna qədər seqreqasiya siyasəti alman olmayan istənilən şəxsə tətbiq edilə bilərdi. XX əsrin sonlarında, Almaniyaya mühacir axınının qızğın vaxtında belə Almaniyanın yerli hakimiyyət orqanları, mühacirlərin əksəriyyətini təşkil edən türk, kürd uşaqları üçün, onların Almaniyadan getməli olmalarını stimullaşdıran məktəblərin açılması fikrini üstün tuturdular. Yalnız 1999- cu ilin 7 mayında Almaniya parlamenti mühacirlərə aid olan qanunvericiliyin AB standartlarına uyğunlaşdırılması haqqında qanun verdi. Bu isə Almaniyaya mühacirətin qarşısı alınmaz proses olmasını etiraf etmək demək idi (Veretevskaya, 2018: 26).

Seqreqasiyanın ən qəddar formalarından biri də ABŞ dövlətində XIX -XX əsrin I yarısında formalaşdırılan "əridən soba" siyasəti idi. Bu da ABŞ ərazisində əsrlərdən bəri yaşayan hindulara qarşı yönələn, onların milli özünəməxsusluğunun ləğv edilməsinə istiqamətlənən siyasət idi.

Milli, etnik və dini kimliklərin müxtəlifliyinə münasibətdə yürüdülən müasir siyasi istiqamətlərdən biri, bəlkə də dövrümüzdə ən yayılmış və populyar olanı "multikulturalizm" siyasətidir. Multikulturalizmin ana prinsipləri barəsində yuxarıda məlumat verilmişdi. Ancaq onu demək lazımdır ki, hər bir ölkədə multikulturalizm siyasəti özünəməxsusluğu ilə yadda qalmışdır. Misal üçün Qərbi Avropa ölkələrində multikulturalizm istilahı daha çox, mühacirlərin milli və dini kimliyinə hörmət göstərilməsi anlamında başa düşülürsə, Latın Amerikasında multikulturalizm siyasəti daha çox yerli xalqların mədəniyyətinin qurunması istiqaməti kimi anlaşılır. ABŞ və

Kanadada isə müasir zamanımızda multikulturalizm nəinki mühacir yaxud yerli xalqların eyni zamanda mədəniyyətin, incəsənətin, sənayenin inkişafı, sosial və siyasi kimliyin dəyişməsi üzərində submədəniyyətlərə münasibətdə də çevik və tolerant siyasət yeridilməsini nəzərdə tutur.

Müasir dövrdə multikulturalizmin əsas pronsipləri Kanadada formalaşan multikultural dəyərlərin əsasında formalaşmışdır. Kanadada formalaşan multikultural siyasət "vahid millət, iki dil, çoxlu xalq və çoxlu mədəniyyət prinsipinə" söykənir. Bunları aşağıdakı kimi xarakterizə etmək olar:

1. Cəmiyyətin, eləcə də şəxsin siyasi və sosial həyatında mədəni kimliyin vacibliyinin dərk edilməsi

2. Bütün mədəni qrupların cəmiyyətin ictimai həyatına bərabər şəkildə cəlb edilməsi

3. Cəmiyyətdə multikultural kompromis yaradılması üçün tədricən mədəni transformasiyaya nail olmaq

4. Legitim multikultural kompromisə nail olmaq üçün çox formatlı multikultural dialoqa nail olunması (Veretevskaya, 2018: 143).

Nəzəri olaraq siyasi ədəbiyyatlarda multikulturalizmin aşağıdakı formatlarda rəzahür etdiyi göstərilir:

1. **Liberal multikulturalizm** – müxtəlif mədəni kimliklərin vahid hüquq bərabərlikləri və azadlıqları çərçivəsində bərabər şəkildə qorunması, eyni zamanda onların funksionallığına şərait yaradılması. Azərbaycan hazırda multikulturalizmin məhz bu formasına aid edilə bilər.

2. **Radikal multikulturalizm** – bunlar mədəni transformasiyanı qəti qəbul etməyən, milli identikliyin nəyin bahasına olursa olsun saxlanılmasının tərəfdarı olanlardır. Onlar milli ayrı seçkiliyi təbliğ etməsələr də, milli kimliyin də hər cür transformasiyasına müqavimət göstərirlər

3. **Konservativ yaxud korporativ multikulturalizm** – siyasi hakimiyyətin mədəni kimliklər arasında parçalanmasında maraqlı deyil, eyni zamanda multikultural dəyərlərin də cəmiyyətin ictimai həyatında qismən tətbiqinə çalışır (Nazarov, 2015: 28).

**Heydər Əliyev və Azərbaycanda multikulturallıq ənənələri**:

Azərbaycanda dini, milli və mədəni tolerantlığın dərin tarixi ənənələri vardır. Azərbaycan tarixən müxtəlif dinlərin, dini məzhəblərin, eyni zamanda müxtəlif xalqların və milli mədəni kimliklərin qaynayıb qarışdığı bir məkan olmuşdur. 1991-ci ilin oktyabrında Azərbaycan Respublikasının müstəqilliyi elan edildikdən sonra Azərbaycanda milli-etnik, dini məsələlər daha da aktuallaşmağa başladı. Bunları aktual edən məsələlərdən ən vacib olanı, hələ 1988-ci ildən başlayan "Dağlıq Qarabağ" mnəsələsi deyilən qondarma bir məsələ adı altında Ermənistan Respublikasının millətçi-şovinist rəhbərliyinin Azərbaycana qarşı təcavüzü idi. Ermənistanın Azərbaycana qarşı təcavüzü təkcə ərazi istəkləri deyil, eyni zamanda guya ki, Azərbaycanda milli azlıqların demokratik şəkildə yaşamasının mümkün olmaması, onların milli kimliyinin daima tapdanması fikri üzərində qurulurdu. Bu baxımdan Azərbaycan siyasi dairələrinin ölkə daxilində mövcud olan xalqlar, dini icmalarla aparılan siyasəti daha çevik və daha effektiv şəkildə yenidən qurması günün mühüm məsələlərindən birinə çevrilmişdi. 1992-ci ildə Azərbaycanda "Dini etiqad azadlığı haqqında" qanun qəbul edilsə də, faktiki olaraq ölkədə əlverişli çox mədəni mühitə əsaslanan bir abu havanın yaradılması istiqamətində o qədər də böyük işlər görülməmişdir. Bundan başqa o dövrdə Azərbaycan Respublikasının prezidenti olan Əbülfəz Elçibəyin psevdo-millətçi şüarlarla çıxış etməsi ölkədə millətlərarası münasibətlər sahəsində xeyli problemlərin ortaya çıxmasına səbəb olmuşdur.

Lakin 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanda millətlərarası münasibətlərdə, eyni zamanda dini konfessiyalara qarşı münasibətdə çox böyük müsbət irəliləyişlər baş vermişdir. İlk olaraq görülən mühüm və nəhəng iş 1995-ci ilin noyabrın 12-də Azərbaycan Respublikasının Konstitusiyası olmuşdur. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycanda multikulturalizmin ilkin prinsiplərinin möhkəmlənməsi üçün mühüm qanunvericilik bazası yaratmış oldu. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycanın dünyəvi və demokratik ölkə olduğunu bəyan etməklə yanaşı, Azərbaycan Respublikasında yaşayan vətəndaşların təməl demokratik hüquq və azadlıqlarını təsdiqləmiş oldu. Belə ki, Konstitusiyanın 1.II maddəsinə görə "Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir; bu isə

beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir" (7). Dövlətimizin Ali Qanununun ilk maddəsindən göründüyü kimi Azərbaycanda yaşayan istənilən etnos, xalq, dini konfessiya üzvü Azərbaycan xalqı sayılır. Bu prinsip eyni zamanda Azərbaycan dövlətçiliyinin başlıca ideoloji prinsipi olan Azərbaycançılıq ideologiyasının da təməl əsasını təşkil edir.

Azərbaycan Konstitusiyasının 7.II maddəsi isə Azərbaycan dövlətinin daxili məsələlərinin yalnız hüquqla həll edildiyini bildirir. Yəni Konstitusiya heç bir etnosun, xalqın yaxud dini konfessiyanın adət, ənənəsini dövlətin daxili məsələlərinin həlli üçün əsas təşkil etmədiyini göstərir. Konstitusiyanın 12.1 maddəsinə əsasən isə insanların hüquq və azadlıqlarını təmin etmək dövlətin ali məqsədi elan edilir (7).

Konstitusiyanın 18.I maddəsi isə dinin dövlətdən ayrı olduğunu, eyni zamanda istənilən dinin qanun qarşısında bərabər olduğunu göstərir. Konstitusiyanın 21.II maddəsi isə Azərbaycan dilindən başqa, Azərbaycan ərazisində olan başqa dillərin də sərbəst şəkildə işlədilməsinə və inkişafına zəmanət verir. Bütün bu göstərilənlər isə Azərbaycanda multikultural siyasətin məhz qanunvericilik bazasının hüquqi əsasını təşkil edir.

Dövlətin idarəçilik sistemində multikulturalizm prinsiplərinin təmin edilməsi sahəsində mühüm addımlardan biri də 2000-ci ilin 13 iyununda "İctimai birliklər haqqında" qanunun verilməsidir. Həmin qanunun mühüm məqsədlərindən biri isə ölkədə fəaliyyət göstərən müxtəlif prinsiplər əsasından meydana gələn submədəniyyətlərin formalaşması və stabil fəaliyyəti üçün hüquqi baza yaratmaqdır. Qanunun başqa mühüm vəzifəsi isə ölkədə vətəndaş iştirakçılığını təmin etməkdir (8). Bu baxımdan 2013-cü ilin noyabrında qəbul edilmiş İctimai İştirakçılıq haqqında qanun göstərilən qanunun hüquqi davamı sayılmalıdır.

Yuxarıda göstərilənlərdən başqa ölkədə multikultural inteqrasiya məkanının formalaşması, eyni zamanda ölkədə mövcud olan dini konfessiyalar, xalqların milli mədəniyyətlərinin inkişaf etdirilməsi üçün də mühüm işlər görülmüşdür.

1998-ci ildə Azərbaycanda Bakı və Xəzəryanı ölkələrin Yepiskopluğu yaradılmış, sonrakı dövrlərdə bu Yepiskopluğa Dağıstan və Çeçenistan muxtar respublikalarının pravoslav kilsəsi də tabe edilmişdir. Hazırda Bakıda 3, Gəncədə və Xaçmazda bir kilsə, Sumqayıtda isə bir məbəd fəaliyyət göstərməkdədir (9).

1999-2001- ci illərdə Bakıda Müqəddəs Məryəmin Miladı Baş Kilsəsi bərpa edilmişdir. 2003-cü ildə Rum patriarxı II Varfolomey Azərbaycanda səfərdə olmuş, Ümummillli lider Heydər Əliyevlə görüşmüş və Azərbaycanda dini və milli tolerantlıq, eyni zamanda dini konfessiyaların fəaliyyətinə yaradılan şəraiti yüksək qiymətləndirmişdir.

Azərbaycanda fəaliyyət göstərən katolik icmasının fəaliyyəti baxımından 1997-ci ilin sentyabrın 26- sında Heydər Əliyevin Vatikana rəsmi səfərinin mühüm əhəmiyyəti olmuşdur. Ümummilli Lider Heydər Əliyev Vatikanda Papa II İohann Pavellə görüşmüş və geniş fikir mübadiləsi aparmışdır. Bunun ardınca 1999-cu ildə Azərbaycanda katolik icması rəsmi dövlət qeydiyyatına alınmış, 2002-ci ildə isə Roma papası II İohann Pavel Azərbaycana səfər etmişdir. Bütün bu göstərilənlərin hamısı Azərbaycanın multikultural bir dövlət kimi dünya ictimaiyyətinə tanıtdırmış, eyni zamanda dövlətin daxili siyasətində də mühüm mərhələnin başlanğıcını qoymuşdur

Azərbaycanda dini və milli baxımdan identikliyi hüquqi səviyyədə təsdiqlənməyən icmalardan biri də Qəbələ ərazisində yaşayan udi icması idi. 1836- cı ildə alban kilsəsi ləğv edilərək erməni kilsəsinə tabe edilmiş, hamısı bir yerdə Erməni kilsəsi adlandırılmışdı. 2003-cü ildə bu tarixi ədalətsizliyə son qoyulmuş və Udi kilsəsi Alban kilsəsi olaraq dövlət qeydiyyatına alınmışdır (9).

Azərbaycanın ictimai-sosial həyatında mühüm rol oynayan yəhudi icması da Ümummilli liderimizin diqqətindən kənarda qalmamışdır. Buna misal olaraq 2003-cü ilin martında Bakıda yəhudi sinaqoqunun, sentyabrında isə Bakıda ilk yəhudi məktəbinin tikilərək istifadəyə verilməsi olmuşdur.

2001-ci ilin 21 iyununda "Dini qurumlarla iş üzrə Dövlət Komitəsi" yaradılmışdır. Əslində bu qurumun yaradılması dövlətimizin ölkədə dini tolerantlıq prinsiplərinin dövlət siyasəti səviyyəsinə qaldırılmasının mühüm göstəricisi idi.

Azərbaycanda İslam dininə mənsub olan konfessiyaların inkişafı da ümummilli liderimizin diqqətindən kənarda qalmamışdır. Müstəqillik əldə edilən ilk illərdə Azərbaycanda 39 məscid fəaliyyət göstərirdisə, hazırda Azərbaycanda 2000-dən çox məscid, onlarla kilsə və məbəd fəaliyyət göstərməkdədir. Azəbaycanda multikulturalizm siyasətini araşdıran fransız tədqiqatçısı və səyahətçisi, Bakıda fəaliyyət göstərən Fransız liseyinin müəllimi Benua Filu özünün "Azərbaycanda multikulturalizm" adlı məqaləsində qeyd edir: "Heydər Əliyevin hakimiyyətə gəlişi ilə yenidən ərazi əsaslı kimlik anlayışına yönəldilmiş daha balanslı siyasət tətbiq edildi: diskurs tarixi proseslər nəticəsində yaranan azərbaycanlılığa və Oğuz türk mədəniyyətinin İran-Qafqaz əhalisi ilə tanışlığına yönəldi" (10).

Məqaləsində göstərdiyi tezisləri davam etdirən fransalı tədqiqatçı daha sonra yazır: "Ümumiyyətlə, hökumət ərazi və vətəndaşlığa əsaslanan millət anlayışına yönəldi. Rəsmi sənədlərdən etnik mənsubiyyət qeydləri çıxarıldı; əlavə olaraq, 1995-ci il konstitusiyası irqindən, milliyyətindən, dinindən və dilindən asılı olmayaraq, bütün azərbaycanlıların bərabər hüquqlarını müəyyənləşdirir (Maddə 25), 44 və 45-ci maddələrində isə hər kəsin milliyyətinə hörmət prinsipi, hər kəsin ana dilindən istifadə etmək və ana dilində təhsil almaq hüququ öz əksini tapır" (10). Göstərilən sitatlardan göründüyü kimi Benua Filu öz məqaləsində diqqəti Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda dini və milli siyasətin formalaşdırılmasının ana prinsiplərinə çəkir və bu prinsiplərin multikultural dəyərlərə arxalandığını qeyd edir.

Heydər Əliyevin özü Azərbaycanda milli azlıqların mədəniyyətlərinə öz münasibətini belə ifadə etmişdi: "...respublikanın ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıca sərvəti, qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır..." (Cavadov, 2000: 14). Lakin bütün bunlara baxmayaraq milli birlik, Azərbaycançılıq, Azərbaycanda yaşayan xalqların və etnosların Azərbaycan milli varlığının tərkib hissəsi olması da həmişə Ümummilli liderimiz tərəfindən göz önündə tutulmuşdur. Heydər Əliyev cənabları öz nitqlərinin birində söyləmişdir: "...mənim sizlərlə görüşlərimi milli azlıqların nümayəndələri ilə görüş adlandırmaq istəməzdim. Bu Azərbaycanın, Azərbaycan xalqının nümayəndələri ilə görüşüdür" (Cavadov, 2000: 14).

Heydər Əliyev cənablarının milli azlıqların nümayəndələri ilə görüşlərdə söylədiyi sözlər, elə söz olaraq da qalmadı. Artıq XX əsrin 90-cı illərinin ortalarında Azərbaycan radiosunda milli azlıqların dillərində verilişlər təsis olundu. XX əsrin 90-cı illərinin sonlarından başlayaraq milli azlıqların dillərində, onların yaşadıqları rayonların ərazilərində milli məktəblər təsis edildi ki, onlarda yerli dillər tədris edilməyə başlandı.

Hətta Xbəzi yerli ümumtəhsil məktəblərində Azərbaycan dili ilə birgə, həmin azlıqların dillərinə də saat ayrıldı. Eyni zamanda Azərbaycan Dövlət Nəşriyyatının nəzdində milli azlıqların tarixi, folkloru, milli mədəniyyət nümunələrinin toplanması, onların nəşri ilə məşğul olan xüsusi şöbə yaradıldı (12).

1995-ci ildə Azərbaycan nümayəndə heyətinin bilavasitə iştirakı ilə BMT qərarı ilə 1995-2005-ci illərdə Azərbaycanda azsaylı xalqların onilliyi proqramı qəbul edilmiş və uğurla həyata keçirilmişdir. Bu sahədə onlarla məcmuə nəşr edilmiş, elmi tədqiqatlar aparılmış, eyni zamanda azsaylı xalqların milli mədəniyyətinin inkişaf etdirilməsi sahəsində mühüm işlər görülmüşdür. Buna misal olaraq hələ XX əsrin 90-cı illərindən başlayaraq İsmayıllı rayonunun Basqal və Lahıc kəndlərinin açıq səma altında muzeyə və turistlərin ziyarət etdiyi mühüm məkanlardan birinə çevrilməsi üçün mühüm addımlar atılmışdır.

Azərbaycanda submədəniyyətlərin inkişafı da ümummilli liderimizin diqqətindən kənarda qalmamış, onların yaradılması, gənclərin müxtəlif yaradıcılıq qrupları şəklində həmin submədəniyyətlərdə iştirakı təşviq edilmişdir. Bu submədəniyyətlərin formalaşmasında mühüm amillərdən biri müxtəlif müasir və populyar müsiqi üslublarını tirajlayan diskotekalar və əyləncə mərkəzlərinin yaradılması oldu.

Məsələn: 1996- cı ildə Bakıda Skylife adlı diskotekada DJ Remin (Ramil Əşrəfov) təhbərliyi altında Respublikada ilk dəfə elektro musiqi gecəsi təşkil edildi. Bu da elektro musiqi tərəfdarlarından ibarət olan kiçik bir gənc qrupun formalaşmasına yol açdı. 2000-ci ildə isə iki DJ, Dj Rem (Ramil Əşrəfov) və

Dj Nemo (Mansur Əhmədov) respublikada ilk elekro musiqi festivalı təşkil etdilər. Festivalı onların yaratdıqları TRİBAL PROMO GROUP təşkil etmişdi.

Lakin görülən işlərə baxmayaraq Azərbaycan hələ ki, submədəniyyətlərin formalaşmasının başlanğıc mərhələsindədir. Bunların formalaşması, gələcək inkişafı əslində Azərbaycanda ictimai, sosial və mədəni mühitin gələcək inkişafı, formalaşma istiqamətlərindən çox asılıdır.

## Nəticə

Azərbaycanda Ümummilli liderimiz Heydər Əliyev dövründə başlayaraq dövlət səviyyəsində aparılan multikulturalizm siyasəti, dövlət quruculuğunun təməl prinsiplərinin əsasında qoyulmuşdur.

Ümummilli liderimiz Azərbaycanda milli, dini və mədəni siyasətin təməllərini formalaşdırarkən heyrət ediləcək şəkildə düşüncə genişliyi, dünyagörüş böyüklüyü, uzaqgörənlik nümayiş etdirmişdir. Ona görə də müasir dövrümüzdə Azərbaycan dövləti öz tolerant, multikultural inkişaf mühitinə görə dünyanın aparıcı ölkələri ilə eyni sırada addımlayır. Yuxarıdan göründüyü kimi Ümummilli lider Heydər Əliyevin apardığı milli siyasəti üç təməl komponentə bölmək olar

1. Tolerantlıq
2. Demokratizm
3. Azərbaycançılıq
4. Xalqçılıq
5. Multikulturalizm

Tolerantlıq Azərbaycan cəmiyyətində milli və dini dözümlülük, submədəniyyətlərin genişləndirilməsi, Azərbaycan cəmiyyətinin rəngarəngliyinin qorunması kimi özünü göstərməkdədir.

Demokratizm Azərbaycanda insan hüquqları, vətəndaş iştirakçılığı zəminində yerli xalqların, dinlərin, submədəniyyətlərin fəaliyyətini stimullaşdırmaq, onlara şərait yaratmaqdır. Azərbaycançılıq isə vahid Azərbaycan dövlətçiliyi, millətçiliyi çərçivəsində cəmiyyətimizin milli mənəvi dayaqlarını möhkəmləndirməkdən ibarətdir.

Xalqçılıq prinsipi isə Azərbaycanda yaşayan bütün xalqların maddi və mənəvi rifah halının genişləndirilməsini nəzərdə tutur. Lakin multikulturalizm Azərbaycan cəmiyyətinin rəngarəngliyinin, cəmiyyətimizdə yaşayan istənilən mədəniyyətin, konfessiyanın üzvünün fəallığının artırılması, dövlət idarəsində fəal iştirakını özündə ehtiva edir ki, bunun da təməl əsasları ümummilli liderimiz Heydər Əliyevin hakimiyyəti illərində qurulmuşdur.

## Ədəbiyyat

1. Etnik rəngarənglik. https://multiculturalism.preslib.az/az_a3.html
2. Dövlət Statistika Komitəsi. Əhalinin milli tərkibi. https://www.stat.gov.az/source/demoqraphy/ap/
3. Moisenko, L.V. (2010). Molodejnaya subkultura v obrazovatelnom prostranstve VUZa. Sovremenniye naukoyomkiye tekhnologyy. № 9, s.124-127. https://top-technologies.ru/ru/article/view?id=25379
4. Babich, I.L., Rodionova, O.V. Teoriya i praktika multikulturalizma (Institut etnologyy i antropologyy RAN). Issledovaniya po prikladnoy i neotlozhnoy etnologyy. № 215, 49 s.
5. Veretevskaya, A.B. (2018). Multikulturalizm, kotorogo ne bilo (analiz evropeyskikh praktik politiceskoy integracyy etnokulturnikh menshistv). Moskva, 184 s.
6. Nazarov, V.L. (2015). Teoriya i praktika multikulturalizma v stranakh Zapada (uchebnoye posobiye). Yekaterinburg, 212 s.
7. Azərbaycan Respublikasının Konstitusiyası. https://www.e-qanun.az/framework/897
8. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında". Azərbaycan Respublikasının qanunu. https://e-qanun.az/framework/511
9. Məmmədov, C. Azərbaycanda tolerantlıq və müasirlik. https://stm.az/ru/news/429/azerbaycanda-tolerantliq-tarix-ve-muasirlik

10. Filu, B. (2021). Azərbaycanda multikulturalizm. 06 iyul. https://bakuresearchinstitute.org/multiculturalism-in-azerbaijan-2/
11. Cavadov, Q. (2000). Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Bakı, 221 s.
12. Riad, S. (1980-2010). Azərbaycanda submədəniyyətlər. https://bakuresearchinstitute.org/subcultures-in-azerbaijan-1980-2010-2/

Göndərilib: 20.04.2023 Qəbul edilib: 04.06.2023

DOI: https://doi.org/10.36719/2663-4619/91/36-42

**Katana Qafarova**
Çin Renmin Universiteti
katana@mail.ru

# AZƏRBAYCAN RESPUBLİKASININ MÜSTƏQİLLİK ƏLDƏ ETDİKDƏN SONRA SİYASİ VƏ İQTİSADİ GÖSTƏRİCİLƏRİNDƏKİ DƏYİŞİKLİKLƏRİN XARAKTERİ, XARİCİ ƏLAQƏLƏRİN İNKİŞAF ETDİRİLMƏSİNİN İQTİSADİ GÖSTƏRİCİLƏRƏ TƏSİR İMKANLARI

**Xülasə**

Cənubi Qafqazda vacib strateji coğrafi mövqeyə malik Azərbaycan Respublikasının mürəkkəb xarici münasibətləri mövcuddur. Respublika bir sıra tranzit xəttlərinin üzərində yerləşdiyindən bu onu beynəlxalq siyasi və iqtisadi əlaqələr baxımından əhmiyyətli edir. Məqalədə Azərbaycan Respublikasının iqtisadiyyat və beynəlxalq əlaqələrinin tarixi, bir sıra iqtisadi neft lahiyələrinin əhəmiyyəti, Qarabağ münaqişəsi və onun ölkənin iqtisadi-siyasi göstəricilərinə təsirləri, Azərbaycan-Çin əlaqələrinin perspektivlərindən bəhs edilməklə ümumi təhlil aparılmışdır.

***Açar sözlər:*** *Azərbaycan Respublikası, müstəqillik, iqtisadi göstəricilər, beynəlxalq münasibətlər, monitorinq və qiymətləndirmə, davamlı inkişaf*

**Katana Gafarova**
Renmin University of China
katana@mail.ru

## The nature of the changes in the political and economic indicators of the Republic of Azerbaijan after gaining independence, the possibilities of influencing the economic indicators of the development of foreign relations

**Abstract**

The Republic of Azerbaijan, which has an important strategic geographical position in the South Caucasus, has complex foreign relations. Since the Republic is located on a number of transit lines, this makes it important in terms of international political and economic relations. In the article, the history of the economy and international relations of the Republic of Azerbaijan, the importance of a number of economic oil projects, the Karabakh conflict and its effects on the country's economic and political indicators, and the prospects of Azerbaijan-China relations were analyzed.

***Keywords:*** *Republic of Azerbaijan, independence, economic indicators, international relations, monitoring and evaluation, sustainable development*

## Giriş

Azərbaycanda sinfi dəyişikliklər və iqtisadi münasibətlər hələ qədim dövrlərdən təşəkkül tapmışdır ki, biz bu haqda məlumatları Avestada və Kitabi-Dədə-Qorqud dastanında da müşahidə edə bilir (Abbasbeyli, Gasanov, 1999: 256; Aliyev, 1989: 104). Qədim dövrlərdə iqtisadiyyatın əsasında natural təsərrüfat üstünlük təşkil etmişdir ki, bu baxımdan ölkəmizin yerləşdiyi torpaqlar bütün dövrlərdə öz zənginliyi ilə seçilmişdir. Göründüyü kimi təbiətin və coğrafi mövqeyin əlverişliliyi iqtisadi amillərin təşəkkülündə hərəkətverici qüvvə olmuşdur. Bununla bərabər, ölkəmizin coğrafi mövqeyi strateji əhəmiyyət daşıdığından həm qədim, həm orta əsrlər və həm də yeni dövrlərdə bir sıra işğalçı ünsürlərin təsirlərinə məruz qalmışdır. İşğal, müharibə və müxtəlif xəstəliklərin yayılması iqtisadi tənəzzülün əsas səbəbkarları rolunda zaman-zaman dünya tarixinin xronologiyasında öz yerini tutmuşdur (Abbasbeyli, Gasanov, 1999: 256; Aliyev, 1989: 104; Arakelov, 1991: 92). Ölkəmizin iqtisadi göstəricilərinə dair ilk sənədli materiallar Çar Rusiyasının

işğalından sonrakı dövrlərə təsadüf edir. Çar Rusiyası dövründə ölkəmiz əsasən işğalçıların iqtisadiyyatı üçün təminat mənbəyi kimi istifadə olunsa da, neft sənayesi və iqtisadiyyatının ilkin inkişafı məhz bu dövrə təsadüf edir. Həmin dövrdə H.Z.Tağıyev, M.Nağıyev və s. kimi neft milyonçuları öz şəxsi vəsaitlərini ölkə vətəndaşlarının təhsilinə, məktəblərin və xəstəxanaların açılmasına da sərf etmişdirlər ki, bu da dolayı yolla milli mütəxəsislərin, iqtisadiyyatın və sənayenin inkişafına rəvac vermişdir. Qeyd etmək lazımdır ki, iqtisadiyyat və sənayenin inkişafı əhalinin mədəniyyət və təhsil səviyyəsilə birbaşa əlaqədardır (Zaklyuchitelnyy Akt Soveshchaniya po Bezopasnosti i Sotrudnichestvu v Yevrope, 1975-1987: 96). Nəqliyyat sisteminin də iqtisadi münasibətlərin inkişafında rolu yüksəkdir. 1883-1900-cü illərdə Tiflis-Bakı dəmir yolunun istifadəyə verilməsi və ümumi Qafqaz dəmiryolu şəbəkəsinin təşkili Xəzər hövzəsində ticarətin genişlənməsinə təkan verdi və Bakı iri liman şəhərinə çevrilmişdir. 1870-ci illərə kimi Bakıda neft hasilatı ciddi göstəricilərdə olmasa da, həmin illərdə burada iri neft sənayesi sahələri inkişaf etməyə başlamışdır və xarici kapitalda bu sahəyə ciddi sərmayələr qoymuşdur. Məsələn, 1872-ci ilin göstəricilərinə görə Bakıda heft hasilatı 26000 ton civarında olsa da, 1901-ci ildə bu göstərici əhəmiyyətli dərəcədə artaraq 11 milyona ton təşkil etmişdir ki, bu da ümumi dünya üzrə ümumi hasilatın 50%-i deməkdir. Birinci dünya müharibəsi Bakıda neft sənayesinə də çox ciddi zərbə vurmuşdur. Təsadüfi deyildir ki, hələ Bakı Sovetlər tərəfindən işğal edildikdən sonrakı 1921-1922-ci illərdə də 1900-cu illərin neft hasilatı göstəricilərindən dəfələrlə az, 2-4 milyon neft hasil edilə bilirdi. Bu hətta neftin çıxarılmasında istifadə edilən sənaye texnikalarının təkimilləşdirildiyi halda baş vermişdir (Abbasbeyli, Gasanov, 1999: 256).

I Dünya Müharibəsi Çar Rusiyası və Osmanlı imperiyası kimi iri dövlətlərin parçalanması və çöküşü ilə nəticələnir ki, bu da onların ərazilərində iqtisadi problemlərlə müşayiət olunur və bu dövrdə meydana gəlmiş siyasi və iqtisadi situasiya Azərbaycan Demokratik Respublikasının meydana gəlməsilə nəticələnir və bu işdə əvvəl də qeyd etdiyimiz kimi neft milyonçularının əhalinin təhsilinə və mütəxəsislərin yetişdirilməsinə sərf etdikləri vəsaitin mühüm rolu olmuşdur. Cəmi 2 il sonra Rusiya ərazisində meydana gəlmiş Sovetlər İttifaqı tərəfindən işğala məruz qalmasına baxmayaraq, Azərbaycan Demokratik Respublikası ölkəmizin sonrakı inkişafında və taleyində mühüm rol oynamış və ölkəmizin Sovetlərin tərkibinə ayrıca bir Respublika kimi daxil olmasına gətirib çıxartmaqla, sonradan müstəqilliyimizin qazanılmasının hüquqi əsasını təşkil etmişdir. Sovetlər İttifaqı da əslində Çar Rusiyasının davamını təşkil etsə də, həmin dövrdə ölkədə neft sənayesinin inkişafı fonunda bir sıra mütəxəsislər yetişmişdir. Sovetlərin işğalından İkinci Dünya Müharibəsinə qədərki dövrdə planlı iqtisadiyyat üzrə tətbiq edilən sərmayənin 70%-ə qədəri sənayenin inkişafına tətbiq edilirdi ki, onun da 80-90%-i məhz neft sənayesinin inkişafına yönləndirilmişdir (Zamanov, 2001; Rzayev, 1997). Nəticədə ölkədə sənayedə ciddi irəliləyişlər qeydə alınmışdır. İkinci Dünya Müharibəsi ərzində Azərbaycan, o cümlədən, Bakı sənayesi və iqtisadiyyatı cəbhənin təminatı baxımından xüsusi əhəmiyyət daşımışdır. Təsadüfi deyildir ki, 1941-ci il üzrə Bakıdan tədarük edilən neft 23-24 milyon ton təşkil etmişdir. İkinci dünya müharibəsinin 5 ili ərzində isə ümumi olaraq bu göstərici 75 milyon xam neft, o cümlədən 23 milyon ton yüksək oktanlı benzin şəklində olmaqla, ümumi SSRİ-i neft sənayesi tərəfindən əldə edilmiş neft və onun məhsullarının 70%-i, yüksək oktanlı benzinin 100%-ni əhatə etmişdir. Bu da o deməkdir ki, müharibəyə cəlb edilmiş hər 10 daxili yanma mühərrikli nəqliyyat vasitəsi yaxud tankdan 8-i Bakı yanacağı sayəsində hərəkət etmişdir. Müharibə dövründə neft sənayesi və iqtisadiyyatı əsasən yanacaq və digər hərbi məqsədlər daşıyan məhsullar hazırlayırdısa, müharibədən sonrakı illərdə sənayedə çeşidlənmə artmış və şaxələnmə meydana gəlmişdir. Bundan başqa, qeyri-neft sektorunun inkişafa başlaması da sovetlər dönəmində təşəkkül tapmağa başlamışdır. Belə ki, 1950-ci ilin statistika göstəricilərinə görə Azərbaycanda istehsal edilən sənaye məhsulları 1940-cı illə müqayisədə 40%-ə qədər artmışdır. Sovetlər dövründə istifadəyə verilmiş Sumqayıt boru, alüminium və kauçuk zavodları, Gəncə Alüminium zavodu, Daşkəsən Filiz Saflaşdırma müəssisəsi, Mingəçevir Su-Elektrik Stansiyası və başqa sənaye obyektləri ölkə iqtisadiyyatının şaxələnməsində mühüm pay sahibi olmuşdur. Beləliklə, ümumi sənayedə Bakının üzərinə düşən pay tədricən azalma tendensiyası izləməyə başlamışdır. 1970-1980-ci illərdə

Azərbaycanda sənayedə olan irəliləyiş ümumi SSRİ üzrə olan ortalama göstəricini üstələmişdir (Abbasbeyli, Gasanov, 1999: 256; Aliyev, 1989: 104). 1991-ci ildə SSRİ-nin dağılması fonunda ölkəmiz də öz müstəqilliyini qazanmış digər respublikalar kimi müstəqil iqtisadiyyata və pul vahidinə sahib olmuşdur. Ümumilikdə, müstəqillik dövrü 1991-1995-ci illəri əhatə edən iqtisadi xaos və 1996-cı ildən başlayan sabitlik və dinamiklik dövrü olmaqla 2 mərhələyə ayrıla bilər. Qeyd edilən 2-ci mərhələdə əldə edilmiş uğurlar əsasən Ümumilli lider Heydər Əliyevin xarici və daxili siyasətindəki uğurlu gedişlərlə əlaqədardır. Respublikamız ilk müstəqillik qazandığı dövrdən başlayaraq, Ermənistanın Respublikamızın Dağlıq Qarabağ adlanan regionuna olan ərazi iddialarına əsasən yaranmış münaqişə ölkənin 20%-nin işğalı ilə nəticələnmişdir ki, bu da nəticə olaraq Respublikamızın işğala məruz qalmış iqtisadi rayonlarının resurslarından məhrum olması və 1 milyondan çox vətəndaşın qaçqın vəziyyətinə düşməsilə iqtisadiyyata böyük zərbənin dəyməsinə gətirib çıxartmışdır (Zamanov, 2001; Rzayev, 1997; Konflikt v Nagornom Karabakhe, 1990; Mekhtiyev, 2000: 203). Ölkənin müstəqillik əldə etməsi yerli iqtisadiyyatımızın dünya bazar iqtisadiyyatına inteqrasiya etməsinə şərait yaratmaqla mülkiyyətin özəl formalarının da inkişafına təkan vermişdir. Müstəqillik dövrünün iqtisadi baxımdan ilk mühüm hadisəsi kimi 20 sentyabr 1994-cü ildə "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi" haqqında dünyanın 13 neft şirkəti ilə bağlanmış "Əsrin müqaviləsi" hesab edilə bilər. Müqavilə təxminən 400 səhifə həcmindədir və 4 dildə tərtib edilmişdir. Müqavilədə 8 ölkənin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistan) 13 ən məşhur neft şirkəti (AMOCO, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Exxon, Türkiyə Petrolları, Pennzoil, ITOCHU, Ramco, Delta) iştirak etmişdir. Bu zaman qoyulan investisiyalarda BP (Böyük Britaniya) 17,12%, Ramco (Böyük Britaniya) 2,08%, AMOCO (ABŞ) 17,01%, UNOCAL (ABŞ) 11,2%, Penzzoil (ABŞ) 9,81%, McDermott (ABŞ) 2,45%, Lukoil (Rusiya Federasiyası) 10,0%, Statoil (Norveç krallığı) 8,56%, Türk Petrolları Şirkəti (Türkiyə Respublikası) 1,75% və ARDNŞ (Azərbaycan Respublikası) 20% pay sahibi olmuşdur (Mekhtiyev, 2000: 203; Moiseyev, 1997: 272; Mardzhanly, 2009). Əsrin müqaviləsilə "Yeni neft strategiyası və doktrinası" uğurla həyata keçirilməyə başlanılmışdır, müqavilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilmişdir və 12 dekabr 1994-cü ildən qüvvəyə minmişdir. Neft müqaviləsi üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dollarının 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və axtarış-kəşfiyyat işlərinin aparılmasına istiqamətləndirilmişdir. 1999-cu ilin dekabr ayında "mənfəət nefti" ilə doldurulmuş ilk tanker dünya bazarına çıxarılmışdır və satışdan əldə edilən valyuta Azərbaycan Respublikası Dövlət Neft Fonduna yönləndirilmişdir (Chitak, 2021; Shaffer, 2012). Neftin dünya bazarına çıxarılması, beynəlxalq iqtisadi əlaqələr və münasibətlərin qurulması və inkişaf etməsində neftin daşınmasında kəmərlər mühüm rola malikdir. Müxtəlif dövrlərdə Bakı-Batum neft kəməri, Bakı-Supsa neft kəməri, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Trans-Anadolu Qaz Boru kəməri kimi mühüm lahiyələr ölkənin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılmasında əhəmiyyətli olmuşdur. Yuxarıda sadalananlardan ən qədimi Bakı-Batum neft kəməri olmuşdur. Onun lahiyəsi ilk dəfə XIX əsrin 70-ci illərində verilmişdir. Həmin dövrlərdə xaricə ixrac edilən əsas neft məhsulu ağ neft olduğu üçün 1896-cı ildə bu kəmərlə Bakıdan Batuma məhz ağ neftin daşınacağına qərar verildi. Kəmərin 1907-ci ildə ilk dəfə olaraq neft nəql etmişdir və kəmərin lahiyə üzrə hazırlanmasına 10 il sərf edilmişdir. Ümumi uzunluğu 895,42 km (yaxud o zamankı ölçü ilə 839,36 verst) olan kəmər boyunca 16 ötürücü stansiya fəaliyyət göstərirdi. Boruların diametri 8 dyum və divarlarının qalınlığı isə 4 mm olmuşdur. Borularda təzyiqin 50 atmosferə qədər yüksəldilə bilinməsi nəzərdə tutulmuşdur. Kəmərlə gündə 240 min pud, il ərzində isə 60 milyon pud kerosin nəql edilə bilinərdi. Lahiyəyə 21 milyon 460 min rubl xərclməli olmuşdu. 1-ci dünya müharibəsi ərəfəsində müvafiq kəmərlə ildə 22 milyon pud kerosin ixrac edilmişdir ki, bu zaman dövlətin ağ neftin daşınmasına olan xərcləri 4-5 dəfə azalaraq, hər il Çar Rusiyasının büdcəsinə 3 milyon rubldan artıq fayda vermişdir. 1-ci dünya müharibəsi başladıqdan sonra isə neft kəməri ilə kerosinin daşınmasına ehtiyac azalmışdır. Son istiqamət dəyişikliyindən sonra 1997-ci ildə istismara verilən Bakı-Novorossiysk neft kəməri Xəzər neftinin

Rusiyanın Qara dənizdəki limanı olan Novorossiyskini birləşdirir və digər adla "Şimal marşrutu" da adlandırılır. Kəmərin uzunluğu ümumilikdə 1347 km-dir ki, onun 231 km Respublikamızın ərizasinə düşür. Kəmər 1983-cü ildə inşa edilmişdir və 1995-1996-cı illərdə hərəkət istiqamətində dəyişikliklər həyata keçirilmişdir. Kəmərin neft daşıma qabiliyyəti gündəlik 105000 barel təşkil edir. Qeyd edək ki, SOCAR və "Transneft" şirkətləri arasında 2021-ci ildə bir milyon ton neftin müvafiq boru kəməri ilə nəql edilməsinə daur müqavilə imzalanmışdır və uyğun ilin yanvar-noyabr ayları ərzində 1,009 milyon ton neftimiz nəql edilmişdir. 17 aprel 1999-cu ildə istismara verilmiş Bakı-Supsa neft kəməri Xəzər neftinin Gürcüstandan keçməklə dünya bazarlarına nəql edir. Bakıdan Gürcüstanın Supsa limanına daşınmış xam neft oradan tankerlərə doldurularaq Bosfor boğazından keçməklə Avropa bazarına daxil edilir. Kəmərinin ümumi uzunluğu 833 km təşkil edir. Kəmərin gəmiyükləmə qabiliyyəti 600 min – 1 milyon barelə qədərdir. Bakı-Supsa neft kəməri Azərbaycanla bərabər Gürcüstanın da iqitsadi və siyası inkiaşında, xarici münsibətlərin təşəkkül tapmasında mühüm rola malikdir. Gürcüstanla Azərbaycan arasında qarşılıqlı münasibətlərin digər sərhəd qonşularımızla müqayisədə daha yaxşı ənənələrə malik olması ilə əlaqədar olaraq, bir çox beynəlxalq istiqadi əlaqə və münasibətlərdə mühüm xarakter daşıyan neft lahiyələrində o ölkənin ərazisindən istifadə edilmişdir. Bu baxımdan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin də əhəmiyyətini qeyd etmək yerinə düşər. Bu kəmər Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Azəri-Çıraq-Günəşli və Şahdəniz yataqlarından karbohidrogenlərin Türkiyə Respublikasının Ceyhan limanına və oradan da Avropa bazarlarına nəql edilməsini təmin edən kəmərdir. Bununla bərabər, müvafiq kəmərlə Türkmənistandan da dəniz vasitəsilə gələn xam neft nəql edilir ki, bu da müvafiq kəmər lahiyyəsinin beynəlxalq münasibələr baxımından necə əhəmiyyətə malik olduğunu göstərməkdədir (Independent Evaluation Department 2018, 2011-2017; Erdal, 2003: 110-112; Habibbayli, 2021: 37-54). Bu yolla nəinki Azərbycanın hətta orta Asiyanın da kabohidrat ehtiyatlarının Avropa bazarlarına çıxarılmasını təmin etməklə Avropanın enerji təhlükəsizliyinə töhfə vermişdir və hal-hazırda da verməkdədir. Kəmərin açılışı 13 iyul 2006-cı ildə baş tutmuşdur və istismara verilmişdir. Kəmər 443 km-i Azərbaycanda, 249 km-i Gürcüstanda və 1076 km-i Turkiyədə olmaqla ümumilikdə 1768 km uzunluğa malikdir. Hal-hazırda kəmər vasitəsilə ildə 60 milyon ton neft nəqli mümkündür. Bakı-Tbilisi-Ceyhan neft borusunun enerji təhlükəsizliyi və tranzit yolların səmərəli istifadəsi baxımdan beynəlxalq əhəmiyyətini əlavə olaraq sübuta yertirə biləcək amil onun marşutu ilə əlaqədar olaraq, Türkiyənin Qara dənizdəki boğazlarının həddən artıq yüklənməməsində rol oynamasıdır. 2014-cü ildən tikintisinə başlanılmış Trans-Anadolu qaz borusu kəməri (Trans-Anatolian Natural Gas Pipeline, ixtisarla-TANAP) Respublikamızın Xəzər hövzəsindən hasil edilən mavi yanacağın Türkiyə Respublikasının şərq sərhəddindən qərb sərhəddinə daşınması üçün nəzərdə tutulmaqla, sabit tranziti təmin təşkil edəcəkdir. Lahiyənin uzunluğu 1839 km təşkil edir. Bundan başqa, bu kəmərlə karbohidrogen ehtiyatlarının birbaşa Avropaya bazarına çatıdırılması nəzərdə tutulmuşdur. Avropa üçün nəzərdə tutulanqaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstansərhədində təhvil veriləcək. TANAP layihəsində Cənub Qaz Dəhlizi QSC 51%, STEAŞ 7%, BP 12%və Türkiyənin BOTAŞ şirkəti 30% paya malikdir. TANAP layihəsi üzrə saziş 2012-ci il iyunun 26-da İstanbulda imzalanmışdır (Həbibbəyli, 2021: 37-54). Respublikamız müstəqillik əldə etdikdən sonra yuxarıda göstərilən neft müqavilələri və kəmər lahiyələrini ehtiva edən müsbət iqtisadi və beynəlxalq əlaqələrdəki uğurlarla yanaşı Erməsintanla Qarabağ münaqişəsi və torpaqlarımızın 30 il işğalda saxlanılması iqtisadiyyata ciddi zərbə endirmişdir. Beynəlxalq əlaqələrin möhkəm qurulması və etibarlı olması ölkələrdəki iqitsadi və siyası sabitlikdən çox asılıdır. Münaqişə zamanı ən böyük zərər məhz işğala məruz qalmış ərazilərdə baş vermiş, yerli əhali demək olar ki, hər şeyini itirərək maddi və mənəvi zərərə məruz qalmışdır. Çox təəsüfki beynəlxalq münasibətlərdə ikili standartlara üstünlük verən qüvvələr bu hala qarşı susqunluqlarını uzun müddət qorumuşdur. Son olaraq, 2020-ci ildə ali baş komandan İlham Əliyev Ermənistanın hərbi-siyası rəhbərliyi ilə danışıqların səmərəsizliyini qeyd edərək işğalçıların güc tətbiq edilməsi yolu ilə ölkə ərazisindən kənarlaşdırılması məqsədilə əməliyyatlar üçün əmir vermişdir. Nəticədə işğalçılar tutduqları ərazilərin əksər hissəsindən çıxarılmışdır və həmin ərazilərdə də suverenliyimiz bərpa edilmişdir. Hal-hazırda Zəngəzur dəhlizinin açılması məqsədilə də ölkə rəhbərliyi tərəfindən

uğurlu addımlar atılmaqdadır və müvafiq dəhlizin nəinki ölkəmiz üçün eləcə də dünya iqtisadiyyatı və beynəlxalq əlaqədər, o cümlədən, ipək yolu üçün əhəmiyyəti artıq dünya gücləri tərəfindən də qəbul edilməkdədir. Qeyd etmək yerinə düşərdi ki, hələ 1995-1997-ci illərdə Ümumilli Lider Heydər Əliyev İpək Yolunun əhəmiyyətini ilk olaraq dilə gətirmiş və onun region və dünya iqtisadi əlaqələri və münasibətlərində mühüm rol oynayacağını qeyd etmişdir. Hələ həmin dövrlərdə qonşu dövlətlər bu yolun əhəmiyyətinin bu dərəcədə olacağı haqqında düşünmürdülər. Halbuki onun vəfat etməsindən 20 ilə qədər zaman keçsə də, təklif etdiyi iqtisadi lahiyələr indi daha da aktuallıq əldə etmişdir. Qarabağ münaqişəsinin dünya və regional iqtisadi və siyası əlaqələr baxmından düzgün qiymətləndirilməsi üçün ilk olaraq, onun tarixinə və yaradılma səbəblərini düzgün xronologiyasını araşdırmaq lazımdır (Talıblı, 2016: 362; Məlikli, 2020: 259-270; Makili-Aliyev, 2008; Rzayeva, 2011; Dağlıq Qarabağ Sovet hakimiyyəti illərində, 1969; Dağlıq Qarabağda və onun ətrafında baş verən hadisələr, 1989). Onu da qeyd etmək yerin düşərdi ki, Qarabağ məsələrində Ermənistan rejiminin əsas bəhanələri və iddiaları iqtisadi amillərlə əlaqədar olmuşdur ki, bu müstəqilliyin ilk illərində nəzərə alınardı və təxirəsalınmaz şəxskildə bu istiqamətdə tədbirlər görülərdi. Təəsüf ki, buna bir sıra cəhd olunsa da, nail oluna bilinmədi. Sovetlərin son dövrlərində bilərəkdən Qarabağ regionunun iqtisadi əlaqələri Azərbaycan SSR ilə deyil məhz Ermənistan SSR ilə möhkəmləndirilmişdir ki, bu da erməni əhali ilə Ermənistanın biri-birinə gələcəkdə meyl etməsi və münaqişə törədilməsi niyyətlərindən xəbər verirdi. Bu cəhdlər əslində SSRİ hakimiyyətinin əvvəlki illərində də baş vermişdi (Yunusov, 2007; Mikhaylov, 2006; Talıblı, 2016; 362; Məlikli, 2020: 259-270). Həmin dövrlərdə bu cəhdlərin qarşısı alınmğa cəhd edilmişdir. Ermənilərin belə cəhdlərinə qarşı ən ciddi tədbirlər H.Əliyevin Azərbaycan SSR-ə rəhbərliyi dövründə və ondan sonra onun Kremldəki fəaliyyəti zamanı həyata keçirilmişdir, bu səbəbdən bir çox hallarda ermənilərin birbaşa və dolayı təzyiqlərinə məruz qalmışdır. SSRİ-nin çöküşü start götürdükdən sonra xaricdəki erməni lobbisi və Rusiya daxilində pulla ələ aldıqları qüvvələrin yardımı ilə onlar işğal əmliyyatlarına başlamışdırlar. Bu işğalın davam etməsi H.Əliyevin birbaşa koordinasiya etdiyi Horadiz əməliyyatı ilə dayandırılmışdır. H.Əliyevin müvafiq siyasəti onun davamçısı İ.Əliyev tərəfindən uğurla davam etdirilmişdir. Burada da ölkə rəhbərliyinin əsas taktikası ilk olaraq Ermənistan rejimini yuxarıda detallarını qeyd etdiyimiz beynəxalq iqtisadi lahiyələrdə kənarda saxlamaqla onların beynəlxakq münasibətlərini məhdudlaşdırmaq olmuşdur. Bu öz təsirini illər sonra göstərməyə başlamışdır və Respublikamızın təkcə hərbi büdcəsi düşmənin ümumi dövlət büdcəsindən üstün olmuşdur və son olaraq 2020-ci ildə bu proseslərin məntiqi nəticəsi olaraq, Ermənistan məğlub edilmişdir və öz iddialarından əl çəkmək məcburiyyətində qalmışdır.Respublika rəhbərliyi hər zaman xarici münasibətlərində və əlaqələrində dünyada baş verən siyası və iqtisadi hadisələri nəzərə almışdır. Son zamanlar dünya iqtisadiyytında Çin xalq Respublikası öz tərəqqi dövrünü keçirməkdədir. Bunu Çinin iqtisadi göstəricilərinin təhlili də göstərir. İpək Yolu lahiyəsind də əsas rollardan biri məhz Çinin üzərinə düşür. Çin orta Asiya, Qafqaz və bir sıra digər Asiya ölkələri ilə iqtisadi əlaqələrini genişlənirməkdə davam edir. Azərbaycanla Çin arasında diplomatik əlaqələr ilk olaraq, 1992-ci il aprel ayının 2-də yaradılmışdır və müstəqilliyimizi tanıyan ilk dövlətlərdən biri də Çin olmuşdur. 2008-ci ilin Avqust ayı və 2014-cü ilin may ayında Prezident İlham Əliyev Pekin Olimpiya oyunlarının açılışı və Asiya Əməkdaşlıq və Etimad Tədbirləri Konfransında iştirak etmək üçün Çinə səfər etmişdir. 2005 və 2015-ci illərdə isə Cənab Prezident Çinə işgüzar səfərlər etmişdir ki, bu da əlaqələrin inkişaf etdirilməsində mühüm hal hesab edilir (Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri, 2009: 648).

## Nəticə

Qeyd etmək lazımdır ki, hələ 1994-cü ildə Ümumilli Lider Heydər Əliyev Çinə səfər edərək o zamankı Çin rəhbərliyi ilə mühüm görüşlər keçirərək Çin-Azərbaycan iqtisadi əlaqələrinin əsasının qoyulması üçün 8 ədəd razılaşmanın imzalanmasını həyata keçirmişdir. Bu hadisədən sonra Çinlə Respublikamız arasındakı əlaqələr yalnızca iqtisadi müstəvidə deyil, həm də digər sahələri də əhaət etmişdir ("Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu", 2021: 97; Yiming, Sunhee, 2022: 187; Mamedov, 2020: 406-412). Məsələn, 12-21

Aprel 1995-ci il tarixlərdə Pekin Beynəlxalq Sərgi Mərkəzində görkəmli Azərbaycan rəssamı Səttar Bəhlulzadənin əsərlərindən ibarət sərgi nümayiş etdirilmişdir ki, bu da o zaman üçün çox mühüm hadisədir. 17-18 Aprel 1996-cı ildə isə Çinin o zamankı rəhbəri Jiang Jemin və əməkdaşları Azərbaycana səfər edərək Ümumilli Liderlə görüşmüşdürlər və bu Azərbaycanın Çin üçün əhəmiyyətindən məlumat verir.

**Ədəbiyyat**


1. Abbasbeyli, A., Gasanov A. (1999). Azerbaydzhan v sisteme mezhdunarodnykh i regionalnykh organizatsiy. Baku, 256 s.
2. Aliyev, I.G. (1989). Nagornyy Karabakh: istoriya, fakty, sobytiya. Baku, 104 s.
3. Arakelov, R.K. (1991). Nagornyy Karabakh: vinovniki tragedii izvestny. Baku, 92 s.
4. Zaklyuchitelnyy Akt Soveshchaniya po Bezopasnosti i Sotrudnichestvu v Yevrope. (1975-1987). Khelsinki, 30 iyulya-01 avgusta. M., Mezhdunarodnyye otnosheniya, 96 s.
5. Zamanov, I. (2001). Ot agressii k agressii ili podlinnoye litso armyanskogo shovinizma. Baku.
6. Rzayev, K. (1997). Pravda i lozh' o Karabakhskoy voyne. Baku.
7. Konflikt v Nagornom Karabakhe. (1990). Sbornik statey. Baku.
8. Mekhtiyev, R.E. (2000). Realii genotsida Azerbaydzhantsev. Baku, 203 s.
9. Moiseyev, Ye.G. (1997). Mezhdunarodno-pravovyye osnovy sotrudnichestva stran SNG: Uchebnoye posobiye (Pod red.K.A.Bekyasheva). M.: “Yurist”, 272 s.
10. Mardzhanly, M. (2009). Karabakhskaya problema s pozitsiy geopolitiki: analiticheskiy rakurs. SPb.: Knizhnyy dom.
11. Chitak, E. (2021). “Azerbaijan in the 21st Century: An Assessment in the Context of Main Determinants of Domestic and Foreign Policies”. The changing perspectives and "new" geopolitics of the caucasus in the 21st century.
12. Shaffer, B. (2012). "Azerbaijan’s foreign policy since independence", The Caucasus and its Neighbors: Towards the Future, Caucasus International, Vol. 2, №: 1 Spring. http://cijournal.az/post/caucasus-international-vol-2-no-1-spring-2012
13. Independent Evaluation Department 2018. (2011-2017). Country Assistance Program Evaluation: Azerbaijan. Manila: ADB.
14. Erdal, A. (2003). “Dünya Ticarət Təşkilatı və Azərbaycanın Üzvlük Prosesi”. Azərbaycan Müstəqillikdən Sonra Beynəlxalq Konfrasın Materialları. Bakı, 3-4 mart, s.110-112.
15. Habibbayli, S.I. (2021). Azerbaijan-Turkey-Georgia trilateral cooperation as a factor of regional stability (View from Azerbaijan). Qafqazşünaslıq elmi-nəzəri jurnal. № 1 (2), p.37-54.
16. Talıblı, S.Ə. (2016). İran İslam Respublikasının Qafqaz siyasətində Dağlıq Qarabağ problemi (1991-2005-ci illər). Bakı: “Elm və təhsil”, 362 s.
17. Məlikli, G. (2020). Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin siyasi aspektləri. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. Dövlət idarəçiliyi-nəzəri təcrübə. №1 (69), s.259-270.
18. Makili-Aliyev, K. (2008). Enforcement of International Law in the Nagorno-Karabakh Conflict, Tbilisi, Universal.
19. Rzayeva, G. (2011). “Azərbaycan-Türkiyə enerji münasibətləri: çağırışlar və perspektivlər” (Azerbaijan-Turkey energy relations: challenges and perspectives), in Azərbaycan-Türkiyə əlaqələri son 20 ildə: uğurlar və imkanlar (Azerbaijan-Turkey Relations in the Last 20 Years: Successes and Opportunities). Baku, Center for Strategic Studies (SAM) and Azerbaijan-Turkey Business Association (ATİB).
20. Dağlıq Qarabağ Sovet hakimiyyəti illərində. (1969). Qısa statistik məlumat kitabçası. Stepanakert.
21. Dağlıq Qarabağda və onun ətrafında baş verən hadisələr. (1989). Qəzet səhifələrinə əsasən. Bakı.

22. Yunusov, A.S. (2007). Azerbaydzhano-iranskiye otnosheniya i problemy regionalnoy bezopasnosti na Kavkaze. Prostranstvo i vremya v mirovoy politike i mezhdunarodnykh otnosheniyakh: materialy 4 Konventa RAMI. T. 8: Novyye tendentsii v mirovoy politike. M.
23. Mikhaylov, S.A. (2006). Politika SSHA v Tsentral'noy Azii i Zakavkaz'ye v 2005 – nachale 2006 g. Politika v XXI veke: vyzovy i realii. Vyp. 5 (15).
24. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri. (2009). Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi: Bakı: Qarisma, MMC, 648 s
25. “Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu”. (2021). Bakı Dövlət Universitetinin Tarix fakültəsinin təşkilatçılığı ilə keçirilmiş Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. 8 may. Bakı, 97 s
26. Yiming, L., Sunhee, S. (2022). "Influencing Factors of Azerbaijan and China’s Sustainable Tourism Development Strategy under the One Belt One Road Initiative" Sustainability 14, № 1, 187 s. https://doi.org/10.3390/su14010187
27. Mamedov, Z.F. (2020). One belt and one road: Participation and role of Azerbaijan in the implementation of the megaproject. In Proceedings of the 55th International Scientific Conference on Economic and Social Development. Baku, Azerbaijan, 18-19 June; Volume 25, p.406-412

Göndərilib: 26.02.2023 Qəbul edilib: 30.05.2023

DOI: https://doi.org/10.36719/2663-4619/91/43-47

**Zümrüd Hüseynova**
Azərbaycan Respublikasının Prezidenti Yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
zmrdhsynva22@gmail.com

# TƏCAVÜZ CİNAYƏTİ İNSAN HÜQUQLARININ POZULMASI KİMİ VƏ TÖRƏDİLMƏSİNƏ GÖRƏ BEYNƏLXALQ CİNAYƏT MƏSULİYYƏTİNİN PERSPEKTİVLƏRİ

## Xülasə

İnsan hüquqlarını insanın cəmiyyətdə və dövlətdə statusunu müəyyən edən hüquqlar kimi müəyyən etmək olar. Müasir anlayışda insan hüquqları təbii hüquqa əsaslanır, yəni doğuşdan bütün insanlara xasdır. Belə bir anlayış kifayət qədər uzun müddət ərzində inkişaf etmişdir. İnsan hüquqları təkcə ölkədaxili deyil, həm də beynəlxalq hüquqi müdafiə obyektidir. Bu hüquqların qəsdən pozulması, şübhəsiz ki, haqsız hərəkətdir. Eyni zamanda hər bir insan hüquqlarının pozulması beynəlxalq cinayət deyil, yalnız bütün dünya ictimaiyyətini narahat edən ən ağır cinayətlərdir. Son zamanlar dünyanın müxtəlif yerlərində bir çox dövlətlər getdikcə daha çox siyasi qeyri-sabitlik əlamətləri ilə üzləşirlər. Beynəlxalq və qeyri-beynəlxalq silahlı münaqişələr, qeyri-qanuni zorakılıqdan istifadə edən siyasi rejimlər (əsasən qeyri-legitim), beynəlxalq münasibətlərdəki gərginlik bu qeyri-sabitliyin elementləridir. Bu qeyri-sabitliyin nəticələrindən biri də insan hüquqlarının pozulması hallarının xeyli artmasıdır.

***Açar sözlər:*** *insan hüquqları, Beynəlxalq Cinayət Məhkəməsi, beynəlxalq cinayət hüququ, beynəlxalq təhlükəsizlik, təcavüz cinayəti*

**Zumrud Huseynova**
The Academy of Public Administration under the
President of the Republic of Azerbaijan
master student
zmrdhsynva22@gmail.com

# The crime of attack as a violation of human rights and perspectives of international criminal responsibility

## Abstract

Human rights can be defined as rights that determine the status of a person in society and the state. In the modern understanding, human rights are based on natural law, that is, inherent to all people from birth. Such a concept has developed over a long period of time. Human rights are an object of legal protection not only domestically, but also internationally. Deliberate violation of these rights is certainly a wrongful act. At the same time, not every violation of human rights is an international crime, but only the most serious crimes that concern the entire world community. Recently, many countries in different parts of the world are facing more and more signs of political instability. International and non-international armed conflicts, political regimes using illegal violence (mostly illegitimate), tensions in international relations are elements of this instability. One of the consequences of this instability is a significant increase in human rights violations.

***Keywords:*** *human rights, International Criminal Court, international criminal law, international security, crime of rape*

## Giriş

Müasir dünyada insan hüquqları ən yüksək dəyərlərdən biri kimi tanınır. İnsan hüquqlarının müdafiəsi üzrə beynəlxalq sistem beynəlxalq hüququn adət və normalarında təsbit olunmuş insan hüquq və azadlıqlarına riayət olunmasını təmin edən hüquqi və institusional mexanizmlərin məcmusudur.

"Bəşəriyyətə qarşı cinayətlər" anlayışı XIX-cu əsrin ortalarında yaranmışdır. Belə cinayətlərin ilk nümunələri Birinci Dünya müharibəsinin sonunda görünsə də, 1945-ci ildə Nürnberq Tribunal Nizamnaməsinə qədər beynəlxalq sənəddə toplanmamışdı. Nürnberq Xartiyasında müəyyən edildiyi kimi, Bəşəriyyətə Qarşı Cinayətlər sonrakı illərdə BMT Baş Assambleyası tərəfindən beynəlxalq hüququn bir hissəsi kimi tanındı və bir çox sonrakı beynəlxalq sənədlərdə, o cümlədən keçmiş Yuqoslaviya və Ruanda üzrə Beynəlxalq Cinayət Tribunallarının Nizamnaməsində əhatə olundu. Lakin 17 iyul 1998-ci ildə BCMni təsis edən Roma Statutu qəbul ediləndə ilk dəfə olaraq beynəlxalq müqavilədə Bəşəriyyətə Qarşı Cinayətlər müəyyən edilmişdir (Werle, 2014: 96).

Nizamnamə öz yurisdiksiyasına görə insanlığa qarşı cinayətlərin üç formasını adi cinayətlərdən fərqləndirir:

Birincisi, insanlığa qarşı cinayətlər başlığı altında törədilən qətl kimi cinayət əməlləri "genişmiqyaslı və sistemli hücumun tərkib hissəsi kimi" törədilməlidir. Lakin buradakı hücum sözü hərbi hücum kimi qəbul edilməməlidir. O, həmçinin deportasiya və məcburi köçkünlük kimi qanunvericilik və inzibati tədbirləri əhatə edə bilər.

İkincisi, hərəkətlər "mülki əhaliyə qarşı yönəldilməlidir". İnsanlığa qarşı cinayət səviyyəsinə yüksəlməyən, təkbaşına, təcrid olunmuş, ayrı-ayrı və ya təsadüfi əməllər belə cinayət məsuliyyətinə cəlb edilə bilməz. Mülki əhali arasında çox az sayda əsgər olması onları mülki xarakterdən məhrum etməyə kifayət etmir.

Üçüncüsü, hərəkətlər "dövlətin və ya təşkilatın siyasətinə" uyğun olaraq həyata keçirilməlidir. Beləliklə, cinayətlər dövlət məmurları və ya onların nəzarəti altında olan şəxslər tərəfindən irəli sürülən hərəkətlər və ya onların ittifaqı və ya razılığı ilə törədilə bilər (Cohn, Cones, 2000).

"İnsanlıq əleyhinə cinayətlər" anlayışı beynəlxalq cinayət hüququnun intensiv inkişafı ilə xeyli genişlənmişdir. BCM-in Əsasnaməsinin 7-ci maddəsində insanlıq əleyhinə göstərilən cinayətlər (15 cinayət əməli) olduqca müxtəlifdir

Eyni zamanda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 105-ci maddəsində öz əksini belə tapmışdır: "Bu fəslin 105-113-cü maddələrində nəzərdə tutulan istər sülh, istərsə də müharibə zamanı hər hansı mülki əhaliyə qarşı genişmiqyaslı və ya sistematik hücumların tərkib hissəsi olaraq qəsdən törədilmiş əməllər insanlıq əleyhinə cinayətlər hesab edilir" (Səməndərov, 2019: 52-78).

Təcavüz cinayəti ən ağır beynəlxalq cinayət əməli olmaqla bir çox cinayət qəsd obyektlərinə malikdir. Bu obyektlərdən ən bariz olanı təcavüz aktına məruz qalmış dövlətin dövlət suverenliyi və ərazi bütövlüyüdür. Bununla belə, bu məqalənin kontekstində praktiki olaraq insan hüquqlarının bütün toplusu təcavüz cinayətinin obyekti kimi tanınmalıdır (Hüseynov, 2000: 22-58). V.A.Kartaşkin təcavüzü demək olar ki, bütün fundamental insan hüquq və azadlıqlarının ən ciddi pozulması adlandırıb. Xüsusilə, təcavüz cinayəti "üçüncü nəslin hüquqları" adlanan həmrəylik hüququnu pozur. Əlavə edək ki, təcavüz cinayəti təkcə özlüyündə əsas insan hüquqlarını pozmur, həm də digər beynəlxalq cinayətlərin – soyqırım, insanlıq əleyhinə cinayətlər və müharibə cinayətlərinin törədilməsinə münbit şərait yaradır.

Bir dövlətin başqa dövlətin ərazisinə qarşı hərbi güc tətbiq etməsinin beynəlxalq hüquq müstəvisindən kənara çıxan, lakin eyni zamanda təcavüz aktının klassik anlayışına tam uyğun gəlməyən müxtəlif variantlarını qeyd etmək lazımdır. Bu mümkün variantlar arasında aşağıdakıları vurğulamağa dəyər:

– terror təşkilatlarının başqa dövlətin ərazisində yerləşən bazalarına və digər infrastruktur obyektlərinə müvafiq dövlət tərəfindən məqsədyönlü zərbələr endirilməsi. Müvafiq dövlətin bu hərəkətlərinə müəyyən dərəcədə (daha doğrusu, beynəlxalq hüquqi aspektdə deyil, siyasi

müstəvidə) haqq qazandırmaq olar, o halda ki, bu dövlət başqa bir dövlətin ərazisində yerləşən terror təşkilatları tərəfindən hücuma məruz qalır, onların fəaliyyətini dayandırmaq gücü çatmır;

– müvafiq dövlətin öz silahlı qüvvələrini başqa dövlətin silahlı qüvvələrinə qarşı qabaqlayıcı müdafiə qaydasında istifadə etməsi. Müasir beynəlxalq hüquqşünasların əksəriyyəti qabaqlayıcı müdafiənin (yaxınlaşan təcavüz aktının qarşısını almaq üçün zərbələrin endirilməsi) yolverilməzliyi və qanunsuzluğu ilə razılaşırlar;

– müvafiq dövlətin öz silahlı qüvvələrinin başqa dövlətin ərazisində humanitar müdaxilə kimi istifadə etməsi. "Humanitar müdaxilə" anlayışının hüquqi tərifi yoxdur. Beynəlxalq hüquq elmində bu anlayışa kifayət qədər oxşar (nüansları ilə fərqlənsə də) təriflər verilmişdir. Belə ki, V.A.Kartaşkin humanitar müdaxilənin mahiyyətini bir dövlətin (bir qrup dövlətin) "xarici ərazidə olan vətəndaşlarını xilas etmək və ya siyasi, irqi, dini və digər sahələrdə baş verən kütləvi və kobud insan hüquqları pozuntularını dayandırmaq üçün" silahlı qüvvədən istifadə etməsində görür (Akhavan, 2003: 27-48).

İlk dəfə olaraq Nürnberq Tribunalının Nizamnaməsində işğalçı müharibənin cinayəti (beynəlxalq cinayət hüququ mənasında) tanınıb. Müasir "təcavüz cinayəti" anlayışı bu beynəlxalq hüquqi aktda "sülhə qarşı cinayət" kimi qiymətləndirilmiş və "beynəlxalq müqavilələri, sazişləri və ya təminatları pozmaqla işğalçı müharibənin və ya müharibənin planlaşdırılması, hazırlanması, başlanması və ya aparılmasını ehtiva edir. Müharibədən sonrakı dövrdə beynəlxalq mübahisələrin sülh yolu ilə həlli prinsipi ilk növbədə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində yazılı şəkildə möhkəmlənməsinə baxmayaraq, beynəlxalq ictimai hüququn jus cogens-ə çevrilir (Abbasov, 2014: 22-27).

Digər mühüm beynəlxalq hüquqi prinsip güc tətbiq etməkdən və ya güc tətbiq etməklə hədələməkdən çəkinmək prinsipinə çevrilmişdir. BMT-nin əsas məqsədlərindən biri kimi Təşkilatın Nizamnaməsinin 1-ci maddəsində digər məsələlərlə yanaşı "təcavüz aktlarının qarşısının alınması" üçün tədbirlərin görülməsi nəzərdə tutur.

Təcavüz anlayışının məzmunu uzun müddət beynəlxalq hüquqda ifadə edilməmişdir. Bu boşluq BMT Baş Assambleyasının 1974-cü il dekabrın 14-də XXIX sessiyasında qəbul edilmiş 3314 saylı Qətnamə ilə doldurulmuşdur. Daha sonra BCM-in Roma Əsasnaməsində təsbit edilmiş təcavüz cinayətinin əsasını məhz bu tərif təşkil etmişdir (Engster, Daniel, 2004: 113-135).

Beynəlxalq Cinayət Məhkəməsinin Roma Əsasnaməsi ilk dəfə beynəlxalq cinayət hüququnda "təcavüz cinayəti" anlayışını kodlaşdırmışdır. Təcavüz cinayətinin anlayışı və məzmunu Roma Əsasnaməsinin 8-ci maddəsində verilmişdir. Eyni zamanda, bu maddədə verilmiş və sözügedən beynəlxalq cinayətin aktus reusunu təşkil edən təcavüz aktının məzmunu BMT Baş Assambleyasının yuxarıda qeyd olunan Qətnaməsinin məzmununu praktiki olaraq təkrar etmişdir (Friedmann, 1964: 209-232).

Roma Əsasnaməsinin 8-ci maddəsində deyilir:

"1. Bu Əsasnamənin məqsədləri üçün "təcavüz cinayəti" özünün xarakterinə, ağırlıq dərəcəsinə və miqyasına görə BMT Nizamnaməsinin açıq-aşkar pozuntusunu təşkil edən, dövlətdə siyasi və hərbi fəaliyyəti istiqamətləndirən və ya onun üzərində effektiv nəzarət həyata keçirən şəxs tərəfindən təcavüz aktının planlaşdırılmasını, hazırlanmasını, başlanmasını və ya icrasını ifadə edir.

2. 1-ci bəndin məqsədləri üçün "təcavüz aktı" dövlətin silahlı qüvvələrinin digər dövlətin suverenliyinə, ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı və ya Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə zidd olan hər hansı digər şəkildə istifadə edilməsi deməkdir (Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 2002). Müharibə elan edilməsindən asılı olmayaraq, aşağıdakı hərəkətlərdən hər hansı biri Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 14 dekabr 1974-cü il tarixli 3314 (XXIX) saylı Qətnaməsinə uyğun olacaq:

a) bir dövlətin silahlı qüvvələri tərəfindən başqa bir dövlətin ərazisinə basqın və ya hücum və ya bu cür işğal və ya hücum nəticəsində yaranan hər hansı müvəqqəti hərbi işğal və ya başqa bir dövlətin ərazisinə və ya onun bir hissəsinə güc yolu ilə ilhaq edilməsi;

b) bir dövlətin silahlı qüvvələri tərəfindən başqa dövlətin ərazisini bombalaması və ya dövlətin başqa dövlətin ərazisinə qarşı hər hansı silahdan istifadə etməsi;

c) başqa dövlətin silahlı qüvvələri tərəfindən dövlətin limanlarının və ya sahillərinin blokadaya alınması;

d) bir dövlətin silahlı qüvvələrinin başqa dövlətin quru, dəniz və ya hava qüvvələrinə və ya dəniz və hava donanmasına hücumu;

e) bir dövlətin digər dövlətin ərazisində yerləşən silahlı qüvvələrinin müqavilədə nəzərdə tutulmuş şərtləri pozmaqla, qəbul edən dövlətlə razılaşdırılaraq istifadə edilməsi və ya müqavilə ləğv edildikdən sonra onların bu ərazidə mövcudluğunun hər hansı şəkildə davam etdirilməsi;

f) bir dövlətin başqa dövlətin sərəncamına verdiyi ərazisinin üçüncü dövlətə qarşı təcavüz aktının törədilməsi üçün həmin digər dövlət tərəfindən istifadə edilməsinə icazə verən akt;

g) başqa dövlətə qarşı yuxarıda sadalanan hərəkətlərə və ya onun bu işlərdə əhəmiyyətli iştirakına bərabər olan ciddi xarakterli silahlı qüvvələr hərəkətləri həyata keçirən silahlı dəstələrin, qrupların, qeyri-qanuni qüvvələrin və ya muzdluların dövlət tərəfindən və ya onun adından göndərilməsi" (Allahverdiyev, Əlövsət, 2017: 248).

Təcavüz cinayətinin obyektiv tərəfi təcavüz cinayətinin yalnız cinayət əməlləri formasında törədilməsini nəzərdə tutur (bu cinayət əməlinin xüsusiyyətlərinə görə cinayət hərəkətsizliyi istisna olunur). Qeyd etmək lazımdır ki, beynəlxalq hüquq nəzəriyyəsi təcavüzün iki növünü – birbaşa və dolayı təcavüzü ayırır. Birbaşa təcavüz bu və ya digər dövlətin silahlı qüvvələri tərəfindən birbaşa həyata keçirilir. Dolayı təcavüz formal olaraq hər hansı bir dövlətin silahlı qüvvələrinə daxil olmayan (və ya mənsubiyyətini gizlədən), lakin eyni zamanda müəyyən dövlət tərəfindən təşkil edilən və ya onun adından hərəkət edən silahlı dəstələr, qruplar, nizamsız qüvvələr və ya muzdlular tərəfindən həyata keçirilir. Bununla belə, istər birbaşa, istərsə də dolayı təcavüz halında, sözügedən cinayətin "tətikləmə mexanizmini" müəyyən şəxslərin başçılıq etdiyi və nəzarət etdiyi müəyyən dövlət tərəfindən həyata keçirildiyi (bu o deməkdir ki, həmin şəxslərin beynəlxalq cinayət məsuliyyəti daşımaları nəzərdə tutulur) göz qabağındadır (Dormann, 1999).

Yuxarıdakıları ümumiləşdirərək, təcavüz cinayətinin aşağıdakı əsas əlamətlərini və bu cinayət əməlinin törədilməsinə görə beynəlxalq cinayət məsuliyyətini göstərmək olar:

– Beynəlxalq Cinayət Məhkəməsinin Roma Əsasnaməsi ilk dəfə beynəlxalq cinayət hüququnda "təcavüz cinayəti" anlayışını kodlaşdırmışdır.

– Əsanamə BMT Təhlükəsizlik Şurasının müvafiq qərarı olmadığı halda, Məhkəmənin təcavüz cinayəti (Roma Əsanaməsinin iştirakçısı olan dövlətlərə qarşı) üzrə yurisdiksiyasını həyata keçirməsi imkanını nəzərdə tutur. Bu hal BCM-ə müvafiq dövlətin və onun vəzifəli şəxslərinin (xüsusilə də Məhkəmənin yurisdiksiyasına aid olduğu hallarda) təcavüz aktının (və müvafiq olaraq, təcavüz cinayətinin) əlamətlərinin olub-olmadığını müəyyən etmək üçün geniş diskresiya səlahiyyətləri verir.

– Təcavüz cinayətinin törədilməsində təqsirli olan şəxsin təqsirinin ağırlığı obyektiv olaraq təcavüz aktının həyata keçirilməsi zamanı beynəlxalq humanitar hüququn və beynəlxalq insan hüquqlarının prinsip və normalarına əməl olunmasından asılı olacaqdır (İbayev, 2001: 124).

## Nəticə

Son zamanlar dövlətlər getdikcə daha çox siyasi qeyri-sabitlik əlamətləri ilə üzləşirlər. Beynəlxalq və lokal silahlı münaqişələr, qeyri-qanuni zorakılıqdan istifadə edən siyasi rejimlər (əsasən qeyri-legitim), beynəlxalq münasibətlərdəki gərginlik bu qeyri-sabitliyin elementləridir. Bu qeyri-sabitliyin nəticələrindən biri də insan hüquqlarının pozulması hallarının xeyli artmasıdır.

Bu hal mövcud beynəlxalq təhlükəsizlik sisteminə əlavə tələblər qoyur, onun təsisatlarının insan hüquqlarının pozulmasına görə fiziki şəxslərin beynəlxalq cinayət məsuliyyətinin yaxşı işləyən mexanizmi ilə gücləndirilməsini nəzərdə tutur. Belə bir mexanizm təkcə törədilmiş beynəlxalq cinayətlərə görə cəzasızlığın aradan qaldırılmasını (və ya ən azı minimuma endirilməsini) deyil, həm də sülhyaratma və münaqişədən sonrakı sülh quruculuğu prosesində dolayı iştirakını (qarşıdan gələn və qabaqlayıcı amil kimi) nəzərdə tutur. Təbii ki, belə mexanizm beynəlxalq cinayət ədalətinin daimi orqanının mövcudluğunda öz institusional ifadəsini tapmalıdır. Bunların icra edilməsi üçün yaradılan hüquqi orqan BCM-dir.

BCM-in qabaqlayıcı rolu bu beynəlxalq cinayət ədaləti orqanının əsas funksiyasını – fundamental insan hüquqlarını pozan beynəlxalq cinayət əməlləri ilə bağlı ədalət mühakiməsinin həyata keçirilməsini ört-basdır etmir, əksinə tamamlayır. İstər beynəlxalq cinayətin qarşısının alınması, istərsə də beynəlxalq cinayətlə bağlı ədalətin bərqərar olması bir sıra məqsədlərə xidmət edir – fundamental insan hüquqlarının qorunmasına və nəticədə beynəlxalq təhlükəsizliyin və mövcud dünya nizamının möhkəmləndirilməsinə.

Bu məqsədə nail olmaq insan hüquqlarının cinayətkar pozuntularına görə şəxslərin beynəlxalq cinayət məsuliyyətinin təmin edilməsi zərurəti ilə dövlətin suverenliyi prinsipi arasında tarazlığın yaradılmasını tələb edir.

## Ədəbiyyat

1. Werle, G. (2014). Principles of international criminal law: textbook. Oxford University Press, 696 p.
2. Cohn, R.W.D., Cones. (2000). The practice of the International Criminal Tribunals for the fomer Yugoslavia and Rwanda. Transnational Publishers, Inc. Ardsley, New-York.
3. Səməndərov, F.Y. (2019). Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin kommentariyası. Bakı: Hüquq.
4. Hüseynov, L.H. (2000). Beynəlxalq hüquq. Bakı: Hüquq ədəbiyyatı.
5. Akhavan, P. (2003). The Origin and Evolution of Crimes against Humanity. In: Human Rights and Criminal Justice for the Downtrodden.
6. Abbasov, X.M. (2014). Ruanda Beynəlxalq Cinayət Tribunalı və soyqırımdan sonra Ruandada vəziyyət. Bakı: "Qanun". № 2, s.22-27.
7. Engster, D. (2004). "Care Ethics and Natural Law Theory: Toward an Institutional Political Theory of Caring." The Journal of Politics 66(1):113-135.
8. Friedmann, W. (1964). The Changing Structure of International Law, ed. by Wolfgang Friedmann. N.Y.: Columbia University Press, 238 p.
9. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. (2002). Bakı: Qanun.
10. Allahverdiyev, Ə. (2017). Beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlər. Bakı: Elm, 396 s.
11. Dormann, K. (1999). "The first and second sessions of the Preparatory Commission for the International Criminal Court", in YIHL, Vol. 2.
12. İbayev, V.İ. (2001). Beynəlxalq humanitar hüquq. Bakı: Hüquq ədəbiyyatı.

Göndərildi: 02.03.2023 Qəbul edildi: 13.05.2023

DOI: https://doi.org/10.36719/2663-4619/91/48-53

**Bilnurə İbadova**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
ibadova.bilnura.2201@atmu.edu.az

# AZƏRBAYCANDA FESTİVAL TURİZMİNİN PROBLEMLƏRİ

**Xülasə**

Azərbaycan turizm sahəsində sürətlə öyrənir və təcrübə toplayır. Dövlət tədbirləri nəticəsində ölkədə müasir mehmanxanalar və turizm infrastrukturu yaradılmış, turizm agentliklərinin geniş şəbəkəsi formalaşmış, informasiya və reklam strukturları yaradılmışdır. Azərbaycanın ən mənzərəli və münbit rayonlarından keçən çoxsaylı gəzinti yolları hazırlanmış və sınaqdan keçirilmişdir. Azərbaycanda tədbir turizmini inkişaf etdirmək üçün böyük imkanlar var. Ölçüsündən və populyarlığından asılı olaraq, musiqi festivalı hər yerdə yüzlərlə, minlərlə iştirakçı toplaya bilər. Onların hamısı eyni səbəbdən, musiqidən həzz almaq üçün oradadırlar.

***Açar sözlər:*** *turizm, turizm istiqamətləri, Azərbaycanda turizm, turizmin inkişafı, turizm ehtiyatları, musiqi festivalları, dövlət tənzimlənməsi, Azərbaycan Turizm İnstitutu*

**Bilnura Ibadova**
Azerbaijan Tourism and Management University
master student
ibadova.bilnura.2201@atmu.edu.az

## Problems of festival tourism in Azerbaijan

**Abstract**

Azerbaijan has been learning quickly and gaining experience in the field of tourism. Due to the state measures in the country modern hotels and tourism infrastructure have been created, an extensive network of travel agencies has been formed, information and advertising structures have been set up; numerous hiking trails in Azerbaijan that run through the most picturesque and fertile regions have been developed and tested. There are great opportunities to develop event tourism in Azerbaijan. Depending on its size and popularity, a music festival can gather anywhere from hundreds to thousands of attendees. They are all there for the same reason, to enjoy the music.

***Keywords:*** *tourism, tourist destinations, tourism in Azerbaijan, tourism development, tourist resources, music festivals, state regulation, Azerbaijan Institute of Tourism*

## Giriş

Əgər bir neçə il əvvəl turizm ən geniş yayılmış və kütləvi istirahət formalarından biri hesab olunurdusa, indi bu sahə daha qlobal xarakter alıb. Beləliklə, turizm hazırda zəngin iqtisadi artım mənbəyi hesab olunur. Turizmin inkişafındakı müasir meyllər onun həm bütövlükdə dünya iqtisadiyyatına, həm də ayrı-ayrı ölkələrin iqtisadiyyatına təsirinin artdığını göstərir. Turizm milli iqtisadiyyatın bir sahəsidir. Onun fəaliyyəti bir tərəfdən əhalinin səyahət və istirahət zamanı yaranan spesifik tələbatlarının ödənilməsinə yönəldilir, digər tərəfdən isə regionun iqtisadi artımını təmin edə bilir.

Turizmin inkişafına dair 2002-2005 və 2010-2014-cü illər üçün Dövlət Proqramı var. Bu proqrama əsasən, bir sıra günbəz-tarixi abidələrin bərpası nəzərdə tutulur. Hər il sentyabrın 29-da Azərbaycanda "Ümumdünya Turizm Günü" qeyd olunur. Hər il daxili turizm sərgi - yarmarkaları, konfranslar keçirilir. Turizm sahəsində problemlər müzakirə olunur. Ölkənin turizm potensialının beynəlxalq miqyasda tanınması məqsədilə KİV və turizm şirkətlərinin nümayəndələri üçün səfalı təbiət ərazilərində mütəmadi olaraq məlumat turları keçirilir. Nəticədə mehmanxana kompleksləri

ilə turizm şirkətləri arasında müqavilələr bağlanır. Bakı, Gəncə, Xaçmaz, Quba, Şamaxı, Lənkəran, Şəki, Zaqatala və İsmayıllıda "Turizm Destinasiya Mərkəzləri" fəaliyyət göstərir (Soltanova, 2015).

Azərbaycanda turizmin inkişafı üçün böyük potensial və imkanlar var. Lakin problemləri də qeyd etmək lazımdır. Azərbaycanda turizmin potensial inkişafını göstərir. Azərbaycanın regionlarında əsas görməli yerləri və gizli inciləri təsvir edir. Bölgələrdəki tarixi - mədəni turizm abidələri yerli və xarici turistlərin diqqətinə daha çox layiqdir. Azərbaycanın bütün bölgələrində kifayət qədər mehmanxana, turizm obyektləri, abidələr kimi infrastruktur var. Hökumət və idarələr turistləri bölgəyə cəlb etmək üçün düzgün reklam üsulları yaratmalıdırlar. Digər tərəfdən, aşağı büdcəli yaşayış variantları, investisiyaların olmaması kimi bir çox problemlər var.

Bölgələrdəki tarixi abidələrin konservasiyası bu gün bütün ölkə üzrə əsas problemdir. Bərpa və mühafizə turizm departamentlərinin ilk sıralarında olmalıdır. Azərbaycanın regionlarında dayanıqlı turizmin yaradılması təkcə ekoloji turizmin yaradılması üçün deyil, həm də tarixi abidələrin qorunması ilə bağlı maarifləndirmənin artırılması üçün mühüm əhəmiyyət kəsb edir. Bu cür resurslar regionlarda yerli əhali üçün əsas turizm məhsulları və gəlir mənbəyidir (Əsgərov, Bilalov, Gülalıyev, 2011).

Turizm nəqliyyat, yerləşdirmə, yemək və içmə müəssisələri, pərakəndə satış mağazaları, əyləncə biznesləri və evdən uzaqda səyahət edən şəxslər və ya qruplar üçün göstərilən digər qonaqpərvərlik xidmətlərindən ibarətdir. Səyahət təcrübəsi təqdim edən fəaliyyətlər, xidmətlər və sənayelər toplusudur. Mədəni turizm, səyahətçinin ölkə və ya bölgənin mədəniyyəti, xüsusən də həmin coğrafi ərazilərdə yaşayan insanların həyat tərzi, həmin insanların tarixi, sənəti, memarlığı, dinləri və onların mədəniyyətinin formalaşmasına kömək edən digər elementlərlə əlaqəli turizmin alt hissəsidir. Tarixi və ya irs turizmi bir yerin tarixini və irsini araşdırmaq məqsədi ilə səyahət etmək deməkdir. Tanınmış tarixi memarlığın sadə görməli yerlərini gəzmək, artefaktlar, incəsənət və ədəbi qalıqlar vasitəsilə keçmişi sənədləşdirən yerli muzeylərə baş çəkmək və ya hətta onların mənşəyində orijinal tarixi reseptlərdən nümunə götürmək kimi qəribə bir şey demək ola bilər. Azərbaycanın hər yerində təkcə ölkə vətəndaşlarının deyil. Həm də beynəlxalq şəxslərin diqqətini cəlb edən maraqlı yerlər var. Azərbaycan Asiya ilə Avropa arasında əsas ticarət mərkəzlərindən biri idi. Azərbaycan xalqının memarlığına, mədəniyyətinə təsir etdi (Bilalov, 2006).

**Milli bayramlar və festivallar.**

Azərbaycanda tədbir turizmini inkişaf etdirmək üçün böyük imkanlar var. Xüsusilə Novruz bayramının Azərbaycan tarixində və turizmində həlledici rolu var. Beləliklə, Novruz martın 4-5 günü ərzində ölkə üzrə bütün fəaliyyətləri genişləndirməyə imkan verir. Novruz Bayramı günlərində əylənmək, qısamüddətli səyahətlər təşkil etmək mümkündür. Qeyd edək ki, Novruz UNESCO-nun qeyri-maddi irsinə daxil edilib.

Bundan əlavə, Azərbaycanın bölgələrində müxtəlif növ festivallar keçirilir. Belə festivallara misal olaraq Göyçayda "Nar" festivalını, Lənkəranda "Çay" və "Yerli mətbəx" bayramlarını, Şəkidə "İpək" bayramlarını və s.

Azərbaycanın zəngin milli mətbəxi regionda turizmin inkişafında mühüm rol oynayır. Azərbaycanın yeməkləri və içkiləri özünəməxsus və bir-birindən fərqlidir. Xüsusilə Lənkəran, Şəki-Zaqatala bölgələri mətbəxinə görə məşhurdur.

Yerli sənət və sənətkarlıq bölgələrin əsas cazibədarlığıdır və yerli icma üçün mühüm gəlir rolunu oynayır. Turizm həmçinin ənənəvi sənət və sənətkarlıq məhsullarının inkişafına kömək edə bilər. Ənənəvi rəqslər, musiqi və teatr turistlər üçün maraqlı ola bilər. Bu vəziyyətdə rayonlarda mədəni-kütləvi tədbirlər üçün müəyyən binalar tikilməlidir (Bilalov, Gülalıyev, 2015).

**Ənənəvi musiqi festivallarının əhəmiyyəti mədəni turizm məhsulları.**

Konseptual nöqteyi-nəzərdən mədəni turizm bir və ya bir neçə mədəni elementi özündə cəmləşdirir, mərkəzi komponenti təşkil edir və səfər təcrübəsini tamamlayır. Mədəniyyət turizminə bu geniş baxışın həm bazar, həm də istehlak ölçüləri var. Onun qorunmasına yönəlmiş irsin təşviqi strategiyalarını artırmaq üçün yeni dinamikalar yaradır. Burada təqdim olunan konseptual təriflər

Mədəni Marşrutlar və Mədəni Marşrutlar kimi mədəni turizm məhsullarının yaradılması üçün tələb olunan uzun prosesi izah edəcək (Abadov, 2014).

Birincisi, festivalın tərifinə gəlməkdən ibarət idi. Bunu etmək kifayət qədər asan görünə bilər. Lakin mübahisələrə səbəb ola bilər. Festivalın geniş tərifini vermək çətin deyil: zaman və məkan baxımından məhdud olan, müəyyən bir bədii layihə hazırlayan və müəyyən fasilələrlə baş verən hadisə. Bu meyarlar festival anlayışının demək olar ki, universal konsensusunu təmsil edir. Ancaq xüsusilə iki sahə çətinlik yaratdı. Festivalların sayının artması tədbir sənayesində böyük dəyişiklikləri müşayiət edir. Bu kontekstdə yuxarıdakı tərif daxilindəki terminlərin hər biri indi mübahisəlidir (6).

Təhlillər göstərir ki, festivalların mövsüm tarixlərindən kənar fəaliyyətlər təklif etdiyini nəzərə alsaq, festivalların müvəqqəti həddi nisbi olmuşdur. Tamaşaların qeyri-mərkəzləşdirilməsi strategiyalarının inkişafını müşahidə edərkən məkan məhdudiyyəti də öz mənasını bir qədər itirməyə meyllidir və 36 müəyyən festival bir neçə saytda keçirilə, saytdan sayta səyahət edə və ya hətta digər bölgələrdə və ya ölkələrdə təkrarlana bilər. Eynilə, bədii layihənin konsepsiyası da müasir təcrübələrlə dəyişdirilir. Festivalın yarandığı bədii niş sonradan tədbirdə iştirak edənlərin çoxu arasında sadəcə bir istinad nöqtəsi ola bilər, çünki festivallar hibrid proqramlar çərçivəsində müxtəlif estetik registrləri bir araya gətirərək özlərini yeniləməyə çalışırlar. Beləliklə, bədii layihə var, lakin o, həmişə müəyyən bir üsluba bağlı deyil. Festivalın dövriliyinə gəldikdə, tənəzzül dövründə müəyyən sektorlara və ya ölkələrə təsir edən ölüm nisbəti ilə yanaşı, onun bir ildən iki ilə qədər dəyişə biləcəyini qeyd edirik. Bunlar festivalın klassik tərifinə qarşı edilə bilən əsas tənqidlərdir (9).

Bu meyarların hər bir festivalı nəzərə almaq üçün kifayət qədər çevikliklə tətbiq edilməli olduğunu və məhdudlaşdırıcı və ya geniş şərh ola biləcəyini nəzərə alaraq qarşılana bilər. Bundan sonra biz müəyyən hadisələri bu sektorda iştirakçı kimi saxlamağa imkan verən göstəricilər hazırlamalıyıq. Bəzi ixtiyari məhdudiyyətlər qoymalı olsaq da həqiqətən bizim yanaşmamız olub və məqsəd mümkün qədər müxtəlif festival formatlarını təmsil edən bir nümunə yaratmaq olub.

Məqsədlər üçün biz göstərilən meyarlara cavab verməklə yanaşı, 2011-ci ilə qədər ən azı iki mövsüm təşkil etmiş hadisələri saxlamağı seçmişik. Müəyyən dərəcədə dövriliyi təklif edirik. Üstəlik, ən azı iki gün ərzində ən azı beş konsert planlaşdırmış olmalıdırlar. Bu bədii proqram seçimləri üzərində müəyyən miqyasda fikirləşməni nəzərdə tutur.

Yalnız musiqi, lakin musiqinin bütün formaları İkinci seçim, tədqiqatın musiqi sahəsi ilə məhdudlaşdırılmasını nəzərdə tuturdu. Müqayisəli təhlillərdə çoxlu fərqlər nəticələrin etibarlılığını zəiflədə bilər, çünki empirik nəticələri izah edən amilləri müəyyən etmək artıq mümkün olmur. Beləliklə, ilk qərar, idarəolunmaz genişlik nümunəsinin qarşısını almaq üçün Pandoranın rəqs, teatr və ya küçə tamaşaları qutusunu açmamaq idi. Bu qərarı iki cəhətdən müsbət əsaslandırmaq olar. Musiqi Avropanın ən mühüm festival fəaliyyətidir. Nəticə etibarilə, bu sektor mədəniyyətin daha geniş festivallaşmasının ən çox təmsilçisidir. Musiqi həm də təhlil və təsnif edilə bilən müxtəlifliyi baxımından xüsusilə maraqlıdır. Klassik musiqi, dünya musiqisi, caz, rok müxtəlif sosial sferalara uyğun gəlir və müxtəlif yollarla dövlət siyasəti ilə kəsişir. Buna görə də bir neçə fərqli, lakin üst-üstə düşən **festival dünyalarının** olub-olmadığını nəzərə almaq vacib idi. Beləliklə, bu tədqiqat üçün seçim "yalnız musiqi, lakin musiqinin bütün mümkün formaları"dır. Beləliklə, milli nümunələrin hər biri bu daxili müxtəliflik prinsipinin bir funksiyası kimi qurulmuşdur, bu nöqtəyə sonra qayıdacağımızdır.

Musiqi çox müxtəlif səviyyələrdə işləyir. Ancaq musiqinin maraqlı tərəfi odur ki, ətrafa baxmaq və musiqinin hər yerdə olduğunu başa düşmək gülməlidir. Hər hansı bir səbəbdən olmasaydı, hər yerdə olmazdı. Liftlərdə də var, mağazalarda da vardır. Əslində çox musiqili olmayan insanlar üçün musiqi var.

Ənənəvi musiqinin kökləri adi zəhmətkeş insanlardadır. Nadir hallarda zadəganların musiqisi kimi təsvir edilən bu musiqi, XX-ci əsrdən əvvəl bir çoxu savadsız olan proletariata aiddir. Bu da onun şifahi ənənəyə etibarını izah edir. Xalq musiqisi xalqın hekayələrini danışır, onların tarixi variantını verir.

Qəbələ Beynəlxalq Musiqi Festivalı 2009-cu ildən başlayaraq Azərbaycanın Qəbələ şəhərində hər il yayda keçirilən klassik musiqi festivalıdır. Festival Heydər Əliyev Fondunun dəstəyi, Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli və dirijor Dmitri Yablonskinin təşəbbüsü ilə təşkil olunur. Bu festivalda musiqiçilər açıq havada çıxış edirlər. İştirakçılar arasında Avropa, ABŞ və İsrail musiqiçiləri, eləcə də keçmiş SSRİ respublikalarının musiqiçiləri var idi. 2009-cu ildə musiqi festivalı ilə eyni vaxtda gənc pianoçuların müsabiqəsi keçirilmişdir. Klassik musiqi konsertləri ilə yanaşı, caz və muğam axşamları da keçirilib. 2010-cu ildə festival avqust ayında keçirildi. Festivalın açılış mərasimində UNESCO-nun baş direktoru İrina Bokova iştirak etmişdir. Festival 2009-cu ildə olduğu kimi Üzeyir Hacıbəyovun "Koroğlu" operasından uvertüranın ifası ilə başlayıb. Festivalın açılış mərasimi Kral Filarmoniya Orkestrinə həvalə olunub (7).

Beynəlxalq Muğam Dünyası Festivalı Azərbaycan muğam musiqisinin illik musiqi festivalıdır.

İlk festival Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2009-cu il martın 18-25-də Bakıda keçirilib. Martın 20-də Azərbaycan Beynəlxalq Muğam Mərkəzində festivalın rəsmi açılış mərasimi olub. Festival çərçivəsində beynəlxalq elmi simpozium, muğam ifaçılarının beynəlxalq müsabiqəsi, çoxsaylı muğam operaları, simfonik və klassik muğam konsertləri keçirilib. Festivala 2009-cu il martın 25-də Bakıda, Heydər Əliyev Sarayında keçirilən qala-konsert yekun vuruldu (8).

Bakı Beynəlxalq Caz Festivalı saksofonçu və Bakı sakini Rain Sultanovun təşkilatçılığı ilə hər il keçirilən caz tədbiridir. Festivalın məqsədi Azərbaycanın caza olan uzunmüddətli bağlılığını nümayiş etdirməkdir, bu əlaqə 1950-1960-cı illərdə sovet hakimiyyəti tərəfindən cazın qadağan edildiyi zaman ölkədə yaradılmışdır. Festivala Gürcüstan, Portuqaliya, İtaliya, İsrail, ABŞ, Almaniya, Kanada və Rusiyadan musiqiçilər qatılıb.

2005-ci ilin aprelində ilk tədbirdə çıxış edən aktyorlar arasında Co Zavinul Sindikatı, Almaniyadan Kristof Busse Trio və Rusiyadan Yakov Okun Kvarteti var idi. On dörd gün davam edən tədbirdə azərbaycanlı caz musiqiçiləri Rafiq Babayev və onun Qaya kvarteti və pianoçu Vaqif Mustafa Zadənin çıxışı olub. Birinci festivalın sonunda festivalın illik tədbirə çevriləcəyi elan edildi. 2006-cı ildə festival 19-27 iyun tarixlərində baş tutdu və Herbie Hancock və Al Jarreau başçılıq etdilər.

Eurovision Mahnı Müsabiqəsi 2012 illik Eurovision Mahnı Müsabiqəsinin 57-ci buraxılışı idi. Ell və Nikki 2011-ci ildə Almaniyanın Düsseldorf şəhərində keçirilən müsabiqədə "Running Scared" mahnısı ilə qalib gəldikdən sonra Azərbaycanda, Bakıda baş tutub. Müsabiqə yeni tikilmiş "Baku Crystal Hall"da keçirilib, yarımfinallar 22 və 24 may 2012-ci il tarixlərində, daha sonra isə final mərhələsi 26 may 2012-ci ildə keçirilib (11).

Ölçüsündən və populyarlığından asılı olaraq, musiqi festivalı hər yerdə yüzlərlə, minlərlə iştirakçı toplaya bilər. Onların hamısı eyni səbəbdən - musiqidən həzz almaq üçün oradadırlar. Bir festivala getdiyiniz zaman hər gün ən azı bir yeni insanla tanış olmağa çalışın. Bu barədə düşünsəniz, artıq onlarla ortaq bir şeyiniz var. Yəqin ki, musiqidə oxşar zövqləriniz var! Heç vaxt bilmirsən, yeni ən yaxşı dostunuzla tanış ola bilərsiniz. İnsanlar bir-birləri ilə inanılmaz dərəcədə sinxronlaşmağa qadirdirlər, eləcə də onların mühitləri vasitəsilə ötürülən musiqi.

Festivallar müxtəlif təbəqələrdən olan insanları bir araya gətirir. Müxtəlifliyi musiqinin gücü ilə birləşdirdikdə, festivalın təcrübəsi həqiqətən böyük bir sosial gücə çevrilir. Musiqi beynimizdə yaxşı hiss hormonu olan dopamin ifraz edir. Əgər özünüzü xoşbəxt hiss edirsinizsə və digər xoşbəxt insanlarla birlikdə festivaldan həzz alırsanız, müxtəlif insanların həyat təcrübələri və mədəniyyətləri haqqında daha çox öyrənməyə açıq olacaqsınız. Bu qədər böyük izdihamla tədbirə qatılmaq qorxuducu görünə bilər, xüsusən də bu sizin üçün tamamilə yeni bir təcrübə olacaqsa. Əgər hasardasınızsa, tək qalmamaq üçün bəzi dostlarınızı dəvət etməyi düşünün. Zövq aldığınız başlıqlarla festival tapın və bir şans əldə edin! Yol boyu bəzi fantastik xatirələr yaşayacaqsınız (12).

Musiqinin dinləyicilərin zehninə və ümumi sağlamlığına təsir göstərdiyini göstərən bir sıra araşdırmalar üzrə Existence hesabatları araşdırıldı. Qroningen Universitetində aparılan araşdırmalar göstərir ki, daha yüksək əhval-ruhiyyəli musiqi dinləyən tədqiqat iştirakçıları həyat haqqında daha xoşbəxt qavrayışlar yaşayıblar. Musiqi beynimizdə dopamin ifraz edir, bu hormon sizin sevimli Beyonce mahnınız hər gələndə sizə bütün hissləri bəxş edir. Gözəl bir mühitdə hitləri dinləyərkən

bu gücləndirici hissi bir-birinizlə paylaşmaqla, həqiqətən heç nə yoxdur. Sizin əhvalınızı artıra biləcək başqa bir şey dünyada qalıb. Ətrafınızda paylaşılacaq bütün istirahət əhval - ruhiyyəni gücləndirənlər daxil olur.

## Nəticə

Mədəniyyət sektorunun festivallaşmasının istirahət və turizm sektorları ilə sıx bağlı olması fikri var. Bu, iki spesifik şərti nəzərdə tutur: əsasən yay fəslinə, istirahət tədbirlərinin böyük əksəriyyətini özündə cəmləşdirən ilin vaxtına yönəlmiş festival proqramı və mədəniyyət siyasətlərində olandan daha çox mədəniyyətə kommersiya yönümlü yanaşma.

Bununla belə, tədqiq etdiyimiz festival mənzərəsi özünü bu şərti görüntüdən daha nüanslı, mürəkkəb və bəzən paradoksal göstərir. Bu, nüanslıdır, çünki yay festivalın pik mövsümü olsa da, festival fəaliyyəti bu mövsümdən xeyli kənara çıxır. Əgər yay indi bu daim dəyişən hadisələrin yalnız yarısından çoxunu keçirirsə, bu, festivalın yaradılmasının ötən illərdə güclü artım nümayiş etdirməsi ilə bağlıdır. Festival sektorunun artan kommersiyasına gəlincə, biz bu iddiada bəzi həqiqətləri görə bilərik, çünki festivallar mədəniyyət məkanlarından daha çox özəl təşkilatlardır. Onların çox vaxt öz-özlüyündə özəl aktyor olması xüsusilə diqqətəlayiq deyil, çünki mədəniyyət sektoru qeyri-kommersiya təşkilatlarının olması ilə güclü şəkildə xarakterizə olunur. Qeyd edə bilərik ki, bu hüquqi status həm ictimai sferanın praktiki uzantısı olan, həm də kommersiya müəssisəsi kimi fəaliyyət göstərən təşkilatlara da şamil edilə bilər.

Buna baxmayaraq, festivallara bu statusla bağlana bilən xüsusiyyətlər var. Birincisi, bilet qəbzləri digər kommersiya və ya para-kommersiya fəaliyyətləri kimi onlar üçün əhəmiyyətli gəlir mənbəyidir. İkincisi, özəl tərəfdaşlıqlar daha böyük rol oynayır. Patronaj və sponsorluq adətən festivallar tərəfindən etibar edilir, baxmayaraq ki, onların istifadə etdiyi strategiyalar da dəyişir. Məsələn, himayədarlıq iqtisadi böhran səbəbindən dövlət maliyyə dəstəyində yaranan çatışmazlıqların ödənilməsi vasitəsi kimi qəbul edilir. Bununla belə, himayəçilik səviyyələri bunu etmək üçün kifayət etməmişdir və bir çox havadarlar və sponsorlar sərmayələrinin qaytarılmasını nümayiş etdirmək üçün festivallara getdikcə daha çox təzyiq göstərirlər. Özümüzü bir festivala ad verən əsas sponsorların oynadığı rolla məhdudlaşdırmadan, biz görə bilərik ki, xeyirxah patronun klassik modelini daha tələbkar tərəfdaşlıq modeli üstələyir və beləliklə, festivala daha dərindən nüfuz edir. festivallara daha çox kommersiya baxışı. Festivallarla bağlı qəbul edilən ikinci fikir birincisi ilə sıx bağlıdır: daimi mədəniyyət məkanları ilə müqayisədə bu tədbirlərin keçici olması. Bu tədbirlərin daha qısa formatı, həqiqətən də, onların uğurunu başa düşmək üçün açardır.

Festivalların mövsüm tarixlərindən kənar fəaliyyətlər təklif etdiyini nəzərə alsaq, festivalların müvəqqəti həddi nisbi olmuşdur. Azərbaycanın hər yerində tarixi yerlərə və abidələrə rast gəlmək olar. Ziyarətçilər bu tarixi yerlərə və ya görməli yerlərə səyahət etmək niyyətində olduqda, onlara tarixi turistlər deyilir. İnsanlar milli və ya qeyri-millətli ola bilər. Tarixi turizmin böyüməsində yadda saxlamaq lazım olan müxtəlif amillər var. Bu sahələrə infrastrukturun inkişafı, məhsulların yaradılması, insan kapitalının inkişafı, təşviq və marketinq, əməkdaşlıq, biznes strategiyası, innovasiya, turizmin milli diqqəti, yeni medianın inkişafı və irs turizminin inkişafı daxildir. Bu sahələrin inkişafı yeni turizm növlərinin inkişafına töhfə vermək və ziyarətçilərin sayını artırmaq. Ən böyük əhəmiyyət kəsb edən sahələrdən biri də turizmə milli prioritet verməkdir, çünki turizmin inkişafına diqqət yetirilir.

Regionda təkcə tarixi turizmin deyil, digər turizm növlərinin də böyüməsini və inkişafını təmin etmək üçün Turizm Departamenti lazımi funksiyaları yerinə yetirməlidir. Əsas funksiyaları turizm haqqında məlumat toplamaq, əldə etmək və yaymaq, təşkilatları təşkil etmək və əməkdaşlıq etmək, cinayət və zorakılığın qarşısını almağa çalışmaq, xidmətləri yaxşılaşdırmaq, müxtəlif turizm növləri haqqında məlumatlılığı artırmaq, nəqliyyat təmin etmək, qanunları formalaşdırmaq, fəaliyyətlərə nəzarət etmək və statistik məlumat və marketinq yaratmaqdır. Məslən: Yaylaq festivalı.

Xülasə, Azərbaycan özünü turizm ölkəsi kimi təsdiqləmək və dünyanın hər yerindən bütün növ turistləri cəlb etmək üçün kifayət qədər təbii və tarixi resurslara malikdir.

Azərbaycanda keçiriləcək festivallara Qafqaz xalqının canlı mədəniyyətini əks etdirmək lazımdır. Azərbaycanlılar istənilən kütləni parlaq və rəngarəng hadisəyə çevirmək üçün qeyri-adi qabiliyyətə malikdirlər. Xalqların musiqi ansamblı, ləzzətli yeməkləri, zəngin irsi ilə tanış olmaq. Azərbaycanda keçirilən festivallardan birinə baş çəkərək canlı mədəniyyəti yaxından izləmək olar.

## Ədəbiyyat

1. Soltanova, H. (2015). "Azərbaycan Respublikasında Turizm və Onun İnkişafı". Bakı.
2. Əsgərov, Ə.T., Bilalov, B.Ə., Gülalıyev, Ç.G. (2011). "Ekoloji turizm". Bakı: Adiloğlu nəşriyyatı.
3. Bilalov, B. (2006). "Turizm fəaliyyətinin tənzimlənməsi". Bakı: Mütərcim nəşriyyatı.
4. Bilalov, B.Ə., Gülalıyevin, Ç.G. (2015). "Turizmin Əsasları". Bakı: QHT nəşriyyatı.
5. Abadov, M. (2014). "Azərbaycan turizmi və onun inkişaf problemləri". Bakı: Şərq-Qərb nəşriyyatı.
6. https://en.wikipedia.org/wiki/Baku_International_Jazz_Festival
7. https://en.wikipedia.org/wiki/Baku_International_Jazz_Festival
8. https://en.wikipedia.org/wiki/Gabala_International_Music_Festival
9. https://en.wikipedia.org/wiki/International_World_of_Mugham_Festival
10. https://www.bakujazzfestival.com/festival
11. https://en.wikipedia.org/wiki/Eurovision_Song_Contest_2012
12. https://www.fliptix.com/blog/2019/5/7/why-are-music-festivals-important

Göndərildi: 11.02.2023 Qəbul edildi: 06.04.2023

DOI: https://doi.org/10.36719/2663-4619/91/54-60

**Gülər Məmmədzadə**
Azərbaycan Respublikası Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
gyularmammadzada@gmail.com

# MÜXTƏLİF LİDERLİK ÜSLUBLARININ MOTİVASİYA ÜZƏRİNDƏKİ TƏSİRLƏRİ

## Xülasə

Lider və liderlik anlayışları son illərdə idarəetmə sahəsində ən çox diqqət çəkən məsələlərdən biridir. Lider, təşkilatda işçiləri motivasiya etməklə təşkilatdakı səmərəliliyin artırılmasına cavabdehdir. Liderin üslubu və davranışı birbaşa işçinin motivasiya, məmnunluq və bağlılıq səviyyəsinə təsir göstərir. Bu səbəbdən təşkilatın uğurunun işçilərin uğurundan keçə biləcəyi fikri lider tərəfindən diqqətdən kənarda qalmamalıdır. Məqalədə ən geniş yayılmış liderlik üslubları haqqında ümumi məlumat verilmiş və bu üslubların işçilərin motivasiyası üzərində effektinin müxtəlifliyi araşdırılmışdır.

***Açar sözlər:*** *lider, liderlik, liderlik xüsusiyyətləri, motivasiya, liderlik üslubları*

**Guler Mammadzade**
The Academy of Public Administration under the
President of the Republic of Azerbaijan
master student
gyularmammadzada@gmail.com

## Effects of different leadership styles on motivation

## Abstract

The concept of leader and leadership is one of the most important issues in the field of management in recent years. The leader is responsible for increasing the efficiency of the organization by motivating the employees in the organization. The leader's style and behavior directly affect the employee's level of motivation, satisfaction and commitment. Therefore, the idea that the success of the organization can pass through the success of the employees should not be ignored by the leader. The article provides general information about the most common leadership styles and examines the diversity of the effect of these styles on the motivation of employees.

***Keywords:*** *leader, leadership, leadership characteristics, motivation, leadership styles*

## Giriş

Lider təşkilat və işçiləri arasında işçilərin davranış və münasibətinə təsir edən əhəmiyyətli bir vasitəçidir. Effektiv lider motivasiya amilləri haqqında hərtərəfli biliyə malik olmalıdır. İşçilərin istəkli olması, səy göstərmələri və işlərini mənimsəmələri liderin motivasiyası sayəsində mümkün olacaqdır. Bu baxımdan lider işçilərin motivasiyasında əsas rol və funksiyanı yerinə yetirir və liderin mənimsədiyi üslub və davranış birbaşa işçinin motivasiya, bağlılıq və məmnunluq səviyyəsinə təsir göstərir. Liderlik üslubunu vəziyyətə və işçilərin ehtiyaclarına uyğunlaşdıra bilən liderlər işçilərini həvəsləndirmək və cəlb etməkdə daha uğurlu olurlar.

**Liderlik anlayışı və xüsusiyyətləri.** Liderliyin tərifi ümumilikdə iki fərqli şəkildə verilir. Onlardan biri liderliyi proses, digəri isə xüsusiyyətlər baxımından müəyyənləşdirir. Proses baxımından lider təşkilatın məqsədlərinə uyğun olaraq təşkilat üzvlərinin fəaliyyətinə rəhbərlik edən və təşkil edən şəxsdir. Xüsusiyyətlər baxımından isə lider qrup üzvlərinə müvəffəqiyyətlə təsir edə bilən xarakterik xüsusiyyətlərə malik lider kimi müəyyən edilir (Ozkalp, Kirel, 2010: 309).

Bəzi insanlar təbii liderlik qabiliyyətlərinə sahib ola bilər, digərləri isə onları təlim və təcrübə vasitəsilə inkişaf etdirməli ola bilər. Burada əsas diqqət yetiriləcək məqam müəyyən araşdırma və araşdırmalarda ortaya çıxan liderlik xüsusiyyətlərinə malik insanların ortaq xüsusiyyətləri olacaq. Bununla belə, bütün tədqiqatlar ümumi nəticəyə gəlməyib və hər bir araşdırmada bəzi ümumi lider xüsusiyyətləri aşkar edilsə də, bəzi tədqiqatlarda fərqli lider xüsusiyyətləri müşahidə edilib.

Bəzi araşdırmalarda liderlərin qətiyyətli, özünə güvənən, yaradıcı, yüksək anlayışlı, dürüst, ardıcıl, qətiyyətli, digər fərdləri motivasiya edən,mürəkkəb problemləri həll etməyi bacaran, səbirli, işbirlikçi, gələcəyə baxan və yüksək ünsiyyət bacarıqlarına sahib fərdlər olduqları müəyyən edilmişdir (Wagen, 2007: 219). Bəzi araşdırmalarda isə liderdə olması lazım olan xüsusiyyətlər etibarlılıq, özünə inam, cəsarət, yaradıcılıq və idarəetmə qabiliyyəti, strategiya inkişaf etdirmə, dəyişikliyə ayaqlaşmaq, yenilikçi olmaq, vizyon sahibi olmaq, ünsiyyət bacarıqları, təşkilati bağlılıq, risk götürmək, əməkdaşlıq etmək bacarığı və xarizma kimi sadalanmışdır (Porter, 2003: 1).

Bununla belə effektiv liderlərdə tez-tez müşahidə olunan bir çox keyfiyyətlər var. Ən ümumi liderlik keyfiyyətlərindən bəziləri bunlardır:

– Vizyon: Liderin hara getmək istədikləri ilə bağlı aydın baxışı olmalıdır və bu baxışı başqalarına çatdıra bilməlidir.

– Ünsiyyət: Liderin öz vizyonunu, məqsədlərini və gözləntilərini çatdırması, həmçinin başqalarını ruhlandırmaq və həvəsləndirmək üçün effektiv ünsiyyət vacibdir.

– Qətiyyətlilik: Lider komandaya və ya təşkilata fayda verən vaxtında və yaxşı məlumatlı qərarlar qəbul etməyi bacarmalıdır.

– Məsuliyyət: Yaxşı bir lider öz hərəkətləri və qərarları,özünün və komandasının fəaliyyətinə görə məsuliyyət daşıyır.

– Empatiya: Empatiya nümayiş etdirən lider başqalarının ehtiyaclarını və hisslərini başa düşə və onlarla əlaqələndirə bilər ki, bu da inam və sədaqət yaratmağa kömək edir.

– Uyğunlaşma: Lider dəyişən şərtlərə uyğunlaşa bilməli və problemin həllinə çevik yanaşmalıdır.

– Güvən: Özündən əmin və özünə güvənən lider öz komandasında inam yaradır və inamla çətin qərarlar qəbul edə bilir.

– Dürüstlük: Dürüstlüklə hərəkət edən lider, komandasının etibarını və hörmətini qazanır və nümunə göstərir.

Liderləri digər insanlardan fərqləndirən bəzi əsas xüsusiyyətlər var. Liderlərin ən ümumi fərqləndirici xüsusiyyətləri dürüstlük, doğruluq, motivasiya, iddialılıq, ünsiyyətə açıqlıq və yüksək özünə inamdır. Liderlərin dürüst, düzgün, qərarlı olması, ekstrovert və ünsiyyətə açıq olması, özünə güvənməsi və ətrafındakılara da bunu hiss etdirməsi, izləyicilərini hərəkətə keçirməsi və məqsədlərinə çatmaq üçün onları motivasiya etməsi, kütlələrə rəhbərlik etmək və uğurlu olmaq baxımından son dərəcə vacibdir.

**Motivasiya anlayışı və xüsusiyyətləri.** Motivasiya latınca "hərəkət etmək" mənasını verən "movere" sözündən götürülmüşdür (Mustafa, Hasibe, 2015: 56). Motivasiya sözü motivasiya, aktivləşdirmə kimi anlayışlar üçün də işlənir. Motivasiya müəyyən bir hərəkətə başlamaq, davam etdirmək və konstruktiv yönləndirmək kimi xüsusiyyətlərə malikdir. Motivasiya, işçinin fərdi ehtiyaclarını ödəməklə təşkilatın məqsədlərinə çatmaq üçün tələb olunan yüksək səviyyəli səydir.

Motivasiya bizi hədəflərimizə çatmağa yönəldən psixoloji vəziyyətdir. Bizi hərəkətə keçməyə, maneələri dəf etməyə və çətinliklər qarşısında əzmkar olmağa ruhlandıran hərəkətverici qüvvədir. Motivasiya insanın özündən qaynaqlanan daxili, ya da xarici mükafatlardan və ya təzyiqlərdən qaynaqlanan xarici ola bilər. Motivasiya şəxsi dəyərlər və inanclar, nailiyyət və tanınma istəyi, sosial əlaqə və aidiyyət ehtiyacı kimi müxtəlif amillərdən təsirlənə bilər. O, həmçinin stimullar, mükafatlar, sosial və ya mədəni normalar kimi xarici amillərdən təsirlənə bilər.

Motivasiyanın əsas məqsədlərindən biri insanları təşkilati məqsədlərə doğru işləməyə həvəsləndirməkdir. Motivasiyadan təşkilatın xeyrinə istifadə etmək və idarəetmənin uğuruna töhfə vermək üçün insanları təşkilati məqsədlərə yönəltmək lazımdır. Bunun baş verməsi üçün fərdi ehtiyaclar ödənilməlidir. Təşkilatın balanssızlığının və gərginliyinin azaldılması üçün işçilər öz

gözləntilərini və ehtiyaclarını qarşılamalıdırlar. Motivasiya, performans və müsbət işə münasibətin hamısı güclü əlaqəyə malikdir. Motivasiyalı fərdlər həm işə bağlılıqlarını, həm də performanslarını artırırlar.

**Liderlik üslubları və motivasiya.** Liderlər vəzifələrini yerinə yetirərkən, olduqları mühitin şərtlərinə uyğun olaraq müxtəlif davranış üslubları mənimsəyirlər. Şərtlərə uyğun liderlik üslubunun seçilməsi həm fərdi, həm də təşkilati məqsədlərin həyata keçirilməsinə əhəmiyyətli töhfə verəcəkdir. Bu səbəbdən də tətbiq olunacaq liderlik üslubu müəyyən edilərkən müəssisənin fəaliyyət sahəsi, fəaliyyət subyekti, lideri izləyənlərin şəxsiyyətləri, ölkələrin mədəni strukturları, zaman təzyiqi, struktur və ekoloji problemlər kimi bəzi amillər nəzərə alınmalıdır (Shimshek, 2003: 182).

Liderlik üslubu liderin istiqamət vermək, planları həyata keçirmək və insanları motivasiya etmək üçün yanaşmasıdır. 1939-cu ildə psixoloq Kurt Lewin və tədqiqatçılar qrupu üç əsas liderlik üslubunun olduğunu müəyyən etdilər: Avtoritar (avtokratik), İştirakçı (Demokratik) və Liberal (Laissez-Faire). Ənənəvi liderlik üslubları ilə yanaşı, yeni dəyişikliklər və inkişafların təsiri ilə bəzi müasir liderlik üslublarının da meydana çıxdığı müşahidə edilmişdir. Bu liderlik üslublarının daha çox günün ehtiyac və tələblərinə cavab verdiyi düşünülür. Müasir liderlik üslubları arasında ən diqqət çəkənlər transformasiya, tranzaksiya və xarizmatik liderlik üslublarıdır. Hər bir üslubun üstünlükləri və çətinliklərinə nəzər salmaqla altı ümumi liderlik üslubuna nəzər salaq:

**Ənənəvi liderlik üslubları.** Bu gün ölkəmizdə bir çox təşkilatlarda ənənəvi liderlik üslublarından hələ də geniş istifadə olunur. Ənənəvi liderlik üslubları aşağıda qısa şəkildə verilmişdir:

*Avtokratik liderlik stili.* Bu üslub ənənəvi liderlik üslubları arasında ən diqqət çəkənidir. Bu liderlər komanda üzvlərindən məlumat toplamağa daha az diqqət yetirir və başqalarının əməl etməsi gözlənilən icraedici qərarlar qəbul etməyə meyllidirlər. Bu cür rəhbərlər səhvlərini tənqid etməklə və əmr verməklə, tabeliyində olanları motivasiya edirlər.

Avtokratik liderliyin üstünlüklərinə aşağıdakılar daxildir:

2. Uyğurlar-özbəklər, həzaralar, salarlar, uyğurlar, tuvalar, şorlar, komasin-tobollar, baraba tatarları, çulumlar və s.;
3. Qıpçaqlar-qazaxlar, qaraqalpaqlar, qumıqlar, qırğızlar, altaylar, noqaylar və s.;
4. Bulqarlar-tatarlar, başqırdlar, qaraçaylılar, qaraimlər və s.

Müasir türk xalqlarının dinləri fərqlidir. Böyük bir hissə İslam dininə etiqad edərkən, çuvaş, qaqauz, tatar və yakutların böyük bir hissəsi pravoslav xristian, karaim və krımçaklar iudizm, tuvin, sarı uyqurlar və salarların bir hissəsi buddist, altaylar burhanist, xakas, şor, teleut, yakut və dolqanlar tenrist və şamanist dininə inanır (10).

Türk etnosu dünyanın ən çoxsaylı etnoslarından biridir və onun təmsilçiləri Yer kürəsinin bütün qitələrində məskunlaşmışlar. Bəzi saytlarda onların sayı haqqında verilən məlumatlar həqiqəti əks etdirmir. Bu məlumatlara görə, dünya türklərinin sayı 160-165, 170, ya 250 milyondur. Halbuki təkcə Türkiyədə 55, Çində 100, İranda 40, Özbəkistanda 30, Qazaxıstanda 15, Azərbaycanda 10, Türkmənistan və Qırğızıstanın hər birində 6 milyon və s. türk vardır. Sabiq SSRİ, dünyanın quru hissəsinin altıda birini (22402 min $km^2$) tuturdu. O, əhalisinin sayına görə (1989, 1 yanvar-293 milyon) dünyada III yerdə dururdu. Çoxları bilməsə də, bu nəhəng ölkənin əhalisinin təqribən 75 %-ni, yəni, 200 milyondan çoxunu türkdilli xalqlar təşkil edirdi. Başqa bir fakt: bu gün ərazi

baxımdan dünyanın ən böyük ölkəsi olan Rusiya Federasiyası 17075,4 min km$^2$ ərazisi ilə Yer kürəsinin quru sahəsinin 11,5 %-ni tutur, 146 milyonluq əhalisi ilə dunya dövlətləri arasında 9-cu yerdə dayanır. Yenə də rəsmi statistikada bu ölkənin əhalisinin 81 %-nin rus olduğu bildirilir (11). Halbuki, ən primitiv göstəricilərə (məsələn, ölkənin tarixi, tarixi coğrafiyası, türk xalqlarının yayılma arealı, bu ərazidən çıxmış böyük şəxsiyyətlərin milli mənsubiyyəti, ölkənin inzibati-ərazi bölgüsü və s.) baxsaq, görərik ki, ölkənin əhalisinin çoxunu türkdilli xalqlar, xüsusən də, tatarlar təşkil edir. Başqa bir fakt isə ondan ibarətdir ki, Rusiya Federasiyasında 60 fərqli etnik qrup var, 100-dən çox dildə danışılır. Hə, bu etniklərin ən böyüyü türk etnosudur və danışılan dillərin əksəriyyəti türk (axısqa, Altay, Azərbaycan, balkar, barsi, başqırd, buryat, bulqar, çukot, çulum, çuvaş, dolqan, evenk, xakas, xantı-mansı, İdil tatarları, kalmık, kara tatar, Krım tatarları, koryak, kumık, qacar, qaqauz, qaraçay, qarapapaq, qaşqay, qazax, qəraim, qırqız, nen, noqay (naqaybak), oryat, özbək, sarı uyqur, salar, savir, Sibir tatarları, tabasaran, tatar, taymır, teleut, telenqit, tərəkəmə, truxmen, türkmən, urum-qıpçaq, yakut, yamala və s.) dilləridir. Bundan başqa, Rusiya Federasiyası 89 subyekdən ibarətdir: 21 respublika, 1 muxtar vilayət, 9 diyar, 10 milli mahal, 46 vilayət, 2 federal əhəmiyyətli şəhərlər (Moskva və Sankt-Peterburq) daxildir (Qurbanov, 2011: 216). Digər subyektlər nəzərə alınmasa belə, adıgedən 21 respublikanın çoxusu türk xalqlarına məxsusdur. Nəticə etibarı ilə, təqribi hesablamlara görə, dünya əhalisinin hardasa, az qala, 500 milyon nəfəri türkdillidir. Əslində, günümüzdə Türk dilinin rəsmən beynəlxalq dil elan olunması türkdilli xalqların ən elementar hüququdur.

Tarixən rus şovinistləri hər zaman başqa xalqları assimilyasiya etməyə, xalqların (millətlərin) milli mənsubiyyətlərini, xüsusən dillərini əllərindən almağa çalışmışlar. Günümüzdə Rusiya Federasiyasında yaşayan bir çox türkdilli xalqların (şorlar-12 mindən artıq; tofalar-toxalar-qaraqaşlar-761 nəfər; çulumlar-355 nəfər, tubalar, kumandilər-2900 nəfər, telenqitlər-3800 nəfər, teleutlar-bayat-payatlar-2650 nəfər, dolqanlar-7261 nəfər, çelkanlar-1700, krımçaqlar-1500, soyotlar-500 və s.) sayları kifayət qədər azalmış və nə yazıq ki, azalmaqda davam edir: onlar ölüm-qalım savaşı verməkdədirlər. Bu xalqlar yüz illər əvvəl necəydilərsə, indi də elədirlər: maral saxlayır, balıq tutur, ovçuluqla məşğuldurlar. Dini inancları da totemizm, şamanizmdir. Onların əksəriyyətinin məskunlaşdıqları yaşayış məntəqələrinə yol belə yoxdur. Bu yerlərə ancaq vertolyotla ulaşmaq mümkündür. Maraqlı burasıdır ki, haqqında söhbət gedən türkdilli xalqların nümayəndələri ana dillərində aramla danışanda oradakı azərbaycanlılar onları anlayır. Bu xalqlar, əsasən, Bratsk şəhərindən 700 km şərqdə, Tayqanın dərinliklərindəki Anqoya qəsəbəsi regionunda yaşayırlar. Maraqlıdır ki, Anqoya qəsəbəsində XX əsrin 70-ci illərində BAM-ı (Baykal-Amur Magistralı) tikən azərbaycanlılar yaşayır. Mərhum prezident Heydər Əliyev də keçmiş SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini işləyərkən məhz buralara gəlib çıxmış, tikintiyə şəxsən nəzarət etmişdi (13).

Hazırda türk xalqlarının 7 müstəqil dövləti vardır (Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Şimali Kipr). Müstəqil türk dövlətlərindən başqa, Rusiya Federasiyasının tərkibində Tatarıstan, Başqırdıstan, Çuvaşıstan, Saxa (Yakutiya), Tuva, Xakasiya, Kabarda-Balkariya, Qaraçay-Çərkəs, Altay Respublikaları, Taymır (Dolqan-Nen) və s. milli mahalları və daha kiçik türkdilli subyektlər, eləcə də, Çin Xalq Respublikasının tərkibində isə Sinsyan-Uyqur Muxtar Rayonu vardır (12).

Əslində, Rusiya Federasiyasının respublika səviyyəli subyektləri, həm də onların başında duran şəxsiyyətlərin xarakterinə görə, Tatarıstan və Başqırdıstan Respublikalarının timsalında elə müstəqil dövlət kimidirlər. Məsələn, 2010-cu ildə Çeçenistan Respublikasının prezidenti Ramazan Kadırov belə bir fikir irəli sürdü ki, Rusiya Federasiyasında bir prezident ola bilər, o üzdən ölkənin subyektləri olan respublikaların rəhbərlərinə dövlət başkanı (prezident) deyilməməlidir. Bu təklifdən sonra ölkənin o vaxtkı prezidenti Dmitri Medvedev, Dövlət Duması və Federasiya Məclisi onu təsbit edən qərarlar çıxardılar. Lakin ölkənin ən böyük subyektlərindən olan Tatarıstan Respublikası və Başkırdıstan Respublikası bu qərarları tanımadılar və öz qanunvericiliklərinə müvafiq dəyişikliklər edərək öz respublikaları daxilində prezident statuslarını saxladılar. Beləliklə, federasiya qanunları ilə adıgedən respublikaların bu sahədəki qanunvericilikləri arasında ziddiyyət

yarandı (13). Başqa bir misal, rus təyyarəsinin Türkiyə tərəfindən vurulması ilə az qala Türkiyə-Rusiya müharibəsi alovlanacaqdı. Həmin gərgin dövrdə 1991-2010-cu illərdə Tatarıstan Respublikasının Prezidenti olmuş Mintimer Şeymiyevin belə bir fikri qeyri-rəsmi şəkildə yayıldı ki, əgər Rusiya Türkiyə ilə müharibə etsə, biz türklərin tərəfində vuruşacağıq. Əlbəttə, od olmayan yerdən tüstü çıxmaz.

Qeyd etmək yerinə düşər ki, Türkiyə-Rusiya münasibətlərinin az qala müharibə həddinə çatacağı bir vaxtda məhz Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin şəxsi vasitəçiliyi ilə bu gərginlik aradan qalxdı və Türkiyə-Rusiya böhranı çözüldü (14).

Yeri gəlmişkən, daha 1 haşiyə çıxaq; bu gün bir çox rus şovinistləri SSRİ-nin yaradıcısı Vladimir İliç Leninlə (1870-1924) bağlı xoşagəlməz yazılar dərc edir, onu rus imperiyasının düşməni adlandırırlar. Səbəb olaraq göstərirlər ki, o, əslən tatar olaraq türk millətçiliyi etmiş, ölkənin inzbati ərazi bölgüsünü tərtib edərkən, türkdilli xalqlara müxtəlif inzibati-ərazi statusları vermişdir ki, gələcəkdə milli varlıqlarını qoruya, inkişaf etdirə və müstəqil dövlətlər ola bilsinlər. Əslində, bu fikirdə həqiqət payı kifayət qədər yüksəkdir. SSRİ-nin dağılması bunu əyani şəkildə göstərdi. Nəzərə alsaq ki, SSRİ-ni dağıtmış güclərin növbəti planı Rusiya Federasiyasını bir super dövlət kimi sıradan çıxartmaqdır, o zaman bir çox yeni müstəqil türk dövlətlərinin yaranacağı və XXI əsrin türk əsri olacağı heç bir şübhə doğurmur (15).

Azərbaycanın regional iqtisadi əməkdaşlığa verdiyi böyük əhəmiyyət və trans-regional infrastruktur layihələrində fəal iştirakının nəticəsi olaraq, Azərbaycan ilə Türkiyə arasında beynəlxalq əhəmiyyətli bir sıra regional layihələr uğurla həyata keçirilmişdir. Bakı-Tbilisi-Ceyhan neft kəməri (BTC), Bakı-Tbilisi-Ərzurum qaz kəməri (BTƏ), Bakı-Tbilisi-Qars dəmir yolu xətti (BTQ), Trans-Anadolu təbii qaz boru xətti (TANAP) layihələri bu baxımdan ən yaxşı nümunələrdir.

## Nəticə

"Ümid Qapısı"-nın iqtisadi-sosial, tarixi-diplomatik və hərbi-siyasi əhəmiyyəti" mövzusunun bir məqalə həcmində və çərçivəsində araşdırılması belə, onun nə qədər aktual olduğunu göstərir. Biz türk xalqları olaraq hər zaman şanlı tariximizin səhifələrini bir daha vərəqləməli və ibrət dərsləri almalıyıq. Çünki, Dağıstanın müdrik xalq şairi Rəsul Həmzətovun (1923-2003) dediyi kimi, keçmişimizə tapança ilə atəş açsaq, gələcək bizi topla qarşılayar (Həmzətov, 1977: 301). Bu baxımdan mövzunun digər aspektləri də nəzərı alınmaqla geniş bir şəkildə, həm də dövlət müstəqilliyimizin bəxş etdiyi münbit imkanlar çərçivəsində öyrənilməsi zəruridir.

Təkliflər. Mövcud araşdırmanın doğurduğu təkliflər:

1. Mövzunun çox geniş və hərtərəfli araşdırılmasına ehtiyac vardır;
2. Türk etnosu ensiklopediyasının hazırlanması elmimiz qarşısında duran təxirəsalınmaz vəzifələrdən biridir.

## Ədəbiyyat

1. Pənahoğlu, Ş. (2017). Əfqanıstan: Sovet işğalından Amerika müdaxiləsinə. 525-ci qəzet. 03 iyun.
2. https://nuhcixan.az/news/siyaset/20964
3. Bərxudarlı, A. (2015) Azərbaycan-Türkiyə ticarət-iqtisadi əlaqələrinin müasir vəziyyəti və inkişaf yolları. Magistr dissertasiyası. Bakı: İqtisad Universiteti, 76 s.
4. Talıbov, V. (2008). Qayıdış (1990-1993). Bakı: Azərbaycan, 840 s.
5. Qurbanov, R. (2011). Türk xalqlarının tarixi. II hissə. Bakı: İqtisad Universiteti, 216 s.
6. www.kurultaj.hu
7. https://az.wikipedia.org/wiki/Rusiya-81%
8. www.turkist.org
9. http://yvision.kz/post/280028
10. https://ru.wikipedia.org/wiki/%D0%
11. http://qlobal.az/biz-qipcaq-turkuyuk
12. https://az.wikipedia.org/wiki/Rusiyan%C4%B1n_inzibati

13. https://az.wikipedia.org/wiki/T%C3%BCrk_xalqlar%C4%B-7
14. https://lent.az/news/272578
15. https://tr.wikipedia.org/wiki/Tataristan_cumhurb
16. Həmzətov, R. (1977). Mənim Dağıstanım. II cild. Bakı: Gənclik, 301 s.

Göndərildi: 13.02.2023 Qəbul edildi: 25.05.2023

DOI: https://doi.org/10.36719/2663-4619/91/105-110

**Gülcahan Quluzadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
gulcahanquluzade@gmail.com

# AZƏRBAYCANDA BOLONYA PROSESİ: TƏLƏBƏYÖNÜMLÜ TƏHSİL

**Xülasə**

Tələbəyönümlü təhsil Bolonya prosesinin diqqət mərkəzində olan əsas məsələlərdən biridir. 2003-cü ildən bəri Berlin, Bergen, London və digər ölkə nazirləri konfranslarında bu məsələ müzakirə olunaraq ölkələrin tələbəyönümlü təhsil ilə bağlı durumları təhlil edilmişdir. Bu məqalədə tələbəyönümlü təhsilin mahiyyəti, müsbət və mənfi cəhətləri, tənqidi yanaşmaları müzakirə olunur. Müxtəlif ədəbiyyatlarda tələbəyönümlü təhsillə bağlı edilən araşdırmalar müzakirə olunur. Avropa Standart və təlimatlarında tələbəyönümlü təhsilin əhəmiyyətinə dair təlimatlara baxılır. Ölkədə bununla bağlı aparılan araşdırmaların nəticələrinə yer verilir. Nəticələr əsasında aşkar olunan müsbət və mənfi tərəflər diqqətə çatdırılır.

***Açar sözlər:*** *Bolonya prosesi, tələbəyönümlü təhsil, keyfiyyət təminatı, öyrənmə metodları, fəal öyrənmə*

**Guljahan Guluzada**
Azerbaijan State Pedagogical University
master student
gulcahanquluzade@gmail.com

## Bologna Process in Azerbaijan: Student-centred learning

**Abstract**

Student-centred education is one of the main issues in the focus of the Bologna process. Since 2003, this issue has been discussed at Berlin, Bergen, London and other ministerial conferences, and the countries' situations related to student-oriented education have been analyzed. This article discusses the nature, pros and cons, and critical approaches of student-centred education. Research on student-oriented education is discussed in various works of literature. European Standards and guidelines consider guidelines on the importance of student-centred education. The results of the research conducted in this regard in the country are included. Based on the results, positive and negative aspects are highlighted.

***Keywords:*** *Bologna process, student-centred learning, quality assurance, learning methodologies, active learning*

## Giriş

Ali təhsil müəssisələrində tədris prosesinin əsas iştirakçıları öyrədən və öyrənən, əsas obyektləri isə fənn, tədris proqramı, ixtisas hesab olunur. Təhsil prosesi isə vəziyyətdən və digər amillərdən asılıq olaraq fənnyönümlü, müəllimyönümlü və ya tələbəyönümlü ola bilir. Təhsilin tələbəyönümlü olması isə Avropa Ali Təhsil Məkanında təhsilin inkişafıyla bağlı son otuz ildə aparılan araşdırma və islahatlardan sonra daha da aktuallaşmışdır. Belə ki, aparılan sorğularda və araşdırmalarda, təlim nəticələrində tələbə mərkəzli təhsil sistemlərinin, metodologiyalarının daha səmərəli olduğu ortaya çıxmışdır. Buna görə də Bolonya prosesinin gedişatında ərsəyə gələn Avropa standart və təlimatlarında tələbəyönümlülük daxili keyfiyyət təminatının 1.3 nömrəli standartı olaraq sənədə daxil edilmişdir: "**Müəssisələr proqramların tələbələrin tədris prosesinin yaradılmasında fəal iştirakını təşviq edəcək və tələbələrin qiymətləndirilməsinin bu yanaşmanı əks etdirəcək tərzdə icrasını təmin etməlidirlər (1)".** Bu isə o mənaya gəlir ki, Avropa ali təhsil məkanında

olan, Bolonya prosesinə qoşulan hər bir təhsil sistemi tələbə mərkəzli öyrənmənin təbliğində maraqlı olmalı və ali təhsil müəssisələrini buna dəvət etməlidir.

**Tələbəyönümlü təhsilə tənqidi yanaşmalar.**

Bəzi ədəbiyyatlarda tələbəyönümlü öyrənmənin ali təhsildə o qədər də önəmli olmadığı iddia olunur. Qeyd olunur ki, bu metoda tələbələrə müştəri kimi, özlərinə isə biznes kimi yanaşan ali təhsil müəssisələrinin tətbiq etdiyi bir üsuldur. Onlar bu yolla öz müştərilərini məmnun etməyə fokuslanırlar. Başqa bir tənqidi fikirdə isə tələbəyönümlü öyrənmənin təhsil prosesinə mənfiyə doğru dəyişdiyi qeyd olunur. Qeyd olunur ki, təhsilin mərkəzində tələbələr olduqda onlar özlərini prosesin gedişatını dəyişə bilmə səlahiyyətində hiss edirlər. Beləliklə, müəllimlər tələbələrin fikirlərini nəzərə almaqla proqramda, qiymətləndirmədə dəyişiklik edir, bununla da təhsilin keyfiyyətini aşağı salmış olurlar. Digər bir iddia isə tələbə müəllim münasibətlərinin dəyişimi ilə bağlıdır. Ənənəvi, tələbəmərkəzli təhsilin o qədər də geniş hal almadığı təhsil sistemlərində müəllim ilə tələbə arasında münasibət şaquli olub müəllimə idarəedici şəxs, tələbəyə isə passiv dinləyici gözüylə yanaşılıb. Dəyişən meyillər bir sıra hallarda mənfi qarşılansa da əksər hallarda müsbət nəticələr verməkdədir (Karseth, 2006: 257).

**Tələbəyönümlü öyrənmənin üstünlükləri.**

Tələbəyönümlü təhsil yuxarıda sadalanan mənfi fikirlərlə müqayisədə çoxsaylı üstünlüklərə malikdir. Belə ki, hazırda bütün ölkələr, eləcə də Azərbaycan əməkbazarı üçün rəqabətli, fəal, məsuliyyətli və yüksək intellektə malik kadrların formalaşdırılmasına maraqlıdır. Aparılan təhsil islahatlarının təməlində bu məqsəd dayanır. Araşdırmalar onu göstərir ki, tələbələrə yönəlik öyrənmənin daha çox istifadə olunması tələbələrin gerçək həyatda tez-tez qarşılaşdıqları problemlərin həllinə tənqidi yanaşmasına müsbət təsir göstərmişdir. Müasir dövrdə, eləcə də gələcəkdə texnologiyanın həyatımızın ayrılmaz bir parçası olduğunu nəzərə alsaq tələbəyönümlü təhsilin tətbiqi prosesin daha rahat keçməsinə faydalı ola bilər. Buna səbəb texnologiyanın tələb etdiyi bacarıqların - fərdi və dəyişkən formalarda öyrənmənin adətən öyrənənin üzərinə daha böyük məsuliyyət qoymasıdır (Klemencic, 2020: 1).

Ölkəmizdə Avropa Standart və Təlimatlarının qarşıya qoyduğu öhdəliklə əlaqədar tələbəyönümlü öyrənmə daxili keyfiyyət təminatı üzrə meyarlar sırasındadır. Bir müəssisənin tələbələri diqqət mərkəzinə saxladığını müəyyən etmək bir sıra göstəricilərlər ölçülür. Bu göstəricilərə aşağıdakılar aiddir:

1. Təhsil proqramı, öyrənmə hədəfləri, təlim nəticələri ilə bağlı məlumatların tələbələrlə paylaşılıb müzakirə edilməsi.
2. Tələbələrin iş vaxtının proqramların tərtibi zamanı nəzərə alınması
3. Tələbələrin tədrisin təşkilindən iştirakınının müəllimlər tərəfindən dəstəklənməsi, onlara düzgün istiqamət verilməsi
4. Tələbələrə qiymətləndirmə metodları və meyarlarla bağlı əvvəlcədən məlumat verilməsi
5. Tələbələrə fəaliyyətləri ilə bağlı vaxtaşırı rəy verilməsi
6. Təhsil proqramlarının tələbələr tərəfindən qiymətləndirilməsi

Siyahıda bundan əlavə daha beş göstərici də yer alsa da, sadalanan meyarlar universitetlərin hansı halda tələbə mərkəzli öyrənmə mühiti yaratdıqlarını başa düşmək üçün kifayət edir (1).

Ancaq təəssüf ki, Bolonya prosesinə qoşulan ölkələrin də daxili keyfiyyət təminatı ilə bağlı fəaliyyətləri nəzəriyyədə səsləndiyi qədər aktiv həyata keçirilmir. Əksər ali təhsil müəssisələri bu standarta formal yanaşır və ya digər standartlar qədər əhəmiyyətli olduğunu düşünmürlər. Ancaq hər bir müəssisə daxili sorğular vasitəsilə, tələbəyönümlü öyrənmənin müəssisədə hansı səviyyədə olduğunu öyrənməyə maraqlı olmalıdır. Çünki, bu cür öyrənmə əsasən xarici amillərlə yox, daxili təsirlər yolu ilə daha da stimullaşır. Yəni bir təhsil müəssisəsi tələbələrə tədrisin mərkəzi komponenti kimi yanaşılmasını istəyirsə buna uyğun müəssisə mədəniyyəti formalaşdırmalıdır (Klemencic, 2020:2). Bu mədəniyyətin formalaşdırılmasında universitetin ictimaiyyətlə əlaqələr şöbəsi də fəal iştirak edə bilər. Nümunə olaraq, şöbə uğurlu və aktiv tələbələr üçün universitetin fəaliyyət istiqamətinə uyğun hədiyyə, mükafat və ya təşəkkürnamə hazırlayaraq tələbələrin universitet üçün əhəmiyyətini onlara çatdıra bilər (Klemencic, 2020: 1).

Tələbəyönümlü tədris EHEA-da Bolonya prosesindən və ESG-ın tətbiqindən sonra daha şəffaf şəkildə həyata keçirilmişdir. Azərbaycanda da bu müstəvidə bir sıra addımlar aparılır. Ancaq atılan addımların nə dərəcədə səmərəli olması universitetdən universitetə dəyişdiyi üçün bu barədə ümumi bir nəticəyə gəlmək də çətindir. Bolonya prosesinin tətbiqi üzrə tələbələr arasında keçirilən sorğunun nəticələrinə əsasən tələbələrin 40%-dən çoxu universitetlərin daxili keyfiyyət təminatı üçün tələbəyönümlülüyün önəmli faktor hesab edilmədiyini düşünürlər (4). Təəssüf ki, bu rəqəm tələbə-mərkəzli təhsilin ölkələrdə kifayət qədər uğurlu təmsil olunmadığının sübutudur. Oxşar sorğunu yerli tələbələr arasında apardıq. Cavablar "Bolonya tələbələrin gözündə" sənədində yer alan nəticələrə oxşarlıq təşkil etdi. Belə ki, təhsil pilləsindən asılı olmayaraq sorğuda iştirak edən tələbələrin əksəriyyəti təhsildə daxili keyfiyyət təminatında tələbəyönümlü əhəmiyyətli hesab olunmadığını qeyd etdilər (4).

Bolonya prosesinin tətbiqinə dair digər məsələ isə tələbələrin ECTS - Avropa Kredit Transfer və Yığım Sistemi ilə bağlı savadlılığı ilə bağlıdır. Bu barədə sorğunun nəticələri tələbələrin yarıdan çoxunun - rəqəmlərlə ifadə etsək 43%-nin bu barədə məlumatsız olduğunu göstərir (Valiyev, Mammadova, 2020: 35). Belə olan halda sistemlə bağlı sistemlə bağlı müəyyən dərəcədə məlumatlı olan qalan 47% tələbənin də Avropa kredit və yığım sisteminin qaydaları haqqında nə bildikləri də sual doğrurur. Çünki respondentlərin əksəriyyəti sistemlə bağlı məlumatlı olduqlarını bildirsələr belə formal və qeyri-formal iş yükləri ilə bağlı fikirlərini əsaslandıra bilməyiblər. Beləliklə Avropa kredit sistemi ölkəmizdə tətbiq olunsa belə tələbə yönümlü yanaşmanın təbliğ olunmasına nə dərəcədə təsir etdiyi sual doğurur. Çünki tələbəyönümlü olması üçün proqramın tərtibatında və tətbiqində akademik heyətlə yanaşı tələbələr də iştirak etməlidilər. Bu Avropa Kredit Transfer və Yığım Sistemi üzrə təlimatlarda da qeyd olunub. Bundan əlavə təhsil proqramlarının tərtibatında və tətbiqində tələbə təmsilçilərinin söz haqqı olduğu da bildirilir.

Tələbələrin mobilliyinə gəldikdə isə əksər tələbələrin iddialarına əsasən - yəni verilən cavablardan 90%-dən çoxuna əsasən tələbələrin heç birinin xarici ölkədə hər hansı bir treninq, mübadilə, təcrübə proqramlarında iştirak etmədiyi məlum olub. Tələbələrin 36%-i həm də onu qeyd edib ki, təhsil aldıqları müddətdə xaricdə təhsillə bağlı heç bir şəkildə dəstək görməyiblər. Daha 36% tələbə isə xaricdə təhsillə bağlı maddi dəstək almaqla bağlı onlara indiyədək məlumat verilmədiyini qeyd edib. Buna başlıca səbəb isə ölkədə tələbələrə dəstək dedikdə ilk ağıla gələn dəstəyin təqaüd və təhsil haqqına güzəşt olmasıdır.

Məlumdur ki, tələbələrə təhsil həyatları boyunca dərslərlə yanaşı müxtəlif xidmətlərdən yararlanmaq şansı da tanınır. Mövcud xidmətlərin faydalılığını və əlçatanlığını ölçmək üçün verilən suallara verilən cavablarda da tələbələrin verdiyi cavablar əksər hallarda "yox" olub. Belə ki, karyera mərkəzi, psixoloji konsultasiya, əlavə dil dərsləri kimi xidmətlərin yer aldığı universitetlərin heç birində bu xidmətlər adekvat şəkildə tələbələrin istifadəsin olmayıb. Tələbələrin iştirakının qismən daha çox yer verildiyi məşğuliyyətlərdən başlıcası olaraq isə xaricdə təhsil imkanları ilə bağlı tədbirlərin keçirilməsi qeyd olunub.

Təhsil pilləleriylə bağlı digər mübahisəli məsələ isə tələbələrin məzun olduqdan sonra özünüməşğulluğudur. Bu araşdırmada tələbələrin bakalavr təhsili bitirdikdən sonra iş həyatına özlərini nə dərəcədə hazır hiss etdikləri öyrənilib. Nəticələr isə onu göstərir ki, iştirakçılardan 34%-i bakalavr təhsilini bitirdikdən sonra iş həyatına atılmaq fikriylə qətiyyən razı olmadıqlarını, 25%-i razı olmadıqlarını, digər 25% isə razılaşdıqlarını və qalan tələbələr - yəni, 7% iştirakçı isə tam razı olduqlarını bildiriblər. Ümumilikdə, tələbələrin 55%-i düşünür ki, magistratura təhsili olmadan işləmək mümkün olsa da, bu zaman məzunların qarşısına qoyulan iş üzrə seçim imkanları məhdud sayda olur. Tələbələrdən sadəcə 34% vəziyyətə məsələyə müsbət perspektivdən yanaşır. Geriyə qalan 11% tələbə isə mövzuyla bağlı neytral cavab verib.

Tələbələrin daxili qiymətləndirmə, müəssisənin, fakültənin, proqramların və fənnlərin monitorinqi kimi məsələlərdə nə dərəcədə iştirak etdiyi araşdırılmış və onlardan yalnız fakültə və ya ayrı-ayrı fənnlər haqqında nə düşündükləri barədə fikirlərin alındığı ortaya çıxmışdır. Tələbələr müəssisənin və ya proqramların qiymətləndirilməsi kimi prosedurlara cəlb olunmamışdır.

Azərbaycan universitetlərində tələbəyönümlü öyrənmə bir neçə öyrənmə istiqaməti üzrə aparıla bilər. Bu fəaliyyətəsaslı, təcrübə yolu ilə, əməkdaşlıq çərçivəsində və ya özününizamlama əsaslı ola bilər. Fəal öyrənmənin təbliği və stimullaşdırılması üçün tələbələr üçün əlverişli öyrənmə mühitləri - müasir tədris vəsaitləri, texnologiya və digər laboratoriya cihazları ilə təşkil olunmuş otaqlar, oxu zalları, kitabxanalar, universitet şəhərcikləri yaradıla bilər. Hazırda əksər universitetlər ilk sadalananlarla daha çox təchiz olunsa da, təəssüf ki, universitet şəhərciklərinin salınması bir çox universitetlər üçün prioritet məsələ deyil.

Yuxarıdakı standartla bağlı fəaliyyət göstəricilərinin bir neçəsini ümumi mənzərəni təsvir etmək üçün dəyərləndirək. Universitetin tələbə yönümlü olduğunu göstərən əsas amillər sırasına digər ali təhsil müəssisələrindən köçürülən tələbə sayı da yer alır. Buna həmçinin ölkə xaricindən olan tələbələr də daxildir. Azərbaycan universitetlərində təhsil alan xarici tələbələrin sonuncu - 2022-2023-cü tədris ili üzrə sayı 9000-ə yaxındır. Bu tələbələr dünyanın 110 fərqli ölkəsindən olan vətəndaşlardır. Ötən illərlə müqayisədə ölkəmizdə təhsil alan əcnəbi və vətəndaşlığı olmayan tələbələrin sayında artım müşahidə olunmuşdur. Onlar yerli universitetlərə həmin ali təhsil müəssisələrinin elan etdiyi qəbula qatılmaqla müraciət edirlər. Statistik təhlilə əsasən, Azərbaycan Tibb Universiteti xarici tələbələrin müraciətinin böyük çoxluq təşkil etdiyi ali təhsil müəssisəsidir. Özəl ali universitetlərdən isə Odlar Yurdu, Bakı Avrasiya Universiteti və Xəzər Universiteti xarici tələbələrin qəbuluna görə digər universitetləri qabaqlayır. Buna səbəb isə tədrisin ingilis dilində olmasıdır (6). Ümumiyyətlə, xarici ölkə vətəndaşlarının ölkə təhsilinə cəlb olunması istiqamətində 9000-ə yaxın xarici tələbəyə çatmaq Azərbaycan təhsil tarixində bir ilkdir. Gələcək illərdə isə bu rəqəmin 15-20% daha da artırılması planlaşdırılır. Buna nail olmaq isə təhsil proqramlarının keyfiyyəti, qrantlarının tətbiqi, mobillik layihələrinin məqsədəuyğum tərtib olunması və digər bu kimi amillərdən asılıdır.

Ancaq oxşar təhlili Azərbaycan təhsil müəssisələri əvəzinə xarici universitetlərə axın edən tələbələr üçün aparsaq görərik ki, təhsil üçün başqa ölkələrə üz tutan azərbaycanlı tələbələrin sayı da heç də az deyil. Tələbələr xarici ölkələrin ali təhsil müəssisələrinə iki yolla müraciət edir: Dövlət xətti ilə və ya özləri birbaşa müraciət etməklə. Dövlət xətti ilə müraciət üçün müraciət edilə biləcək ölkə sayı məhdud olduğundan və bir sıra digər səbəblərdən tələbələr əksər hallarda bir çox universitetlərə özləri birbaşa müraciət edirlər. Son illərdə xarici ölkələrə təhsil üçün gedən tələbələrin artması və dövlət xətti ilə təhsil alan tələbələrin sayının digər illərlə müqayisədə azalması bunu deməyə əsas verir.

**Xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan Azərbaycan vətəndaşlarının sayı (tədris ilinin əvvəlinə, nəfər) (7).**

| Ölkələrin adı | 2000/ 2001 | 2005/ 2006 | 2007/ 2008 | 2008/ 2009[2)] | 2009/ 2010[2)] | 2010/ 2011 | 2011/ 2012 | 2012/ 2013 | 2013/2014 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi | 919 | 1182 | 1256 | 1625 | 2041 | 2055 | 2096 | 2270 | 3035 |

| Ölkələrin adı | 2014 /2015 | 2015 /2016 | 2016 /2017 | 2017 /2018 | 2018/ 2019 | 2019/ 2020 | 2020/ 2021 | 2021 /2022 |
|---|---|---|---|---|---|---|---|---|
| Cəmi | 2911 | 2998 | 2197 | 1800 | 751 | 807 | 975 | 717 |

**Professor-müəllim heyəti.**

Hazırda ali təhsil müəssisələrində fəaliyyət göstərən professor-müəllim heyətinin sayı 2021-ci ilə aid siyahıya əsasən 14939 nəfər təşkil edir. Bu rəqəm son illərdə demək olar ki, öz sabitliyini

qorumuşdur. Professor-müəllim heyətinin əsas bilik və bacarıq göstəriciləri onların əldə etdikləri kvalifikasiyalarla ölçülür. Ali təhsil müəssisələrində hazırda elmlər doktoru olanların sayı 1360 nəfərdir. Bu isə təhsil illər üzrə 2000-ci ildən bugünədək müşahidə edilmiş ən yuxarı göstəricidir. Bundan əlavə ali təhsil müəssisələrində hazırda 5688 fəlsəfə doktoru fəaliyyət göstərir. Elmi ad professor olan 1035, dosent olan 3916 nəfər fəaliyyət göstərir. Elmi dərəcələri və adı olan professor-müəllim heyətinin böyük bir qismi dövlət ali təhsil müəssisələrinin payına düşür (8). Paris nazirlər konfransında bəhs olunan əsas məqamlardan biri də 40 ölkədə akademik heyətin sayında artımla və akademik heyətin tərkibindəki qadınların sayı ilə bağlı idi. Hazırda Bolonya prosesinə qoşulan ölkələr üzrə ümumilikdə ali təhsil müəssisələrində çalışan heyətin 45%-ini qadınlar təşkil edir. Azərbaycanda isə bu say daha da böyük çoxluq təşkil edir. Hazırda ölkə universitetlərində fəaliyyət göstərən professor-müəllim heyətindən 8067 nəfəri qadındır. Bu isə heyətin yarıdan çoxu deməkdir. Təhsildə və professor-müəllim heyəti üzrə keyfiyyətin təminatı akademik heyətin sayı və gender mütənasibliyindən əlavə digər mühüm faktorlardan da asılıdır. Bunlardan biri də professor-müəllim heyətinin ortalama yaş kateqoriyasıdır. Bolonya prosesinə qoşulan ölkələrin əksəriyyətində professor müəllim heyətinin 40%-i və ya daha çoxunu yaşı 50-dən çox olan müəllimlər təşkil edir. Lakin bu məlumatın yer aldığı Bolonya hesabatında Azərbaycana aid statistika qeyd olunmayıb. Ümumiyyətlə, ali təhsil müəssisələrində çalışan professor-müəllim heyətinin yaş ortalamasına aid ümumi yerli statistika olmasa da ayrı-ayrı universitetlər üçün buna dair bir sıra məlumatlar var. Məsələn, Bakı Mühəndislik Universiteti nisbətən daha gənc kadrlar çalışır. Burada heyətin ümumi yaş ortalaması 43-dür (9). Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti üçün isə bu ortalama yaş 50-nin üzərindədir. Hətta BDU-nun mətbuat katibinin 2018-ci ildə verdiyi məlumata əsasən universitetdə yaşı 75-dən yuxarı olan 139 nəfər akademik fəaliyyət göstərir. Həmin il üçün ADPU-da çalışan və yaşı 70-dən yuxarı olan müəllimlərin sayı da 136 nəfər təşkil edib. Ali təhsil müəssisələrində kadrların gəncləşdirilməsi baxımından bu rəqəmlər çox şey ifadə edir. Azərbaycan Texniki Universiteti, Bakı Mühəndislik Universiteti, Qərbi Kaspi Universiteti və bu kimi bir sıra digər universitetlərdə magistratura, doktorantura təhsilini bitirən tələbələrlə görüşlər keçirilərək onların müvafiq ixtisaslar üzrə akademik fəaliyyət göstərmələrinə şərait yaradılır (10).

**Təhsil resursları və tələbələrə dəstək.**

Bu barədə Bolonya prosesinin, standart və təlimatların ali təhsil müəssisələrinin üzərinə qoyduğu öhdəliyi Azərbaycan universitetləri də müəyyən dərəcədə yetirir. Tələbələr üçün təmin olunan fiziki resurslar, kitabxana resursları, avadanlıqlar və onların istifadə ayrı-ayrı universitetlərdə fərqli şəkidə istifadədədir. Əksər universitetlərin daxilində tələbələrin istifadəsinə açıq kitabxana fəaliyyət göstərsə də, elektron kitabxana və ya kitabxana informasiya mərkəzi mövcud deyil. Hazırda təhsilin rəqəmsallaşdığı bir dövrdə lazımi resursların da elektron formatda tələbələr üçün əlçatan hala gətirilməsi də aktual məsələdir. Ancaq bu barədə yetərli qədər intensiv işlər və inkişaf addımları hələ də aparılmır. Bu barədə görülə biləcək işlərdən biri Avropa Tələbələr Birliyinə qoşulmaqdan ibarətdir. Belə ki, ATB 1982-ci ildən bəri Avropada tələbələrin hüquqlarını müdafiə edən təşkilat olaraq fəaliyyət göstərir. ATB fəaliyyəti çərçivəsində Ukrayna, Gürcüstan, Ermənistan kimi region ölkələri də daxil olmaqla - 40 ölkənin milli tələbələr birlikləri ilə çalışır. Qeyd edək ki, ölkəmizdə milli və rəsmi, aktiv fəaliyyətdə olan tələbələr birliyi də mövcud deyil. "Ali təhsil haqqında qanun" layihəsində Azərbaycanda tələbələr birliyinin yaradılacağına dair məlumatlar ölkə mətbuatına yansısa da hələlik, rəsmi fəaliyyətə başlayan bir qurum mövcud deyil. Ancaq belə bir qurumun olması tələbələrin hüquqlarını müdafiə edən vahid rəsmi bir təşkilatın olması mənasına gəlir. Bununla yanaşı tələbələrin təhsil prosesində qarşılaşdıqları ümumi məsələlərin həlli, bu barədə layihələrin tərtib olunması, xarici agentliklər və təşkilatlarla əməkdaşlıqların qurulması baxımından da səmərəli olar. Məsələn, istər Bolonya hesabatlarında, istər də digər ölkələrlə müqayisəli təhlillərin yer aldığı digər rəsmi beynəlxalq sənədlərdə ölkədə vəziyyətin nə yerdə olduğunu anlamaq çətindir. Ona görə ki, həmin durumlarla bağlı dəyərləndirmələrin aparılmasında maraqlı və ya məsul olan bir qurum hələlik mövcud deyil.

Weimerin bu barədə yazılarında qeyd olunur ki, əksər tələbələr onlara təlimat verilmədiyi halda özləri öz üzərində işləməkdə çətinlik çəkirlər (Wright, 2011: 94). Bu isə o deməkdir ki, fənnyönümlü və ya müəllimyönümlü təhsil metodları tələbələrin müstəqil öyrənmə bacarıqlarının inkişaf etməsi üçün yetərli deyil. Davamlı olaraq tədris vəsaitindən, müəllimin öyrətmə metodlarından asılı olmaq tələbələrdə buna qarşı meyl yaradır. Ona görə də özününizamlama yolu ilə öyrənmənin aşılanması üçün tələbəyönümlü tədrisin aparılması mütləqdir (Wulf, 2018: 47).

Ötən illərdə Azərbaycan universitetlərinin Bolonya prosesinin bir öhdəliyi olaraq tələbə iştirakına nə qədər yer verdiyi sorğular və müsahibələr yolu ilə araşdırılmışdır. Araşdırmaların nəticəsi isə onu deməyə əsas verir ki, əksər tələbələr kurikulumun tərtibində iştirak etməmişdir. Bu göstərici dəqiq rəqəmlərlə ifadə etsək 2400-ə yaxın tələbənin 85%-ini təşkil edib. Bu məsələnin tələbəyönümlü təhsil ilə bağlı əsas meyarlardan biri olduğunu nəzərə alsaq universitetlərin bu mövzuda tələbəmərkəzli olmadığını görürük. Oxşar hallar daxili qiymətləndirmə proseslərində, tələbə dəstək xidmətlərinin işində də özünü göstərir.

## Nəticə

Nəticə etibarilə, tələbəyönümlü təhsil digər ölkələrdəki olduğu kimi Azərbaycan ali təhsil müəssisələrinin də təbliğinə yer ayırdığı məsələ olmalıdır. Tələbəyönümlü təhsilin təsirilə dəyişən müəllim tələbə münasibətləri müsbət inkişaf yönündə istifadə olunmalı, tələbələrin sonrakı həyata hazırlıq prosesi müəllimlərlə əməkdaşlıq çərçivəsində də stimullaşmalıdır. Avropa Standart və Təlimatlarının qarşıya qoyduğu tələblər düzgün şəkildə həyata keçirilməli, buna sadəcə formal sənəd kimi baxmaqdan çəkinməklə təlimatlara riayət edilməlidir. Ali təhsil müəssisələrində tələbəyönümlü təhsil ilə bağlı müəssisə mədəniyyəti formalaşdırımalı, mühit buna uyğunlaşdırılmalıdır. Bununla bağlı tədqiqatlar və onların nəticələri dərindən təhlil edilməli və nəticələri üzərində layihələr hazırlanmalıdır.

## Ədəbiyyat

1. Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar (ESG). (2015). https://www.erasmusplus.org.az/images/uploader/1dc7a-ESG%20for%20QA_2015.pdf
2. Karseth, B. (2006) Curriculum Restructuring in Higher Education, 257 p.
3. Klemencic, M. (2020). Successful Design of Student-Centered Learning and Instruction (SCLI) Ecosystems in the European Higher Education Area, 1 p.
4. https://www.esu-online.org/wp-content/uploads/2021/01/BWSE2020-Publication_WEB2.pdf
5. Valiyev, A., Mammadova, L. (2020). Azerbaijan and European Higher EducationArea: Students' Involvement in Bologna Reforms, 35 p.
6. https://edu.gov.az/az/news-and-updates/19503-1
7. https://www.stat.gov.az/source/education/
8. https://www.stat.gov.az/source/education/az/001_8_18-20.xls
9. https://muallim.edu.az/news.php?id=14504
10. https://modern.az/tehsil/157633/bu-universitetlerde-yasi-70-i-tmus-muellimler-de-calisir-siyahi-/
11. Wright, G. (2011). Student-Centered Learning in Higher Education., International Journal of Teaching and Learning in Higher Education, 94 p.
12. Wulf, C. (2019). Constructivist Learning Approaches as a Theoretical Background to a Student-Centered Learning Culture, 47 p.

Göndərildi: 19.03.2023 Qəbul edildi: 29.05.2023

DOI: https://doi.org/10.36719/2663-4619/91/111-115

**İmdad Kərimli**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
kerimov.imdad@gmail.com

# HAYAO MİYAZAKİ YARADICILIĞINDA DİNİ MOTİVLƏRİN TƏZAHÜRÜ

**Xülasə**

Hayao Miyazakinin filmlərində bəzi dini motivlərin izlərini görmək mümkündür. Miyazakinin əsərləri tez-tez Şintoizm, Buddizm və fövqəltəbii inanclar kimi Yapon mədəniyyətinin elementlərini əks etdirir. Bu elementlər bəzən filmlərdə simvolik olaraq istifadə olunur və hekayənin atmosferinə və ya personajların davranışlarına təsir göstərir.

Məsələn, “Ruhların qaçışı” filmindəki Cadugər malikanəsində Yapon mifologiyasında “Yokai” varlıqları və onların hekayələri qarışığı var. Həmçinin, bu filmdə hamam ilahəsi Yu-Baaba kimi dini və fövqəltəbii elementlər və personajların ruhlarını təmsil edən rəngli peçenyelər var.

Eynilə, “Şahzadə Mononoke” (Princess Mononoke) filmində meşədə yaşayan tanrılar və təbiət ruhları Şintoizmdəki təbiət tanrılarına bənzəyir. Film təbiətin qorunması və insanların təbiətlə harmoniyada yaşaması kimi ekoloji və etik mövzulardan bəhs edərkən, fövqəltəbii varlıqlar vasitəsilə dini motivlərə də istinad edir.

***Açar sözlər:*** *din, incəsənət, anime, film, yaradıcılıq*

**Imdad Karimli**
Azerbaijan State University of Culture and Arts
master student
kerimov.imdad@gmail.com

## Manifestation of religious motives in the creation of Hayao Miyazaki

**Abstract**

It is possible to see traces of some religious motifs in the films of Hayao Miyazaki. Miyazaki's works often reflect elements of Japanese culture such as Shintoism, Buddhism, and supernatural beliefs. These elements are sometimes used symbolically in films and affect the atmosphere of the story or the behavior of the characters.

For example, the Witch's Mansion in Spirit Run features a mixture of 'Yokai' beings and their stories from Japanese mythology. Also, this film has religious and supernatural elements, such as Yu-Baaba, the goddess of the bath, and colorful cookies that represent the spirits of the characters.

Similarly, the gods and nature spirits living in the forest in Princess Mononoke are similar to the nature gods of Shintoism. While the film deals with ecological and ethical issues such as nature conservation and humans living in harmony with nature, it also refers to religious motifs through supernatural beings.

***Keywords:*** *religion, art, anime, film, creativity*

## Giriş

Animasiya, fransız mənşəli bir sözdür, kağız üzərində çəkilmiş təsvirlərin və ya əşyaların sürətli hərəkəti və transformasiyası nəticəsində yaranır, cansız, hərəkətsiz təsvirlərin canlı olması illüziyasını yaradır. Animasiya ustası Norman McLaren, animasiyanı hərəkət edən rəsmlər deyil, çəkilmişlərin hərəkət sənəti kimi müəyyən etmişdir. McLarenə görə; İki kadr arasında baş verənlər kadrın üstündə olandan daha vacibdir. Beləliklə, animasiya “kadrlar arasında görünməz intervallar yaratmaq sənətidir” (Senler, 2005: 103).

Animasiya sözünün yaponca versiyası olan “anime” sözü yapon rəssamları tərəfindən hazırlanmış animasiya əsərlərinin adlarını vermək üçün istifadə olunur. Yapon olmayanlar üçün bu fərq və təsnifat daha çox filmin etnik mənşəyini göstərir (Ono Shinto, 2004: 9). Çünki animenin ortaq olduğu mədəniyyət Yaponiyada populyar mədəniyyətdir, ABŞ-da isə subkulturadır. Lakin bu, dəyərlərin dəyişkənliyinə mütənasib olaraq dəyişə bilər (Oztekin, 2011: 272).

5 yanvar 1941-ci ildə Tokioda anadan olan Miyazaki ailəsinin dörd oğlunun ikincisidir. Atası döyüş təyyarələri üçün hissələri istehsal edən bir şirkətin meneceri idi. Miyazaki həm atasının müharibəyə töhfə verən peşəsi, həm də böhran anlarında belə ətraflarından daha rahat həyat sürdükləri üçün həyatı boyu özünü günahkar hiss edib (Sheko, 2017: 166-187). Avtoritar və maarifçi qadın olan anası 1947-1955-ci illər arasında onurğa vərəmi adlı xəstəlik səbəbindən xəstəxanaya yerləşdirilib. Müharibə ilə əlaqədar müxtəlif məktəblərdə oxumalı olmuşdur.

Miyazaki orta məktəb illərində heyran olduğu Tezuka kimi komiks illüstratoru olmaq istəyirdi, lakin o günə qədər yalnız təyyarə və döyüş gəmiləri çəkən insan fiqurları ilə maraqlanmırdı. 1958-ci ildə Toei studiyaları tərəfindən buraxılan ilk rəngli anime filmi olan Hakuja Den onu heyran edəcək və cizgi filminə üz tutmasına səbəb olacaqdı. 1962-ci ildə Qakushuin Universitetində beynəlxalq münasibətlər və iqtisadiyyat üzrə təhsil almağa başlayıb. Yapon imperator ailəsi ilə sıx əlaqəsi olan bu universitetdə oxuyarkən marksizmin təsiri altına düşür. Oxuduğu fakültəyə baxmayaraq, o, animasiya arzusundan əl çəkməmiş və davamlı olaraq rəsm çəkərək bunun yollarını axtarırdı. Bu arada, onun məktəbdə uşaq ədəbiyyatı tədqiqat cəmiyyətini kəşf etməsi onun həyatında yeni bir dönüş nöqtəsi olub. O, dostu Takahata ilə Toei Animation Company-də animator kimi işə başlayır. 1965-ci ildə o, Takahata və animasiya rejissoru Otsuka Yasuo ilə Günəş Şahzadəsi: Horus anime filmi üzərində işləməyə başladı. Rejissorların istəyi ilə işçi qrupuna qatılan Miyazaki filmin çəkilişində əsas rol oynadı və Horus Miyazakinin karyerası üçün mühüm bir addım atdı.

Müharibədən sonrakı manqa üslubunun memarı Osamu Tezukadır. Yaponiyada “manqa tanrısı” kimi tanınan Osamu Tezuka, Miyazaki kimi özündən sonra gələn bir çox sənətçiyə təsir edib (Alicenap, 2012: 11).

Yenə 1965-ci ildə o, daha sonra ABŞ-a satılan Qulliverin Kosmos Səyahətləri adlı Disney üslublu bir istehsal üzərində çalışdı. Miyazaki 1969-cu ildə çəkilmiş “Çəkməli pişik” anime filmində animator kimi çalışıb. Film Moskva Film Festivalında mükafat qazanıb. Elə həmin il Toei animasiya meneceri Akemi Ota ilə evləndi və oğlu Qoro dünyaya gəldi. Toei Studio televiziya üçün hazır seriallar hazırlamağa başlayanda cizgi filmi fabrikinə çevrilir. Miyazaki bu vəziyyətdən narahat olur; çünki belə bir fabrikdə çalışmaqla arzularını həyata keçirə bilməyəcəyinin fərqində idi. Tezukanın ilk əsərlərində Disney təsiri üstünlük təşkil edir. Yeni şeyləri sınamaqdan qorxmayan Tezuka yapon oxucuları üçün manqadan animeye qədər yol açıb. Manqaya şojo tərzini və iri gözləri gətirən Tezukadır (Oztekin, 2011: 272). 1971-ci ildə Miyazaki və Takahata yeni A-pro animasiya şirkətinə qoşulmaq üçün Toei-dən ayrıldılar. Onlar burada işləyərkən Astrid Lindqrenin “Pippi Uzuncorablar” hekayəsinin uyğunlaşdırılmasının müəllif hüququnu almaq üçün İsveçə getdilər, lakin bu, uğursuz oldu. Bundan əlavə, Miyazaki və Takahata 1972-ci ildə birlikdə Panda Kopanda filmini çəkdilər. Bu filmin qəhrəmanı olan kiçik qız Pippiyə bənzəyir. Televiziya üçün seriallar hazırlamağa davam edən ikili 1974-cü ildə ölkəmizdə də nümayiş etdirilən Heidi adlı anime serialını çəkib. 1978-ci ildə Miyazaki dünya klassikası seriallarından başqa yazıb rejissorluq etdiyi “TV 23 Future Boy Conan” serialını çəkir. O, ölkəmizdə də yayımlanan “Yaşılın qızı Anne” serialından çəkilişdə olduğu müddətdə öz filmlərini idarə etmək üçün setdən ayrılıb (Sheko, 2017: 166-187). Nausicaa-dan sonra o və Takahata 1985-ci ildə Studio Ghibli adlı öz animasiya studiyasını qurdular. 1986-cı ildə Miyazaki Studio Ghibli-nin ilk filmi olan Göydəki Qala: Laputa filmini çəkir. 1988-ci ildə o, hekayəsini özünün yazdığı "Qonşum Totoro" filmini çəkir. Film həm də Miyazakinin həyatı və anasının xəstəliyi ilə paralel olduğu üçün bioqrafik sayılır (Napier, 2008: 364).

1997-ci ildə buraxılan Princess Mononoke süjet və animasiya texnikası ilə məşhurlaşdı və o dövrdə Yaponiyadan kənarda Yapon animasiyasının artan populyarlığına böyük töhfə verdi. “Princess Mononoke” filminin istehsalı zamanı Ghibli, Disney studiyası ilə müqavilə bağladı və

Ghibli istehsalı filmlər üçün beynəlxalq kino hüquqlarını əldə etdi (Sheko, 2017: 166-187). 2001-ci ildə "Spirited Away" ilə Miyazaki karyerasının yüksək nöqtəsinə çatdı. Berlin Film Festivalında ilk dəfə cizgi filminə baş mükafat verildikdə böyük şöhrət qazandı. Daha sonra Amerika Kino Akademiyası tərəfindən verilən Ən Yaxşı Animasiya Oskar mükafatını aldı. "Spirited Away" filminin böyük uğurundan sonra o, 2004-cü ildə Diana Wynne Jones-un eyniadlı romanı əsasında "Howl's Walking Castle" filmini çəkdi. 2004-2008-ci illər arasında böyüklər üçün manqa seriyasını nəşr etməyə davam etdi və 2008-ci ildə bir çox mükafata layiq görülən "Kiçik Su Pərisi Ponyo" - nu təqdim etdi. 2010-cu ildə "Ekstremistlər", 2011-ci ildə isə "Təpədə ev" filminin ssenarisini və prodüserini öz üzərinə götürdü. İnanıram ki, uşaqların ruhu əvvəlki nəsillərin tarixi yaddaşının varisləridir. Düşünürəm ki, onlar qocalanda və yaddaşın batdığı gündəlik dünyanı təcrübə etdiklərində sadəcə dərinlərə enən bir film çəkməli olduğumu düşünürəm. Bu səviyyəyə çata bilsəm, xoşbəxt öləcəm (Brooks, 2005).

Miyazaki filmləri ekoloji filmlərdir. Bu ekolojizm əsasən ekosentrikdir və Yapon dini və mədəni həyatı ilə formalaşan ekoloji etikaya əsaslanır. Miyazakinin filmlərində ekosentrik ekoloji etikanı təmsil edən qəhrəmanlar tez-tez antroposentrik ekoloji etikanı müdafiə edən qəhrəmanlarla toqquşur. Onun filmlərində insan hansı məqsədlə olursa olsun, kainat üzərində qeyri-məhdud hakimiyyətə malik deyil. Təbiət öz bitkiləri və heyvanları ilə canlıdır, hissləri olan bir orqanizmdir. Miyazakinin animeləri ilə o, kartezyen fəlsəfənin məhsulu olan, özünü mərkəzləşdirən, təbiətlə ağa-qul münasibəti olan qərb əxlaq anlayışına qarşı az qala müharibə elan edir. Buna görə də bu ekosentrikliyin izlərini "Totoro", "Göydəki Qala", "Küləkli Vadi", "Balaca dəniz qızı Ponyo" və "Mononoke"-də görmək olar (8).

Yapon inanc sistemi tarixdən əvvəlki dövrlərdən, digər Asiya dinlərindən və fəlsəfələrindən animistik inanc formalarının təsiri ilə indiki formasını almışdır. Şintoizm həm də Yapon adalarında Ural-Altay xalqlarının animistik əsaslı Şamanizm təliminin davamı kimi də görülə bilər (Demirci, Shintoism, 2010: 177-178). Miyazakinin filmləri insanı təbiətlə eyniləşdirən, hətta bəzən təbiəti ilahiləşdirən bir inanc sistemindən irəli gəlir. Məsələn, "Balaca dəniz qızı Ponyo" filmində Ponyonun atası insanların okeanı çirkləndirdiyinə qəzəblənir. Ona görə də bir vaxtlar insan olanda okeanda yaşamağa qərar verib. O, bu qəzəbinə görə Ponyonun insanlar arasında yaşamasını istəmir. "Göydəki qala" distopik şəkildə göstərir ki, insan özünü kainatın ağası kimi görsə nələr baş verə bilər və Laputa hər cəhətdən bunun üçün bir modeldir. Miyazakinin filmlərində bu asılılıq və kainatın bir parçası olmaq təkcə ekoloji problemlər kontekstində deyil, həm də inanc kontekstində işlənir. Kainat cansız bir varlıq deyil, üzvi varlıqdır və hər şey bir-birinə çox incə tarazlıqlarla bağlıdır. Bu tarazlığın pozulması ekoloji problemlər adlandırdığımız və bu gün bütün dünyanı təhdid edən problemlərin yaranmasına səbəb olur. Modernizm və pozitivizmi yaşamış günümüzün postmodern insanı təkcə təbiətdə deyil, müqəddəs ənənələrdə və səmavi dinlərdə də yeni perspektivlər axtarır (Alicenap, 2012). Miyazakinin kinosu eniş-yoxuşlarla doludur. Məsələn, məsihçi bir xilas hekayəsindən sonra bədbin nikbinliyi təsvir edə bilər. Miyazakinin filmləri də sakitdir, bu sakitliyə nail olmaq üçün pik anları yerinə əks etdirən sakit anlardan istifadə edir. Tamaşaçı və personaj bu anları və məkanları birlikdə yaşayır, birlikdə düşünür. Tamaşaçılara fürsət verir, tamaşaçı personajın yanında dayanan səssiz dost kimidir (Sheko, 2017: 166-187). Disney real həyat effektləri əldə etməyə çalışsa da, Miyazaki anime reallığını təqlid etməyə çalışır. Onun fikrincə, həqiqət xəttdə olandır və o, öz hekayəsini ancaq anime reallığında danışa bilər. Bu, onu hekayəçi edir. Hekayəçilər bunu sürreal zaman, məkan və qafiyələrlə edərkən, Miyazaki bunu 2D Cell texnikası ilə edir. Filmlərinin əvvəlindəki mifoloji musiqiləri nağıl qafiyələrinə bənzədə bilərik, sanki o, tamaşaçını sürrealizm haqqında hazırlamaq istəyir. Miyazaki müəllif rejissorudur. Rəqəmsal məlumatlar və dəyərlər effekt üçün kifayətdir və istənilən nəticələr əldə edilir, lakin Miyazakinin tamamlamaq üçün insan səyi tələb edən unikal üslubu onu hamıya məlum edir. Bu onun imzasıdır. Miyazakinin filmlərinin mərkəzində empatiya durur və hekayələrin mərkəzində realizm hissi var. Daha ciddi komik janr Gekiqadan ilhamlanmış bir üsluba malikdir (Napier, 2008: 364).

Məsələn, Ledi Eboshi meşəni yandırmaq istəyirdi, amma o, Dəmir qəsəbədə xəstələrə də qulluq edir. Onları fahişəxana qadınlarını yaxşı yaşayış şəraiti ilə təmin edir. Bu, onun filmlərinin mənəviyyatını çətinləşdirir. Onun dünyasında qəddarlıq və mərhəmət eyni anda mövcud ola bilər, lakin o, bunu tamaşaçıları heyrətamiz təqdimat və hekayə ilə qarşı-qarşıya qoymadan edir (Alicenap, 2012).

Klassik mənada animistik anlayışları özündə birləşdirən Şintoizmin birinci mərhələsi polidemonik xarakter daşıyır. Bu cinlərin kami adlanacaq tanrılara çevrilməsi sonrakı mərhələni əks etdirir. Ona görə də yapon mifologiyası ilə bağlı inanclar bu keçid dövrünün məhsuludur. Şinto əslən Çin sözüdür (şen-tao) və tanrıların yolu deməkdir. Yapon olmayanlar Yapon dinini Şinto adlandırır, yaponlar isə kami-no-miçiyə üstünlük verirlər. Yapon dini mətnlərində bu Çin sözü yaponların ənənəvi dinini 8-ci əsrdən etibarən Yaponiyada sürətlə yayılan Buddist inancından fərqləndirmək üçün qəbul edilmişdir (Ono Shinto, 2004). Şintoizm politeist din olduğu üçün saysız-hesabsız tanrılar üçün “88 milyon tanrı” ifadəsi işlədilir.

Miyazaki kinoda mənanın formalaşmasında mühüm yer tutan simvolik ifadəni vizual göstəricilərlə yanaşı şifahi göstəricilər vasitəsilə də yaradır. Qəhrəmanların ölüm, zaman, tale mübahisələri buna misaldır. Bu şifahi göstəricilər də simvolik göstəriciləri dəstəkləyir. Beləliklə, Miyazaki öz ifadələrində ikona, işarə və simvol kimi bir-birindən ayrılan Piersonun simvollarından bacarıqla istifadə etməklə kinonun dilinə töhfə verir (Miyazaki Hayao and his works, 2002). Miyazaki iki fenomen arasında əlaqə yaratmaqla kinodakı simvolik ifadəni bir daha dərk etdi. Miyazakinin filmləri mədəni bir fenomendir. Miyazaki uşaqların müdrikliyinə inanır. O, hesab edir ki, totalitar rejimlər və insanların əmtəə fetişizmi ilə əsarət altına alınması şəxsi inkişafın pozulmasına və günahsızlığın itirilməsinə səbəb olur. Sadiqliyə, minnətdarlığa, cəsarətə, fədakarlığa, sevgiyə, dəyərlərə və şəfaya inanır. Miyazaki öz ölkəsinin itirilmiş nəsillərinə mənsub olmaq probleminin səsi olmağı bacarıb (Oztekin, 2011: 272).

Miyazakinin filmlərindəki mövzular; güclü qadınlar, uçma sevgisi və təyyarə, ekosistemin taleyi, sosial psixoloji siyasi iqtisadi məsələlər, kollektiv şüur, şəxsiyyət quruculuğu, yapon dini və mənəvi dəyərləri.

Onun filmlərində bioqrafik elementlər də var. Totoroda anasının xəstəliyini xatırlayarkən, ailəsinin müharibədə iştirak edən bir təyyarə şirkətinə sahib olması Porco Rosso filminə təsir etdi (Napier, 2008: 364).

Şəxsi məsuliyyət və müstəqillik hissinin inkişafı, Yaponiyada psixoloji və emosional inkişafın çətinlikləri və gözəllikləri, etik imperativlər və digər mədəniyyətlərdə tematik və struktur motiv kimi müəyyən edilə bilən şeylər Miyazakidə adi haldır. Miyazaki millətçidir, lakin filmlərində yapon mövzularına toxunarkən etnosentriklikdən qaçır (Aguero, Singh).

Miyazakinin filmlərində təbiət öz muxtariyyətini və güc olaraq qəbulunu itirib və keçmiş üçün nostaljiyə ehtiyac duymur. Heç bir şey əvvəlki vəziyyətinə qayıtmır. Bunun əvəzinə insanların texnologiyaya uyğun birgə yaşayışa ehtiyacı var. Miyazaki ətraf mühit və yapon dəyərlərindən narahat olsa da, heç vaxt təbliğat aparmır. Onun filmlərində canilər azdır. Amerikanın ən yaxşı uşaq filmlərində belə dünyanın gözəl və çirkin, yaxşı və pis, ağ-qara kimi təsvir olunması Miyazakinin xoşuna gəlmir. Miyazakinin fikrincə, antaqonistlər tez-tez etdiklərini etmək üçün öz keyfiyyətlərini və motivasiyalarını ortaya qoyurlar. Miyazaki 2005-ci ildə verdiyi müsahibədə demişdi ki, uşaqlara bədbinlik çatdırmaq istəmir. “Mən uşaqları bədbinlikdən uzaqlaşdırıram və böyüklərin dünyaya öz baxışlarını uşaqlara yansıtmamalarını istəyirəm. Uşaqlar öz vizyonlarını formalaşdıra bilərlər”.

Antroponoz dəri leyşmaniozunun rezervuarlarını dəqiqləşdirmək üçün 1969-cu ildə bu xəstəliyin ocağında (Kirovabad) H.B.Həsənzadə tərəfindən itlərin və gəmiricilərin müayinəsi aparılmış, yəni 184 it və 38 siçovula baxılmış onlardan 118 it və 29 siçovul yarılaraq müayinə olunmuş mənfi cavab alınmış və nəticə olaraq Azərbaycanda itlərin və gəmiricilərin antroponoz dəri leyşmaniozu ilə təbii yoluxmasının mövcud olmaması qeyd olunmuşdur, yəni antroponoz dəri leyşmaniozunun mənbəyi xəstə insanlardır (Gasanzade, 1977).

Dəri leyşmaniozunun kompleks şəkildə tədqiq edilməsi məqsədilə Aərbaycanda ilk dəfə antroponoz dəri leyşmaniozu və visseral leyşmaniozu xəstələrdən törədicini əldə edərək onların xüsusiyyətləri öyrənilmişdir.

Dəri leyşmaniozunun törədicisinin laboratoriyada kulturası alınmış və Moskva N.F.Qamaleyə adına Elmi Tədqiqat epidemiologiya institutunda referens ştamlarla müqayisə edilərək L.tropica növü olduğu təsdiqlənmişdir.

Bundan başqa antroponoz dəri leyşmaniozunun törədicisinin -L.tropica (Azərbaycandan), zoonoz dəri leyşmaniozu törədicisi olan L.major (Türkmənistandan) və L.donovani arasında olan seroloji fərqlər izoferment analizinə əsasən aşkar edilib (Aliyev, 1971). Bundan başqa L.tropica, L.donovani, L.canis növlərinin morfologiyasına dair məlumatlar eyni zamanda L.tropica major və L.tropica minor parazitlərinin törətdiyi patoloji prosesin müqayisəli öyrənilməsinin nəticələri mətbuatda öz əksini tapmışdır (Gasanzade, Najafov, Mamedov, Aliyev, 1969: 125-131; Aliyev, 1971).

1987-ci ildən Göyçay rayonunda dəri leyşmaniozun alovlanması qeydə alındı. Bu ocaqda Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutu tərəfindən Moskvanın müvafiq institutunun mütəxəssisləri ilə birlikdə kompleks şəkildə elmi tədqiqatlar aparıldı, nəticədə bu xəstəliyin Azərbaycanda əvvəllər yayılmış antroponoz dəri leyşmaniozundan fərqli olduğu təyin olunmuşdur. Yəni elemetlərin ləng inkişafı, nekrozlaşmanın gecikməsi, üzdə olan zədələrin mərkəzində xırda nekrozun müşahidə olunması, müalicə olunmasa 1,5-2 ilə sağalması. Rusiya Tibb Akademiyasının Moskvadakı N.F.Qamaleya adına Elmi Tədqiqat Epidemiologiya İnstitutunda aparılmış tədqiqatlar göstərdi ki, tədqiq olunan dəri leyşmanioz formasının törədicisi Azərbaycanda əvvəllər geniş yayılmış visseral leyşmaniozun törədicisi L.infantumdur. Belə hallara Fransanın cənubunda və İtaliyada rast gəlməsi haqqında ədəbiyyatda məlumatlar mövcuddur (Gasanzade, Safyanova, Taghizade, 1990: 41).

Bu məlumatlardan sonra leyşmaniozlara aid çap materialları 2001-2005 illərə təsadüf edir. Onlar da xəstələrin müxtəlif ocaqlarda qeyd olunmasını və ya respublika üzrə xəstələnmə səviyyəsinin təhlilini əks edir. Məsələn, dəri leyşmaniozunun Şirvan düzənliyində yayılmasının xüsusiyyətləri (Baghirov, Abdullayev, Mahmudov, 2001: 48). Azərbaycanda visseral leyşmaniozla xəstələnmənin vəziyyəti (Baghirov, Abdullayev, Mahmudov, 2001: 52), Azərbaycanda 2000-2004-cü illərdə dəri leyşmaniozu xəstəliyinin təhlili (Baghirov, 2005: 119). Bu məqalələrdə əvvəllər tüğyan edən leyşmaniozların həm məqsədyönlü leyşmanioz əleyhinə həm də malyariya əleyhinə aparılan tədbirlər nəticəsində Şirvan düzənliyinin leyşmaniozlardan 1966-cı ildə sağlamlaşması və 1987-ci ildən yenidən dəri leyşmaniozu Göyçay, Ağdaş, İsmayıllı və Ucar rayonlarında bu xəstəliyin qeydə alınması göstərilir.

Son zamanlar bu səpkidə çap olunmuş məlumatlardan Abşeronda visseral leyşmaniozun epidemioloji xüsusiyyətləri haqqında verilən məlumatda xəstəliyin mənbəyi itlər və gəmiricilər olduğu göstərilib. Əhalinin müayinəsi aparılıb və İfa testi nəticəsində 2,6%, ELİSA müayinəsi ilə 5,48%, K – 39 testləri ilə 8,1% pozitiv nəticələr alınıb (Cəlilov, 2017: 67).

2020-ci ildə çap olunmuş bir məqalədə Azərbaycanda visseral leyşmanioz üzrə epidemioloji situasiya təhlil edilərək qeyd olunur ki, bu xəstəliyin yayılması əhalinin 100.000 nəfərə 1,7 xəstə təşkil edir, qaynar nöqtələr kimi Bərdə və Tərtər göstərilmişdir (Aghayev, Vahabov, Djalilov, 2020: 639-645).

Beləliklə, belə qənaətə gəlmək olur ki, bu vaxta kimi aparılan elmi-tədqiqat işlərinin əksəriyyəti xəstəliyin ocaqlarının ləğv edilməsi məqsədilə leyşmaniozların epidemioloji xüsusiyyətlərinin öyrənilməsi və mübarizə tədbirlərinin işlənib hazırlanmasına həsr olunub, yəni əsasən praktiki

əhəmiyyətli mövzular işlənib. Leyşmaniozların törədiciləri, keçiriciləri və rezervuara aid bəzi məsələləri məhdud şəkildə tədqiq olunmuşdur.

Azərbaycanda leyşmaniozlara aid ədəbiyyatı araşdıraraq və yuxarıda qeyd olunanları nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, leyşmaniozlar Azərbaycanda hərtərəfli və kompleks şəkildə öyrənilməsinin zərurəti mövcuddur. Belə ki, xəstələrin fəal aşkar olunaraq müalicəyə cəlb olunması, xəstələrdən törədicini alaraq kulturasının alinması, dəri leyşmaniozunun törədicisi Leishmania tropica və visseral leyşmaniozunun törədicisi Leishmania donovaninin bioloji xüsusiyyətlərinin və bu xəstəliklərin müalicəsində tətbiq olunan preparatlara qarşı rezistentliyin əmələ gəlməsinin təyini, əhalinin immunoloji statusunun öyrənilməsi, leyşmaniozların müxtəlif ocaqlarında keçiricilərin növ tərkibi, onların bioloji xüsusiyyətləri, epidemioloji əhəmiyyəti, insektisidlərə qarşı həssaslığı, xəstəliyin rezervuarları və s. öz həllini gözləyir.

## Ədəbiyyat


1. Ejov, M., Daghe, D. (2014-2020). Program. “Strategic framework for leishmaniasis control in the Eurepean region” WHO.
2. Najafov, A, Mamedov, I. (1965). “Visceral leishmaniasis in the Shirvan and Karabakh steppes of Azerbaijan and the tasks of its control”. Proceedings of the Research Instittutue of Medicial Parasitology and Tropical medicine named after S.M.Kirov. Baku vol .V, 109 p.
3. Mamedov, I. (1969). “Epidemiological characteristics of the focus of visceral leishmaniasis in the Geokchay region of the Azerbaijan SSR, characteristic of the Shirvan steppe, and the effectivinessof the measures taken”. Proceedings of the Research Instittutue of Medicial Parasitology and Tropical medicine named after S.M.Kirov. Baku, vol. VI, 57 p.
4. Qaribyan, V. (1963). “About visceral leishmaniasis in the Shamakhi region of the Azerbaijan SSR. Proceedings of the Research Instittutue of Medicial Parasitology and Tropical medicine named after S.M.Kirov. Baku, vol. IV, 107 p.
5. Taghizade, T., Gasanzade, G., Safyanova, V., Hadjibekova, E. (1989). “Visceral leishmaniasis in the Ordubad district of the Nakhicevan ASSR” Journal of Medical Parasitology and Parasitological Disease. Moscow, № 3, 22 p.
6. Gasanzade, G., Faramazov, A., Aliyeva, S., Safyanova, V. (1981). “Epidemiology of visceral leishmaniasis in Jalilabad district of the Azerbaijan SSR” Message 1 Journal of Medical Parasitology and Parasitological Disease. Moscow, № 3, 16 p.
7. Faramazov, A., Titova, I., Qracheva, L., Safyanova, V., Gasanzade, G., Abuzarov, R., Aliev, A. (1984). “Results of seroepidemiological studies of the focus of visceral leishmaniasis in the Jalilabad district of the Azerbaijan SSR” Topical issues of Medical parasitology and Tropical medicine. Baku, vol 4, 45 p.
8. Taghizade, T., Gasanzade, G., Safyanova, V., Faramazov, A., Hadjibekova, E., Shalmiyev, Q. (1985). “State of incidence of visceral leishmaniasis in Azerbaijan” Topical issues of Medical parasitology and Tropical medicine. Baku, vol 5, 45 p.
9. Najafov, A., Gasanzade, G. (1963). “Some features of the epidemiological focus of cutaneous leishmaniasis in the city of Kirovabad Azebaijan SSR” Proceedings of the Research Instittutue of Medicial Parasitology and Tropical medicine named after S.M.Kirov. Baku, vol. IV, 53 p.
10. Najafov, A. (1969). “About cutaneous leishmaniasis in a big city(City of Kirovabad Azerbaijan SSR) and the experience of its eradication’ Proceedings of the Research Instittutue of Medicial Parasitology and Tropical medicine named after S.M.Kirov. Baku, vol. VII, 71 p.
11. Gasanzade, G. (1977). “Study of thr source of infection and the biological proporties of the pathogen in anthroponotic cutaneous leishmaniasis”(abstract). Moscow.
12. Aliyev, E. (1971). “Comporative study of the antigenic properties and virulence of Leishmania using the example of Leishmania tropica major and Leishmania tropica minor” (abstract). Moscow.
13. Gasanzade, G., Najafov, A., Mamedov, I., Aliev, E. (1969). “On the morphology of leishmania L.Tropica, L.Donovani i L.Canis” Proceedings of the Research Instittutue of Medicial Parasitology and Tropical medicine named after S.M.Kirov. Baku, vol VI, p.125-131.

14. Aliyev, E. (1971). "Comporative study of the pathological process caused in golden hamsters by strains of Leishmania tropica Major, Leishmania Tropica Minor". Journal of Medical Parasitology and Parasitological Disease Moscow Med.
15. Gasanzade, G., Safyanova, V., Taghizade, T. (1990). «An outbreak of cutaneous leishmaniasis caused by Leishmania infantum in the geokchay region of Azerbaijan SSR» Journal of Medical Parasitology and Parasitological Disease. Moscow, № 2, 41 p.
16. Baghirov, G., Abdullayev, X., Mahmudov, S. (2001). «Features of the spread of cutaneous leishmaniasis in the Shirvan plain» "XXI əsrdə klinik mikrobiologiya aktual problemləri" mövzusunda Resp. elmi praktik konf məcmuəsi. Bakı, 48 s.
17. Baghirov, G., Abdullayev, X., Mahmudov, S. (2001). «O sostoyanii zabolevayemosti vistseral'nym leyshmaniozom v Azerbaydzhane». "XXI əsrdə klinik mikrobiologiya aktual problemləri" mövzusunda Resp .elmi praktik konf məcmuəsi. Bakı, 52 s.
18. Baghirov, G. (2005). "Incidence of visceral leishmaniasis in Azerbaijan in 2000-2004» Azərbaycan təbabətinin müasir nəaliyyətləri, 119 s.
19. Cəlilov, V.Ç. (2017). "2000-2016-cı illər ərzində Abşeron iqtisadi coğrafi rayonunda visseral leyşmaniozun epidemioloji xüsusiyyətləri" jurnal Azərbaycan təbabətinin müasir nəaliyyətləri, 67 s.
20. Aghayev, I., Vahabov, E., Djalilov, V. (2020). «Epidemiological situation and spatial distribution of visceral leishmaniasis in the Republic of Azerbaijan» Materoa of conferences of parasitic diseases September, 44."3", p.639-645.

Göndərildi: 11.02.2023 Qəbul edildi: 18.05.2023

DOI: https://doi.org/10.36719/2663-4619/91/133-139

**Aygun Sardarova**
Azerbaijan State Agrarian University
Ph.D in Biology
aygun.sardarova@mail.ru
**Samira Rahimova**
Baku, Azerbaijan
Ph.D student
samira.rahimova84@gmail.com

# PHYSIOLOGICAL (GROWTH AND DEVELOPMENT THROUGH THE PARAMETERS OF OPTIMAL ENVIRONMENTAL FACTORS), MORPHOLOGICAL, BIOCHEMICAL PROPERTIES AND MEDICINAL SIGNIFICANCE OF *GLYCINE MAX* L SPECIES BELONGING TO *FABACEAE.*

## Abstract

The article provides information on the physiological characteristics of Glycine max L, a leguminous plant belonging to the Fabaceae family, taking into account the influence of morphological and environmental factors. In general, the growth of the mass and size of the plant is related to the growth and development of the plant. The development of the plant is qualitative changes in the function and structure of the individual organs of the plant in ontogeny, from one stage of its organogenesis to another, from one phase of development. is to pass to another. Our main goal is to investigate the physiological regularities of plant development that depend on morphogenesis and possible ways of controlling plant development, resulting from the biochemical and biophysical processes taking place in the plant, by influencing its morphophysiological indicators with biopreparations of natural origin, by cultivating the soybean plant in different environmental conditions. At the same time, we have investigated the effect of soybean cultivation potential on its productivity and the role of biologically active substances in the physiognomic growth and development of the plant. It is also known that the Glycine max plant is used to a great extent for medicinal purposes, which was reflected in our research work. From the studies, it was concluded that there is a need to conduct more extensive research on the soybean plant. The scope of these studies covers the physiological, biochemical and molecular-genetic bases of plant productivity, as well as the study of productivity processes from the molecular level of the structural-functional organization of the life of the soybean plant to the whole plant and planting level. Takes first place. The aim of our research work is to investigate the structure of soybean plant cell, hormonal and light regulation of growth and development and other functional activities

***Keywords:*** *morphophysiology, optimal environment, biomass, glycine max, biometrics*

**Aygün Sərdarova**
Azərbaycan Dövlət Aqrar Universiteti
biologiya üzrə fəlsəfə doktoru
aygun.sardarova@mail.ru
**Samirə Rəhimova**
Bakı, Azərbaycan
doktorant
samira.rahimova84@gmail.com

# *Fabaceae* fəsiləsinə aid olan *Glycine max* l növünün fizioloji (optimal mühit amillərinin parametrləri sayəsində böyümə və inkişaf), morfoloji, biokimyəvi xüsusiyyətləri, becərilmə və istifadə əhəmiyyəti

**Xülasə**

Məqalədə Fabaceae fəsiləsinə aid dənli paxlalı bitki olan *Glycine max* L növünün morfoloji, mühit amillərinin də təsiri nəzərə alınaraq fizioloji xüsusiyyətləri haqqında məlumat verilmişdir. Ümumiyyətlə bitkinin kütləsinin (biokütlə) və ölçüsünün (biometrik) böyüməsi bitkinin boy atması və inkişafı ilə əlaqəlidir. Bitkinin inkişafı ontogenezdə bitkinin ayrı-ayrı orqanlarının funksiya və quruluşunda keyfiyyət dəyişiklikləri, onun orqanogenezin bir mərhələsindən digərinə, bir inkişaf fazasından. başqasına keçməsidir. Əsas məqsədimiz soya bitkisini müxtəlif ekoloji şəraitlərdə becərərək onun morfofizioloji göstəricilərinə təbii mənşəli biopreparatlarla təsir etməklə bitkidə gedən biokimyəvi və biofiziki proseslərdən irəli gələn, morfogenezdən və bitki inkişafına nəzarətin mümkün yollarından asılı olan bitkinin inkişafının fizioloji qanunauyğunluqlarını araşdıraq. Eyni zamanda soya bitkisinin becərilmə potensialının onun məhsuldarlığına təsiri və tərkibində olan bioloji aktiv maddələrin fizionom olaraq bitkinin böyümə və inkişafında rolunu da araşdırmışıq. Həmçinin *Glycine max* bitkisinin dərman məqsədi ilə çox əhəmiyyətli dərəcədə istifadəsi də məlumdur ki, bu da tədqiqat işimizdə öz əksini tapmışdır. Öyrənilənlərdən belə nəticə çıxarıldı ki, soya bitkisinə dair daha geniş təqqiqatlar aparmağa eytiyyac vardır. Bu tədqiqatların dairəsi bitkinin məhsuldarlığının fizoloji, biokimyəvi və molekulyar-genetik əsaslarını, eyni zamanda soya bitkisinin həyatının struktur-funksional təşkilinin molekulyar səviyyədən başlayaraq bütöv bitki və əkin səviyyəsinə qədər məhsuldarlıq proseslərinin öyrənilməsini əhatə edir. Məlumdur ki, Dənli-paxlalı bitkilər içərisində soya əkin sahəsinə görə dünyada birinci yeri tutur. Tədqiqat işimizdə məqsəd Soya bitkisinin hüceyrəsinin quruluşu, böyümə və inkişafın hormonal və işıq tənzimlənməsi və digər funksional fəaliyyətini araşdırmaqdan ibarətdir.

***Açar sözlər:*** *morfofiziologiya, optimal mühit, biokütlə, glycine max, biometrik*

## Introduction

The growth of the mass and size of the plant is related to the growth of the plant. The development of the plant is qualitative changes in the function and structure of the individual organs of the plant in ontogeny, from one stage of its organogenesis to another, from one phase of development. is to pass to another. The growth and development of the plant does not always happen simultaneously. For example, a short-day plant cannot accumulate active temperature totals in a long-term low-voltage temperature regime to move to the next phase of development in northern latitudes, in which case the plant's height increases rapidly, but its development lags behind. The active temperature necessary for the northern ecotype varieties of soybean to pass ontogenesis is only 1800 degrees, but only 600 degrees for the vegetative period, in the south they quickly collect the necessary temperature total, passing into the generative period and resulting in seed ripening (Osipov, 2004-2017: 204). They do not have enough time for the process of height growth, the plant remains short (20-30 cm), beans and seeds are in small quantities, but Its height reaches 60-80 cm and the number of pods in the plant increases to 30 in the areas of 55 degrees north latitude. To one degree or another, all external environmental factors have a complex effect on the growth and development of the plant, the product and its quality. At this time, no factor can replace the other, all of them have the same importance for the life of plants due to their physiological effects. For example, lack of lighting cannot be replaced by high temperature, excess of potassium and phosphorus cannot compensate for the deficiency. It is the physiological law of these factors that is irreplaceable and equally important. As a result of this law, the height, development, yield and quality of the plant are minimum limited by factors. Sometimes the result is explained as an independent law. Many other important consequences of the factors which are irreplaceable and of equal importance follow from the law. If the parameters of each environmental factor are optimal, all physiological processes is active in the plant, the genotype can realize its

potential productivity (Mikulovich, Lisovskaya, 2009: 8). The abundance of each factor is as harmful as its scarcity. For example, when water is abundant, soil aeration decreases, and oxygen becomes a limiting factor. As a result of this law, the factors irreplaceable and having the same importance is sometimes formulated as an independent law - optimal law. Although they are quite important, sometimes they play the main role, of these factors the parameters of some of them cannot be adjusted yet. For example, the duration of frost-free periods is limited to the interval of vegetation periods.

During the return of spring frosts, the sowing period of short-day photoperiodic plants is postponed, their vegetation period is shortened, and their potential productivity decreases. Development phase the speed of transition depends on the voltage of light emission, the higher it is, the faster the development phases replace each other. This is especially necessary for heat-loving plants. Active temperatures, which are extremely important, are predicted to be the only unregulated factor. The volume and quality of the harvest depends only on the total amount of sediments and their distribution over the growing season. The intensity of precipitation is also important. Rainwater creates large surface water troughs resulting in water erosion and poor soil wetting. The parameters of all these factors are determined according to the geographical region. The morphological and physiological characteristics of the Glycine max plant, which is the object of our research, are influenced by the two environmental factors we mentioned.

**Morphophysiology and cultivation *Glycine max* L.**

Soy is a plant that loves heat and humidity. It requires a higher temperature of 18–25 °C during flowering and ripening. Seeds germinate at a temperature of 6–8 °C. Soybean sprouts survive spring frosts around –2–5 °C. This plant requires the most water during the flowering and fruiting phase. The transpiration coefficient is about 600. The flowering phase can last 15-40 days, and up to 80 days in late-ripening varieties. Soybean is a short-day plant. Other than saline and chalky soils, other soils are suitable for soybeans (Məmmədov, 2015). Soybean grows better in soils with neutral (pH=6.5–7.0.) reaction Cultivated soybean stems are thin to thick, hairy or glabrous. The height of the stems is from very low (from 15 cm) to very high - up to 2 meters or more (Qurbanov, 2009: 263). In all species of the genus Soya, including the cultivated soybean, the leaves are trifoliate, occasionally 5, 7 and 9-leafed, with pubescent leaves and pinnate venation. The first supracotyledonous node of the stem has two simple leaves (primordial leaves) (Yenken, Soya, Yenken, 1989: 287). These primary leaves, in accordance with the Müller-Haeckel biogenetic law, are considered as phylogenetically older forms of leaves. A common feature for all soybean species is the presence of underdeveloped subulate stipules at the base of the rachis and stipules at the base of a single leaflet. The corolla of the flower is purple in various shades and white (Novruzov, 2010: 124).

Soybean fruits are beans that open in two flaps along the ventral and dorsal sutures and usually contain 2-3 seeds. The beans are mostly large - 4-6 cm long, as a rule, resistant to cracking. The pericarp (bean flap) of soybean consists of 3 layers - exocarp, mesocarp and endocarp. The main part of the endocarp is the sclerenchyma, which forms the so-called parchment layer. It is believed that it is the sclerenchyma, drying up and shrinking, that contributes to the cracking of the beans.




**Picture 1.** ***Glycine max*** **L**

The main form of soybean seeds is oval, with different convexity. The size of the seeds varies from very small - the weight of 1000 seeds is 60-100 g, to very large (more than 310 g) with a predominance of medium-sized seeds - 150-199 g. The seed coat is dense, often shiny, which often turns out to be practically impermeable to water, forming so-called. "hard" or "hard stone" seeds. Under the seed coat there are large axial organs of the embryo occupying the central and largest part of the seed - the root and the kidney, often colloquially referred to as the embryo (Shpaar, 2000: 264). The color of the seeds is predominantly yellow, occasionally there are forms with black, green and brown seeds. Soybean occupies the first place in the world among cereals and legumes. In the world agricultural system, its cultivated area is 67 million hectares. Soy is grown in about 50 countries (Cəfərov, 2000: 112). This plant is cultivated in many parts of the world. The average yield worldwide is 14-15 centners. In advanced farms, under irrigation conditions, grain yield was 25-30 centners, and green mass yield was 250-300 centners. Mainly well-watered chestnut, light-chestnut gray-brown soils, etc. suitable for soybeans.




**Picture 2. Distribution of soybean production in the world**

Soybeans can be grown after cereals, corn and cotton in crop rotation. Soybeans should not be planted after soybeans, sunflowers, annual legumes and perennial leguminous forage grasses. If the predecessors are cereal crops, the stubble should be removed from the field as soon as the crop is harvested and the stubble should be covered.

**Biochemical composition and use.**

The main biochemical component of soybean seeds is protein. Among all cultivated crops in the world, soybean is one of the highest protein. According to various sources, the protein content in the seeds of this crop averages 38-42%, and can reach up to 50%. Soy proteins are heterogeneous in structure and function. Soy is rich in essential amino acids, especially lysine (2-2.7%), which is poor in grain proteins Most of the soy protein (about 70%) is made up of storage proteins 7S-globulins (β-conglycinins) and 11S-globulins (glycinins). Which are quite normally absorbed by mammals. Due to the fact that a significant part of soy proteins are water-soluble proteins, obtaining vegetable protein from soy is most effective (Kərimov, 2010: 378). Soy flour is the most widely used source of protein in the creation of balanced feeds, however, during the production process, it needs heat treatment to inactivate anti-nutritional components (Zelentsov, Kochegura, 2006). Among the residue there are substances that are considered to be anti-nutritional components of food, such as inhibitors of proteolytic enzymes, lectins, urease, lipoxygenase, and others.Anti-Nutritional Ingredients. Protease inhibitors make up 5-10% of the total amount of protein in soybean seeds. Their activity ranges from 7 to 38 mg/g. A distinctive feature of these substances is that, interacting with enzymes designed to cleave proteins, they form stable complexes devoid of both inhibitory and enzymatic activity.

The result of such a blockade is a decrease in the absorption of dietary protein substances. Once in the stomach, some of the inhibitors (30-40%) lose their activity, while the most stable ones reach the duodenum in an active form and inhibit the enzymes produced by the pancreas. As a result, the pancreas is forced to produce them more intensively, which can ultimately cause its hypertrophy. Lectins (from Latin legere - to collect) are proteins and glycoproteins that have the ability to bind carbohydrate residues on the surface of cells in a highly specific manner, in particular, causing their agglutination. Lectins are often involved in cellular recognition, for example, some pathogenic microorganisms use lectins to attach to the cells of the affected organism. Lectins were originally isolated from plant seeds, but they are found in most living organisms. Lectins can cause erythrocyte agglutination, and also have selective mitogenic activity against various blood cell subpopulations.Lectins (phytohemagglutenins) are glycoproteins. They disrupt the absorption function of the intestinal mucosa, increase its permeability to bacterial toxins and decay products, agglutinate erythrocytes of all blood groups, and cause growth retardation. In the composition of the protein, they are from 2 to 10%, and the activity ranges from 18 to 74 HAU / mg of flour. Lectins are well extracted with water and alcohol. Some researchers note that milder conditions are sufficient for inactivation of lectins than for trypsin inhibitors, namely, treatment with propionic acid or thermal exposure at 80–100 °C for 15–25 minutes.rease is an enzyme that carries out the hydrolytic cleavage of urea with the formation of ammonia and carbon dioxide. The level of its activity is important only for dairy farming when using soy in feed containing urea, since the interaction of urease with feed urea produces ammonia, which poisons the animal's body. In the original soybean seeds, the proportion of urease can reach 6% of the amount of all proteins.

Lipoxygenases are iron-containing enzymes that catalyze the dioxygenation reaction (the addition of two oxygen atoms) to polyunsaturated fatty acids. Different types of lipoxygenases are found in plants, animals and fungi. They are involved in various cellular functions. Lipoxygenase is an enzyme that oxidizes lipids containing cis-cis-diene units. The resulting hydroperoxide radicals oxidize carotenoids and other oxygen-mobile components, thereby reducing the nutritional value of soybeans. In addition, under the action of lipoxygenase, during long-term storage of seeds, aldehydes and ketones (hexanal, ethyl vinyl ketone) are formed in them, which give soybean a specific unpleasant odor and taste. Soy is not only a source of protein, but also oil, the content of which in the seeds ranges from 16 to 27%. Crude oil contains triglycerides and lipoid.

Carbohydrates in soy are 22-35%, they include sucrose, dextrins, hemicelluloses, a small amount of monosaccharides and fiber. Soy is low in (1-1.5%) starch. Micro and macro elements (Petibskaya, 2012: 17). Minerals make up 4-6%. The composition of the ash elements of soybean seeds includes the following macroelements (in mg per 100 g of seeds): potassium - 1607, phosphorus - 603, calcium - 348, magnesium - 226, sulfur - 214, silicon - 177, chlorine - 64, sodium - 44, as well as trace elements (in micrograms per 100 g): iron - 9670, manganese - 2800, boron - 750, aluminum - 700, copper - 500, nickel - 304, molybdenum - 99, cobalt - 31.2, iodine - 8.2. The plant contains many vitamins. Benefiting from the rich composition of soybeans, soy milk is produced after soaking, grinding and filtering the beans. According to some nutritionists, soy milk is rich in nutrients A, D, E, B vitamins, riboflavin and iron. Plain soy milk is very rich in protein. Compared to regular cow's milk, it has more fiber and is fatter than cow's milk. These fats are not harmful to the body, on the contrary, they lower cholesterol levels. A distinctive feature of soy is the highest content of phospholipids in comparison with other crops. In soybean oil, their content ranges from 1.5–2.5%. Phospholipids promote membrane regeneration, increase the detoxifying ability of the liver, have antioxidant activity, reduce the need for insulin in diabetics, prevent degenerative changes in nerve cells, muscles, and strengthen capillaries. There have been some concerns that soy may have a "feminizing" effect, or lower testosterone levels in men, affecting erections and sperm quality. Soy is called by whom the main testosterone-lowering product in men unauthoritative source (Sərdarova, 2022: 704). This is because the active ingredients in soy, isoflavones, are derived from phytoestrogens, plant-derived compounds that may behave similarly to estrogens. Estrogens are hormones that are actively involved in the female reproductive system. Men's bodies also produce estrogens, but in much smaller quantities. However, some [who?] men fear that consuming phytoestrogens can lower testosterone levels, which will reduce sex drive source unspecified 548 days.

Scientists have been studying the effect of soy on testosterone levels for many years. In 2010, the journal Fertility and Sterility published an analysis of more than 30 related studies involving more than 900 men on the US National Library of Medicine website. The researchers concluded that “neither soy products nor isoflavone supplements alter bioavailable testosterone levels in men. Soy is the most common among legumes and oilseeds. It is widely used as a food, fodder and industrial crop. Butter, milk substitutes and lactic acid products, flour are made from it. Soybean oil makes up about 30% of the vegetable oils produced in the world. Soy flour is used as a protein supplement. Since soy milk does not contain lactose, it is the best alternative that can be preferred especially by people with lactose intolerance. Soy milk is a suitable option for people with cow's milk allergy, which has been increasing in recent years. It is also used by vegetarians instead of cow's milk. The daily food amount of soy milk should not exceed 100 ml. Some studies have shown that those who prefer soy products lose weight better. This is attributed to the positive effects of soy isoflavans on insulin regulation and fat metabolism. For this reason, soy milk can be added to the list of options for those who want to lose weight.

## Conclusion

Soybean is a sensitive plant to fertilization. Experiments have determined that soybean absorbs 142 kg of N, 32 kg of P2O5, 35 kg of K2O to produce a product of 20 centners. Under the main plow, N 60–90 kg, P2O5 60–90 kg, K2O 30–54 kg should be given. 30% of nitrogen fertilizer should be given before sowing, and the rest as feeding twice, including 40% 2-3 weeks after the harvest, and 30% during the period of bean formation and graining. Cubes RUM-5,1; It can be applied with RMQ-4 manure spreaders. Grade 1 seed should be taken for sowing. Before sowing, seeds should be treated with rhizorthorphin (nitragin) at the rate of 200 grams per hectare. That amount of rhizotorphin should be dissolved in 1.2 liters of water and sprayed on the tissue. For the purpose of combating bacteriosis, root rot, aminomycosis, and fusarium diseases, 1-2 kg of 70% tachigran should be applied to 1 ton of tissue at least 3-4 weeks before sowing.

As a result, we can note that the soy plant ranks first in the world in terms of its medicinal value. Soy milk has many benefits. Due to the content of Omega-6, Omega-3 fatty acids and iron, soy milk makes the walls of blood vessels more elastic and durable. In addition, these substances prevent the deterioration of blood vessels by the action of free radicals and the addition of cholesterol in the inner walls; It stabilizes the blood lipid profile. Doctors consider this property one of the best for soy products. Poly and monosaturated fats inhibit the transport of cholesterol into the blood, thus reducing the concentration of high-density lipoprotein ("good" cholesterol) Prevents cancer. Soy milk has good anti-cancer properties. Some studies show that its use reduces the risk of developing prostate cancer in men and breast cancer in women;Prevents the development of osteoporosis; Thanks to its high antioxidant properties, soy milk prevents the destructive effect of free radicals on tissues and cells, slows down their aging;It is easy to digest because it does not contain gluten and lactose; It is a source of protein;It affects the reduction of symptoms that occur after menopause in women.

## References


1. Osipov, YU.S. (2004-2017). Bol'shaya rossiyskaya entsiklopediya: [v 35 t.] gl. red. M.
2. Mikulovich, L., Lisovskaya, D. (2009). Tovarovedeniye i ekspertiza zernomuchnykh tovarov. Minsk: “Vysheyshaya shkola”.
3. Məmmədov, Q.Y. (2009). Dənli-paxlalı bitkilərin botaniki quruluşu və bioloji xüsusiyyətləri. Bakı: ADAU. Arxivləşdirilib 2015-06-21 at the Wayback Machine
4. Qurbanov, E.M. (2009). Ali bitkilərin sistematikası. Bakı Universiteti nəşriyyatı, 420 s.
5. Yenken, V.B., Soya, V.B., Yenken, M. (1989). Gos. izd-vo s.-kh. lit-ry., 653 s.
6. Novruzov, V. (2010). Fitosenologiyanın əsasları. Bakı: Elm, 308 s.
7. Shpaar, D. (2000). Zernobobovyye kul'tury. Minsk, 264 s.
8. Cəfərov, M.İ. (2000). Kənd təsərrüfatı bitkilərinin becərilmə və yığılma texnologiyası. Bakı, 264 s.
9. Kərimov, Y.M., Tahirov, S.A. (2010). Farmokoqnoziya. Bakı: “Herbaflora” nəşriyyat, 741 s.
10. Zelentsov, S.V., Kochegura, A.V. (2006). Sovremennoye sostoyaniye sistematiki kulturnoy soi Glycine max (L.) Merrill. Maslichnyye kul'tury: Nauchno-tekhnicheskiy byulleten. Vserossiyskogo nauchno - issledovatel'skogo instituta maslichnykh kul'tur. № 1(134). Arkhivirovano 1 noyabrya 2014 goda.
11. Petibskaya, V.S. (2012). Soya: khimicheskiy sostav i ispol'zovaniye. Maykop: OAO Poligraf - YUG.
12. Sərdarova, A.S. Əczaçılığın botanikası. Azərbaycan Universiteti. Bakı, 852 s.


Received: 30.03.2023 Accepted: 30.05.2023

DOI: https://doi.org/10.36719/2663-4619/91/140-145

**Ələsgər Vəliyev**
Azərbaycan Tibb Universiteti
tibb üzrə fəlsəfə doktoru
alaskar67@gmail.com
**Elza Orucova**
Azərbaycan Tibb Universiteti
tibb üzrə fəlsəfə doktoru
elzaqudretqizi@gmail.com
**Gülnarə Kərimova**
Azərbaycan Tibb Universiteti
gulnara948@gmail.com
**Rəna Nəzərova**
Azərbaycan Tibb Universiteti
nazarova.r1959@gmail.com
**Maya Fərzəliyeva**
V.Axundov adına METTP İnstitutu
mayafarzaliyeva04@gmail.com

# MƏNŞƏYİ MƏLUM OLMAYAN QIZDIRMA HAQQINDA

**Xülasə**

Qızdırma müxtəlif pirogenlərə, o cümlədən infeksion xəstəliklərin törədicilərinə qarşı orqanizmin qeyri-spesifik müdafiə reaksiyası olsa da, onun çox yüksək dərəcələrə qalxması *(hiperpireksiya)* və xüsusilə uzun müddət davam etməsi bir sıra kritik hallar-infeksion toksiki şok, kəskin ürək-damar, böyrək çatışmazlığı verə bilər. Qızdırmalı vəziyyət tənəffüsü və ürək vurğularını sürətləndirir, toxumaların oksigenə tələbatını artırır. Hərarətsalıcı dərmanlar müvəqqəti *apireksiya* vəziyyəti yaratsa da, bunun mənfi təsirləri daha ciddi olur. Odur ki, ilk növbədə qızdırmanın səbəbini araşdırmaq, yəni nozoloji diaqnoz qoymaq lazımdır. Bəzən bütün cəhdlərə baxmayaraq buna nail olmaq uzun vaxt tələb edir. Kliniki praktikada 3-4 həftədən çox çəkən 38°C-dən yüksək qızdırmanın səbəbi adi müayinə üsulları ilə təyin olunmayan vəziyyət *“Mənşəyi məlum olmayan qızdırma”* adlandırılır. Biz 2010-2022-ci illər ərzində bu diaqnozla stasionara göndərilmiş 83 xəstə müşahidə etmişik. Klinik-laborator və alət müayinələrinin köməyi ilə onların 43 nəfərində (51,8 %) infeksion xəstəliklər – sepsis − 21 nəfər, bruselloz − 8, infeksion mononukleoz − 5, koronovirus infeksiyası − 5, qarın yatalağı − 2 və septiki forma salmonelloz − 2 nəfərdə aşkar etmişik. Qalan 40 (48,2 %) xəstədə ginekoloji, uroloji, kardioloji, endokrin, cərrahi xəstəliklər, ağ ciyər vərəmi tapılmışdır. İnfeksion xəstəliklərin müəyyən edilməsində qızdırmanı müşayiət edən digər simptomların − ekzantema, hepatosplenomeqaliya, limfadenopatiya, hemoqram göstəriciləri və epidemioloji anamnezin xüsusi əhəmiyyəti olmuşdur.

***Açar sözlər:*** *qızdırma, ekzantema, limfadenit, hepatosplenomeqaliya, hemoqram*

**Alasgar Valiyev**
Azerbaijan Medical University
Doctor of Philosophy in Medicine
alaskar67@gmail.com
**Elza Orujova**
Azerbaijan Medical University
Doctor of Philosophy in Medicine
elzaqudretqizi@gmail.com
**Gulnara Karimova**
Azerbaijan Medical University
gulnara948@gmail.com

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 2.255. 2023 / Cild: 17 Sayı: 6 / 140-145 ISSN: 2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 2.255. 2023 / Volume: 17 Issue 6 / 140-145 e-ISSN: 2708-986X

**Rana Nazarova**
Azerbaijan Medical University
nazarova.r1959@gmail.com
**Maya Farzaliyeva**
NSRMP Institute named after V.Akhundov
mayafarzaliyeva04@gmail.com

## About fever of unknown origin

### Abstract

Fever is a reaction of the body against various pyrogens, including the pathogens of infectious diseases. Rising to a very high levels (hyperpyrexia) and especially its continuation for a long timecan lead to a number of critical cases − infectious toxic shock, acute cardiovascular and renal failure. Hyperthermia accelerates the heart beat, and increases the oxygen demand of the tissues. Antipyretic drugsalthough it creates a temporary apathy situation, its negative effects are more serious. So don't rush in the first turn It is necessary to investigate the cause, i.e. make a nosological diagnosis. Sometimes, despite all efforts, it takes a long time to achieve that. In clinical practice, the cause of fever higher than 38°C lasting more than 3−4 weeks is common examination methods- not assigned called as fever of unknown origin. We are doing this in the years 2010−2022. We examined 83 patients who were sent to the hospital with that diagnosis. With the help of clinical-laboratory and agate examinations 43 of them (51%) had infectious diseases: sepsis − 23, brucellosis − 3, infectious mononucleosis − 5, coronavirus infection − 5 and abdominal typhus − 2. Gynecological, urological, cardiological, endocrine, surgical diseases and lung tuber-culosis in the remaining 40 patients was found. Is another aid in the diagnosis of infectious diseases was symptoms-exanthema, hepatosplenomegaly, lymphadenopathy, hemogram indicators and epidemiological anamnesis has been of strategic importance.

***Keywords:*** *fever, exanthema, lymphadenitis, hepatosplenomegaly, hemogram*

### Giriş

Uzun müddətli qızdırmalı vəziyyət, xüsusilə mənşəyi məlum olmayan qızdırma (MMQ) həmişə praktik həkimlərin diqqət mərkəzində olmuşdur. Kliniki praktikada üç həftədən çox çəkən, 38°C-dən yüksək olan və adi müayinə üsülları ilə səbəbi tapılmayan qızdırmalı vəziyyət “Mənşəyi məlum olmayan qızıdrma” adlandırılır (Vek, 2008: 304; Delyagin, 2011: 49-524; Engelberg, 2011: 689-694). Onun başlıca səbəbi infeksion, şiş və kollagenoz xəstəlikləri hesab edilsə də, bütün cəhdlərə baxmayaraq 15-20 % xəstələrdə bu patologiyalardan heç biri aşkar oluna bilinmir. Tibbi ədəbiyatda MMQ-nin bu səbəbləri göstərilir (Gritsinger, 2011:11).

| | |
|---|---|
| İnfeksion xəstəliklər | Toksiki vəziyyətlər |
| Onkoloji xəstəliklər | Endokrin xəstəliklər |
| İmmunoloji pozğunluqlar | Metobolik pozğunluqlar |
| Kollagenozlar | Anadangəlmə pozğunluqlar |
| Dərman xəstəlikləri | Müxtəlif zədələnmələr |
| Degenerativ proseslər | Səbəbi məlum olmayan hallar |
| Demielinləşmələr | - |

Səbəbi bilinməyən qızdırmanın hərarət salıcılarla aradan qaldırılması praktikada çox rast gəlinən bir haldır. Halbuki qızdırma orqanizmin müdafiə reaksiyası olmaqla infeksion xəstəliklərin patogenezində böyük rol oynayır. Onun təsirindən mübadilə prosesləri sürətlənir, hüceyrə və humoral immunitet sistemləri fəallaşır, orqanizmin rezistentliyi yüksəlir (Helmbach, 2013: 2171; Ivashkin, 2015: 187; Tarasova, 2008: 214-219).

Davamlı qızdırmaya görə müraciət etmiş xəstələr arasında infeksion xəstəliklərin rolu, onları digər qızdırmalı vəziyyətlərdən fərqləndirən əsas kriteriyaların müəyyən edilməsi erkən diaqnoz, adekvat müalicə və qorxulu ağırlaşmaların profilaktikası üçün böyük əhəmiyyətə malikdir.

2010-2022-ci illər ərzində uzun müddətli qızdırması olan 83 xəstə üzərində müşahidə aparmışıq. Diaqnozun dəqiqləşdirilməsi üçün rutin müayinə üsulları − xəstələrin şikayətləri, xəstəliyin anamnezi, həyat anamnezi və epidemioloji məlumatlarla yanaşı dəqiq obyektiv və laborator müayinə üsullarından, dinamik müşahidələrdən istifadə etmişik. Bütün xəstələrə klinik-laborator müayinələr − qanın, sidiyin, nəcisin ümumi müayinələri ilə yanaşı bakteroloji, sero-immunoloji reaksiyalar, MRT, KSM, KT, bir sıra hallarda endoskapiya, punksion biopsiya tətbiq edilmiş, müvafiq mütəxəsislərlə məsləhət olunmuşdur.

Müşahidələrimiz göstərmişlər ki, xəstələr 15-20 gün müddətində müxtəlif mütəxəsislər tərəfindən uğursuz müayinə və müalicə cəhdlərinə məruz qalmış, bəzən medikamentoz-toksiki hepatit, eşitmə sinirinin toksiki nevriti, disbakterioz və s. kimi ağırlaşmalar baş vermişdir.

Əksər hallarda anamnez məlumatları və klinik-laborator müayinələrin nəticələri kifayət qədər dəqiqləşdirilməmiş, hematoloji, seroloji və bakterioloji tədqiqatlar vaxtında aparılmamış, onların cavabları düzgün qiymətləndirilməmişdir. 12 nəfər xəstədə MMQ vəziyyət etiotrop və patogenetik müalicənin vaxtında başlanmaması və onun düzgün təşkil edilməməsi ilə əlaqədar olmuşdur.

Qızdırma, qızdırmanın növü və tipi, qızdırma əyrilikləri diaqnozun vacib faktorları olsa da onları müşaiyət edən ayrı-ayrı kliniki əlamətlərin öyrənilməsinə də diqqət yetirilməlidir. Belə ki, dəri səpgiləri, periferik limfa vəzilərinin vəziyyəti, hepatolienal, dispeptik, artralgik, meningial, respirator sindromlar, qanın biokimyəvi, hematoloji göstəriciləri nəzərə alınmalıdır (Kolyujnaya, 2015: 76-80; Lyapina, 2010: 54-58).

Kompleks klinik-anamnez və epidemioloji məlumatlar, laborator və alətlərlə müayinələrin köməyi ilə 83 qızdırmalı xəstələrin 43-də (51,8 %) müxtəlif infeksion mənşəli xəstəliklər aşkar etmişik. Onların əksəriyyətində qızdırma − ginekoloji, cərrahi, uroloji, stomatoloji xəstəliklərin angina mənşəli sepsisin − 21 nəfər (48,8 %), habelə brusellozun – 8 (18,6 %), infeksion mononukleozun − 5 (11,6 %), koronavirus infeksiyasının − 5(11,6 %), qarın yatalağının − 2 (4,6 %), salmonellozun septiki formasının − 2 (4,6 %) təzahürü olmuşdur (Vəliyev, 2020: 53-55; Vəliyev, 2013: 27-33).

Qalan 40 (48,2 %) xəstədə uzun müddətli qızdırmanı kollagenozlardan Still xəstəliyi, revmatizm, revmatoid artritlə yanaşı, xolangio-xolesistit, pielonefrit, endokardit, ağ ciyər vərəmi, şiş xəstəlikləri-limfoleykoz, ağ ciyər xərcəngi, hepatosellülyar xərçəng, endokrin xəstəliklərindən-tireotoksikoz vermişdir.

İnfeksion xəstəliklərin diaqnozunu dəqiqləşdirərkən biz əsas diqqəti xəstələrin şikayətlərinə, klinik-anamnez məlumatlarına, epidemioloji anamnezə, ayrı-ayrı simptomların əmələ gəlməsi və inkişafına, onların ardıcıllığına yetirmişik. Məsələn, qızdırma ilə yanaşı 15 xəstədə müxtəlif dəri səpgiləri, 19 − periferik limfa vəzilərinin böyüməsi, 7 − dispeptik, 27 − hepatolienal, 4 − meningial və s. sindromlar aşkar edilmişdir.

Katamnezdə xəstənin qəbul etdiyi müalicə peparatlarının effektivliyi (ya effektsizliyi) və onların yaratdığı yan təsirlər də nəzərə alınmışdır,

Ginekoloji sepsisin əsas səbəbi: endometrit, doğuş travmaları, yumurtalığların iltihabı, süni abort olmuşdur. Dölün bətndaxili ölməsi və uşaqlığın yumurtalıqlarla birlikdə ekstripasiyası da sepsislə ağırlaşma vermişdir. Bazu sümüyünün açıq sınığından sonra inkişaf etmiş osteomielitin uzun müddət qızdırma verməsi özünü sepsis təzahürləri ilə göstərmişdir. Bel fəqərələrinin travmatik zədəlnməsi nəticəsində aşağı ətrafların iflicinə görə uzun müddət yataqda olan xəstədə sidik kisəsi sfinkterinin boşalması və qeyri-iradi sidik ifrazı qalxan infeksiyaya və septiki pielonefritə səbəb olmuşdur. Uzunmüddətli qızdırmaya və hepatolienal sindroma görə tif-paratif xəstəliklərinə şübhə yaransa da xəstənin katamnezi və qarın yatalağına aid xarakter əlamətlərin − rozeola səpgisi, tifoz dil, tifoz status, xarakter hemoqramın olmaması və s. onu inkar etməyə və uroloji sepsis diaqnozu qoymağa əsas vermişdir.

Sepsisisn klinik – epidemioloji diaqnozu ancaq qanın (xüsusilə arterial qanın) ardıcıl olaraq bir neçə dəfə əkilməsi və etioloji amilin tapılması ilə təstiq edilir. Lakin hemokulturanın alınması çox vaxt tələb etdiyi üçün həm empirik antibiotikoterapiya, həm də bu müddət ərzində qanda toplanan anticisimlər mikrobların inkişafına ciddi ləngidici təsir göstərməsi diaqnozun dəqiqləşdirilməsini xeyli cətinləşdirə bilər. Bu halda sepsisə xas olan klinik əlamətlər − təkrar üşütmələr və güclü tərləmələrlə müşaiyət olunan hektik qızdırma, hepatolienal sindrom, hemoqram dəyişiklikləri − yüksək neytrofil leykositoz, çubuq – və gənc neytrofillərin çox olması (sola meyl), EÇS-in və SRP artması və patogenetik səbəb olan irin ocağının tapılması diaqnozu təsdiq etməyə əsas verir.

Kəskin brusellozun septiko-piemik təzahürləri xəstəliyin ilk günləri xəstənin xoş əhval ruhiyyəsi fonunda inkişaf etmiş, sonra onlara mikropoliadeniya, hepatolienal sindrom, iri oynaqlarda ağrı, cinsiyyət üzvlərinin zədələnməsi – orxit, epididimit, endometrit və plasentitə görə təbii abort və s. qoşulmuşdur (Vəliyev, 2019: 333-337; Vəliyev, Məmmədova, Mətiyeva, 2021). Epidemioloji anamnez məlumatları ilə yanaşı xəstəliyin 7-8-ci günlərindən qanda kifayət qədər anticisimlərin toplanması aqqlütinasiya reaksiyaları (Rayt, Xeddelson, Kumbs, Rozbenqal) və KBR ilə diaqnoz təstiq olunmuşdur. Qanın əkilməsinin nəticəsi 3-4 həftədən sonra məlum olsa da, onun müsbət cavabı çoxetiologiyalı brusellozun törədicisini və infeksiya mənbəini tapmağa imkan verdiyi üçün əhəmiyyətlidir (Choiz, 2010: 801-808).

Uzunmüddətli qızdırma infeksion mononukleozun da əsas təzahürlərindən biri olmuşdur (Vəliyev, Bayramov, Məcidov, 2020: 226-227). Xəstəliyin xarakter xüsusiyyətləri onun əsasən ilin soyuq fəslində, gənc oğlanlarda rast gəlməsi, virus tərəfindən törədildiyinə görə antibiotiklərlə empirik müalicənin effekt verməməsi və xarakter hemoqram dəyişiklikləri olmuşdur. Xəstəliyin polimorf təzahürlərə − angina, mikropoliadeniya, hepatit, dispeptik pozğunluqlara səbəb olan pankreatit, xolesistit differensial diaqnozu xeyli çətinləşdirsə də son diaqnoz davamlı ya fasiləli tip hipertermiya, profuz tərləmə, periferik limfa vəzilərinin böyüməsi, angina, hepatolienal sindrom və hematoloji dəyişikliklərə görə qoyulmuşdur (Vəliyev, 2013: 363).

Hər bir xəstədə qızdırmanın mənşəini müəyyən etmək üçün klinik-anamnez məlumatları hərtərəfli araşdırdıqdan sonra diaqnoz haqda fərziyyə yaratmaq və əlavə müayinələrlə onu təstiq etməyə çalışmaq lazımdır. Bu zaman müayinə üsullarının düzgün seçilməsinə, müayinə materiallarının götürülmə qaydalarına və icra müddətinə ciddi diqqət yetirilməlidir.

MMQ xəstələr arasında infeksion xəstəlikləri aşkar etmək üçün əsasən 4 müayinə üsuluna üstünlük vermişik: mikroskopiya, mikrobioloji, sero-immunoloji və allerqoloji. Onların diaqnoz üçün əhəmiyyətini artırmaq məqsədilə aşağıdakı şərtlərə ciddi əməl etmişik: hər müayinə üsulu xəstəliyin patogenezinin dövrlərinə uyğun vaxtda tətbiq olunmuş; müayinə materialları xəstəlik dövrü təkrarən yoxlanmış; mümkün olduqca müayinə üsullarından kompleks şəkildə istifadə etmişik.

İnfeksion xəstəliyin dəqiq diaqnozu üçün mikrob kulturasının əldə olunması böyük əhəmiyyətə malikdir (Tarasova, 2008: 204-219; Goiz, 2021: 801-808). O, etioloji diaqnozun müəyyən edilməsi ilə yanaşı, mikrobun həssas olduğu antibiotiki seçməyə və mikrobun ştamına uyğun vaksin hazırlamağa imkan verir. Bu zaman qanın, sidiyin, nəcisin, onurğa beyni mayenin mikrobioloji analizləri mütləq etiotrop müalicəyə qədər tətbiq olunmuşdur. Süni qida mühitinə arterial qanın əkilməsi daha çox hallarda – 65 % müsbət nəticə almağa imkan vermişdir. Bakterioloji müayinənin müsbət nəticəsi üçün əvvəlki əkmənin cavabını gözləmədən təkrar əkmələr icra olunmuşdur. Bu daha çox hallarda mikrob kulturası əldə etməyə imkan vermişdir (63 %). Birdəfəlik əkmədə bu göstərici 30 % olmuşdur.

Bakterioloji müayinəyə növbəti tələb, götürülən qanın miqdarı ilə süni qida mühiti arasındakı nisbətin ciddi gözlənilməsidir. Adətən bu nisbət 1:10 olmalıdır. Yəni 1 ml qan 10 ml süni qida mühitinə əkilməlidir. Lakin qızdırmanın ilk günləri belə mütənasiblik ideal sayılsa da müayinə gec tətbiq olunduqda qanın miqdarı 10-20 ml-ə qədər (buna uyğun olaraq süni qida mühiti 100-200 ml) artırılmalıdır. Çünki xəstəliyin gec dövrlərində qanda daha az mikrobun qalması ilə yanaşı humoral immunitet faktorları və müalicədə istifadə edilmiş antibiotiklər mikrobun çoxalmasına mane ola bilərlər. Qanı əkərkən aseptika və antiseptika qaydalarına da ciddi əməl olunmalıdır. Kənardan süni

qida mühitinə düşmüş təsadüfi mikrob (artefakt) diaqnozun dəqiqləşdirilməsinə ciddi maneə törədə bilər.

Mikrobioloji müayinə müsbət nəticə vermədikdə və xəstəliyin gec dövrlərində diaqnoz sero-immunoloji reaksiyalar vasitəsilə dəqiqləşdirilmişdir. Bu zaman mikrob antigeninin aşkar edilməsinə imkan verən aqqlütinasiya reaksiyaları xəstəliyin erkən dövrlərində əhəmiyyətli olmuşdur. Anticisimlər qanda tədricən topladığından onlar xəstəliyin 2-3-cü həftələrindən sonra diaqnostik titrə çatırlar. İlk müayinədə aqqlütinasiya titri zəif, yəni 1:50, 1:100 olarsa 5-7 gündən sonrakı müayinədə titrin 3-4 dəfə çoxalması (*titrin artması fenomeni*) patoqnomonik əlamət hesab edildiyinə görə diaqnoz üçün əsas götürülmüşdür.

MMQ səbəblərini araşdırarkən mürəkkəb, çox vaxt və vəsait tələb edən müayinə üsulları ilə yanaşı periferik qanın morfoloji tərkibinin diqqətlə araşdırılmasından diaqnoz üçün vacib informasiya əldə etmişik.

